AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ
HÜSEYN CAVİDİN EV MUZEYİ

*Azərbaycan xalqının Ümummilli lideri*
***HEYDƏR ƏLİYEVİN***
*100 illik yubileyi münasibətilə*

**GÜLBƏNİZ BABAXANLI**

# ÜMUMMİLLİ LİDER **HEYDƏR ƏLİYEV -** **HÜSEYN CAVİD** İRSİNİN BÖYÜK HAMİSİ

*(təkmilləşdirilmiş və əlavələr edilmiş ikinci nəşr)*

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
"Elm və Təhsil"
2023

UOT: 821.512.162
B13

*Hüseyn Cavidin Ev Muzeyinin Elmi Şurasının
6 aprel 2023-cü il tarixli, 5 saylı iclasının
qərarı ilə nəşr edilmişdir.*

**Elmi məsləhətçi:**

akademik **İsa HƏBİBBƏYLİ**

**Elmi redaktor:**

akademik **Teymur KƏRİMLİ**

**Babaxanlı Gülbəniz. Ümummilli lider Heydər**
B13 **Əliyev – Hüseyn Cavid irsinin böyük hamisi**
– Bakı: Elm və təhsil, – 2023. – 184 s.

Monoqrafiya Prezident cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edilməsi və Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə nəşr olunmuşdur.

Kitabda Ümummilli lider Heydər Əliyevin mütəfəkkir-şair Hüseyn Cavid naminə gördüyü işlər, göstərdiyi misilsiz xidmətlər elmi-nəzəri tədqiqata cəlb edilmişdir. Hüseyn Cavid irsinin böyük hamisi olan Heydər Əliyevin təşəbbüsü ilə dahi ədibin nəşinin uzaq Sibirdən Vətənə qaytarılması, mənəvi bəraət alması, adının uca tutulması, xatirəsinin əbədiləşdirilməsi, yaradıcılığının tədqiq, təbliğ, nəşr olunması tarixşünaslıq və cavidşünaslıq aspektindən araşdırılmışdır.

Ulu öndər Heydər Əliyev və Hüseyn Cavid arasında mənəvi körpü rolunu oynamış və bu il 100 illik yubileyi qeyd olunan Turan Cavidin də xidmətlərindən monoqrafiyada bəhs olunmuş, xatirəsi anılmışdır.

4603000000
N-98-2023 qrifli nəşr

© G.Babaxanlı, B.: Proqres, 2013
© G.Babaxanlı, B.: Elm və Təhsil, 2023,
təkmilləşdirilmiş və əlavələr edilmiş



# GİRİŞ

*Hüseyn Cavid poeziyası milli ədəbiyyat tarixində
yeni bir dövrün başlanğıcını qoymuşdur.*
**Heydər Əliyev**

*Kəssə hər kim, dökülən qan izini,
Qurtaran dahi odur yer yüzünü!*
**Hüseyn Cavid**

Ulu öndər **Heydər Əliyev** və mütəfəkkir-şair **Hüseyn Cavid**... Xalqımız üçün misilsiz xidmətlər göstərmiş iki DAHİ, iki böyük ŞƏXSİYYƏT... Onların adlarının qoşa çəkilməsi təsadüfi deyil, çünki Heydər Əliyev deyəndə, Hüseyn Cavid, Hüseyn Cavid deyəndə, Heydər Əliyev anılır.

Ümummilli lider Heydər Əliyev ömrünü xalqın yolunda sərf etmiş fenomenal bir dövlət xadimi, böyük siyasət adamı, görkəmli filosof-şair Hüseyn Cavid isə əsərləri ilə adını ədəbiyyat tari-

ximizə yazdırmış bənzərsiz bir söz ustadı idi...

Heydər Əliyev müasir Azərbaycanın, Hüseyn Cavid isə Azərbaycan ədəbiyyatında milli romantik şeirin, mənzum dram və faciə janrlarının banisi idi. Bu iki nəhəng şəxsiyyət arasında, onların cahanşümul əməlləri arasında bənzərliklər saysız-hesabsızdır və bu oxşarlıqda biri-birini tamamlayan cəhətlər də az deyil.

Ulu öndər monumental iradəsi ilə ən çətin anlarda belə, geri çəkilməyən, mətin, uzaqgörən, xalqını öz arxasınca irəli aparmağı bacaran bir siyasətçiydi. Hüseyn Cavid isə bunları şair, qələm sahibi ipostasında bacarmışdı. Heydər Əliyev bir siyasətçi kimi buna nail olmaq üçün ümummilli siyasi təfəkkürdən, təmsil etdiyi dövlətin adından bütün xalqa xitab edirdi, Hüseyn Cavid isə bir söz zadəganı kimi öz adından və hər bir insana ayrı-ayrılıqda səslənirdi. Bəli, Heydər Əliyev siyasət nəhəngi idi. Amma o, ağır Sovet siyasi konyunkturu şəraitində belə, ön plana hər şeydən öncə yalnız siyasi kimliyi ilə deyil, insaniyyəti, vətənpərvərliyi, millətsevərliyi ilə çıxırdı. Milli köklərə, tarixə, mədəniyyətə, ədəbiyyata bağlılıq və bu mənada nəhayətsiz təəssübkeşlik Ulu öndərin siyasi fəaliyyətinin özəyini təşkil edirdi.

O, bütün varlığı ilə siyasət adamı olsa da, bir





çox sahələri elə dərindən bilir və müxtəlif mövzularda elə danışırdı ki, dinləyənlər onu məhz həmin sahənin mütəxəssisi zənn edirdilər. Ulu öndərlə bağlı xatirələrdən birində bununla bağlı maraqlı bir məqama toxunulmuşdur. "...1960-cı illərdə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinə kəşfiyyat məlumatı daxil olur ki, Fransada yaşayan yaşlı bir soydaşımızda hansısa qədim əlyazmalar var və onların tarixi əhəmiyyəti olduqca böyükdür. Qərara alınır ki, həmin əlyazmalar Azərbaycana repatriasiya olunsun. O vaxt Heydər Əliyev professor Abbas Zamanovla görüşərək bu işi ona həvalə edir. Heydər Əliyevin kabinetində baş tutmuş həmin görüşdən çıxdıqdan sonra Abbas Zamanov vaxtilə tələbəsi olmuş və onu bu görüşə dəvət etmiş DTK zabiti Ramiz Məmmədzadəyə sual edir:

- Ramiz, Heydər Əliyevin ixtisası nədir?

- Bilirəm ki, tarixçidir, amma ixtisası üzrə çalışmayıb.

- Məgər, o filoloq deyil?

- Xeyr, Abbas müəllim, dəqiq bilirəm ki, o filoloq deyil".[1]

---

[1] Э.Ахундова. Гейдар Алиев ... борьба за рукописи Низами. 100 лет – человек-эпоха. https://haqqin.az

Heydər Əliyevin siyasətində ədəbiyyat ayrıca bir mənəvi söykənəcək, dayaq, qida mənbəyi rolunu oynayırdı. Hüseyn Cavid isə siyasət adamı deyildi, o bir ədəbiyyat nəhəngi olaraq yaşayıb-yaratmışdı. Şairin dil-ifadə zərifliyi, güclü və ziddiyyətli hadisələri toqquşdurma bacarığı, kompozisiya qurmaq səriştəsi, süjet dolğunluğu yaratmaq imkanı yazdığı əsərlərin bədii-estetik cazibəsini, məna tutumunu, fikir genişliyini dəfələrcə gücləndirmiş və Cavidi digər şairlərdən fərqləndirmişdi. Təsadüfi deyil ki, onun əsərləri milli poeziyamızın incilərindən sayılır.

Bununla belə, yəni romantizm cərəyanın nümayəndəsi olmasına baxmayaraq, Cavidin əsərlərində dövrün real siyasi vəziyyəti, bu siyasətdən doğan nəticələr də kifayət qədər ustalıqla əks etdirilmişdir. Hüseyn Cavid XX əsrin əvvəllərində formalaşmış siyasi mənzərəni, siyasi gərdişi dərindən duyur, lakin siyasi konyunkturun tələb etdiyi "sovet vətəndaşının lirikası"nı yaratmırdı. Onun belə demək mümkünsə, siyasi poeziyası, siyasi lirikası sovet ədəbi konsepti kimi qanunilaşdirilmək üçün "yararsız" idi. Çünki, Hüseyn Cavid ədəbiyyata diqtə ilə yaratmaq üçün gəlməmişdi.

Elə Heydər Əliyev də heç bir siyasi diqtəni, təzyiqi qəbul etməyən, müstəqil, güclü və mütəfəkkir bir dövlət başçısı idi. Onların hər ikisi həyatlarını haqq yolunda mübarizədə keçirmiş və əbədiyyətə şərəfli adla qovuşmuşlar.





Əlbəttə, bu məqamda Heydər Əliyev əbədiyyəti və Hüseyn Cavid əbədiyyəti ilə də bağlı bir neçə söz demək yerinə düşər. Bu iki əbədiyyətin birliyində, vəhdətində, Azərbaycanın iki qürur qaynağında, bütövlükdə Türk dünyasının, insanlığın iki qürur qaynağında duran, onları bir-birinə bağlayan ən möhkəm tellərdən biri məhz ədəbiyyatdır. Bu nədir, sadəcə bir təsadüfmü? Sözlərin səslənişindəki ilginc yaxınlıqmı? Hər halda, burada bir hikmət də olmamış deyil. Çünki hər iki dahi bəşər həyatında ədəbiyyatın roluna yüksək qiymət vermiş, onu insanlığın ərsəyə gətirdiyi ən böyük milli-mənəvi dəyərlər sırasına daxil etmişlər. Böyük Hüseyn Cavid 1915-ci ildə "Açıq söz" qəzetində dərc etdirdiyi "Müharibə və ədəbiyyat" məqaləsində öz vətənpərvər-proqressiv fikirlərini belə ifadə edirdi: "...Tələbə və talibələr ikmali-təhsildən sonra bir də kəndi filosofları, ədibləri tərəfindən yazılmış əsərləri mütaliəyə başlarlar. Şübhəsiz ki, ən faydalı düşüncələr, ən ciddi mühakimələr də yalnız fəlsəfə və ədəbiyyat vasitəsilə əldə edilə bilir... Bir gənc bir şeir, bir hekayə, bir roman, bir tarix, bir faciə oquyacaq olursa, dərhal

kəndisinə ruhdaş, məsləkdaş olmaq üzrə bir qəhrəman seçər, bir tip bəyənir və o ruhda yaşamağa yeltənir və o məsləkdə yaşamaq istər və bu yazılan əsərlər isə, adəta aləmşümul bir müəllim yerinə keçər, qarelərin ruhlarına nüfuz etməyə başlar". Dədə qorqudlar, nizamilər, füzulilər, cavidlər yurdunun dahi yetirməsi olan, bu böyük müəllimlərin əsərlərindəki humanist, vətənpərvər ideyalardan tərbiyə alan Heydər Əliyev də yuxarıda qeyd olunduğu kimi, ədəbiyyata çox böyük önəm verən və yeri gəldikcə, bu bəşəri təfəkkür sahəsinin inkişafına əlindən gələn yardımı əsirgəməyən dünya şöhrətli bir siyasət adamı, bir diplomat, bir ensiklopedik zəka sahibi kimi tanınmışdır. Onun ədəbiyyat, ədəbiyyatın bəşər tarixində oynadığı mütərəqqi rol barədə müdrik fikirləri çoxdur. Elə bilirik ki, həmin fikirlərdən birini bir daha səsləndirmək yerinə düşər. Ədəbiyyata, mədəniyyətə milli özünüifadə, özünütəsdiq vasitələrindən biri kimi yüksək önəm verən Ümummilli lider, bu obrazlı-intellektual fəaliyyət sahəsinin xüsusən, ideoloji-informativ mübarizədə əvəzsiz rola malik olduğunu təkidlə vurğulayırdı. Hüseyn Cavidin yuxarıda örnək gətirdiyimiz sözlərindən səksən il sonra Heydər Əliyev onunla həmfikir, həmməsləkdaş, həməqidə olduğunu öz dərin mənalı





sözləri ilə bir daha təsdiq edirdi: "...Biz daim çalışmalıyıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Qoy bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə əsaslanır. Bu, ona görə lazımdır ki, hamımıza məlum olan düşmən qüvvələr həmişə sübut etməyə çalışmışdır ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu, cəfəngiyatdır. Bəzən buna heç cavab vermək istəmirsən. Lakin xalqımıza düşmən olan, qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər respublikamızı parçalamaq, onun ərazisini qəsb etmək istəyənlər əvvəllər də çalışmışlar və indi də çalışırlar sübut etsinlər ki, guya Azərbaycan xalqı tarixi köklərə malik olan bir xalq deyildir. Ona görə də Füzuli kimi şəxsiyyəti dünyaya bir daha tanıtmaqla onun necə böyük şair, mütəfəkkir, filosof olduğunu və dünya mədəniyyətinə nə qədər töhfə verdiyini, onu necə zənginləşdirdiyini göstərəcəyik. Buna bizim əvvəllər də ehtiyacımız olmuşdur, lakin bu gün xüsusilə vacibdir. Çünki Azərbaycan müstəqil dövlətdir, xalqımız milli azadlığa nail olmuşdur və biz müstəqilliyimizin daimi, əbədi olması

üçün çalışırıq və bundan sonra da çalışacağıq".

Onu da xüsusilə vurğulamaq istəyirdik ki, Azərbaycanın Ümummilli lideri, Ulu öndər Heydər Əliyev kimi şeirə-sənətə, sənətkar şəxsiyyətinə hamilik edən dövlət başçıları tarixdə bəlkə də az tapılar. Azərbaycan xalqına rəhbərliyi boyu Heydər Əliyev klassik şair və yazıçıların yaradıcılığına böyük önəm verərək, daim diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin sevə-sevə qayğı göstərdiyi klassik Azərbaycan sənətkarları içərisində dahi şair və dramaturqumuz Hüseyn Cavidin müstəsna yeri vardır.

1937-ci ildə Hüseyn Cavid vətənpərvər əsərlərinə görə həbs və sürgün edilərkən Heydər Əliyev 14 yaşlı bir yeniyetmə idi. Qaynaqların yazdığına və özünün də təsdiq etdiyinə görə, tay-tuşları arasında ədəbiyyata, xüsusən dramaturgiyaya güclü meyl göstərən bir gənc kimi böyüyürdü. İnamla demək olar ki, o dövrün ən böyük dramaturqlarından olan Hüseyn Cavidin yaradıcılığı ilə də yaxşı tanış idi. Və bu tanışlıq bir neçə onildən sonra böyük sevgiyə çevriləcəkdi.

Əminliklə deyə bilərik ki, bir ədəbiyyat ustadı olmasına baxmayaraq, dövrün siyasi atmosferinə dərindən bələd olan Hüseyn Cavid ilə siyasət adamı olmasına rəğmən, bədii sözü yüksək səviyyədə duyan, ədəbiyyatın inkişafına hamilik edən Heydər Əliyev arasında qırılmaz mənəvi bağlar var və Ulu öndərin 100 illik yubileyi münasibətilə bu kimi mənəvi tellərin (oxu: Heydər Əliyevin Cavid uğrunda apardığı titanik işlərin) elmi-nəzəri cəhətdən tədqiq olunması, başqa sözlə, belə bir monoqrafiyanın hazırlanması Cavidşünaslıq baxımından böyük əhəmiyyət kəsb edir.

# İKİ DAHİ

*Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii-estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır.*
**Heydər Əliyev**

Bəşər tarixinin keşməkeşli gedişi sübut edir ki, dünyada baş verən ən mühüm hadisələr dahi şəxsiyyətlərin fəaliyyətinə birbaşa bağlı olur. Hətta bəzi ifrat sosial quruluşlarda bunu etiraf etmək istəməsələr belə, bəşər tarixinin yaradıcıları əslində elə böyük tarixi şəxsiyyətlərin özü olur.

Çoxlarının yaxşı yadında olar ki, Sovet dönəmində tarixdə xalq kütlələrinin müstəsna rol oynaması, şəxsiyyətin isə epizodik xarakter daşıması haqqında əsassız fikri marksist-leninçi tarix elmi inadla bizə təlqin edirdi. Ancaq nədənsə, dünya klassikasının ən böyük əsərlərinin niyə məhz





şəxsiyyət adları ilə adlandırılmasını izah etməyi ya bacarmır, ya ağıllarına belə gəlmir, ya da qəsdən yaddan çıxarırdılar. "Çıxarırdılar" deyəndə ki, bəlkə də bunun izahı "marksist-leninçi" adlanan yanlış metodologiya baxımından "əqidəli" kommunist ideoloqlarına sərf eləmirdi. Çünki bunu izah etməyə qalxışsaydılar, istər-istəməz şəxsiyyətin rolunu etiraf etməli olacaqdılar... Özü də tarixin istehzası üzündən, sovet quruluşunun ilk böyük ideoloji böhranı elə şəxsiyyətə pərəstiş şəklində üzə çıxdı, xalqa, xalq kütlələrinə pərəstiş şəklində deyil.

Bizim monoqrafiyamız da göründüyü kimi, Azərbaycan tarixində əvəzsiz rol oynamış, hətta ölkə tarixinin axınını müəyyənləşdirmiş məhz belə iki böyük şəxsiyyətin, qoşa zirvənin – Heydər Əliyevin və Hüseyn Cavidin adlarını daşımaqdadır. Milli dramaturgiyamızın və milli dövlətçiliyimizin inkişafında müstəsna rol oynamış və indi də oynamaqda davam edən bu iki böyük şəxsiyyətin. Onları hər cəhətdən Azərbaycan adlı qədim və mədəni bir ölkənin və millətin öncülü saymaq olar və bu siyahı çox uzanar; təkcə onu göstərmək kifayətdir ki, əvvəl də dediyimiz kimi, Hüseyn Cavid Azərbaycan mənzum dramının, Heydər Əliyev isə müasir müstəqil Azərbaycan dövləti-

nin yaradıcısıdır. Deməki, Hüseyn Cavidlə Heydər Əliyevi hər şeydən öncə, hər ikisinin yaradıcı şəxsiyyət olması bir-birinə yaxınlaşdırır. Doğrudur, onlardan birinin yaradıcılığı daha çox bədii-nəzəri, o birininki isə həm nəzəri, həm də praktik əhəmiyyət daşımışdır. Biri öz əsərləri ilə insanlara ədalətin və həqiqətin düzgün yolunu göstərmiş, o biri isə insanları ədalətin və həqiqətin, xalqa və vətənə xidmətin düzgün yolu ilə öz ardınca aparmışdır.

Azərbaycan klassik ədəbiyyatının, o sıradan Hüseyn Cavidin mütərəqqi humanist ideyaları, bəşəri görüşləri, insansevər ənənələri ruhunda böyümüş Heydər Əliyev Azərbaycan xalqının əvəzedilməz liderinə çevrildikdən sonra öz haqq işində daim bu ənənələri rəhbər tutmuşdur. O, Vətənin inkişafı, xalqın mədəni-mənəvi, sosial-əxlaqi tərəqqisi naminə daim bu ideyalardan faydalanmaqla, onların gur işığında irəliləməklə yanaşı, ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin həqiqi dəyərinin verilməsi və bütün dünyada tanıdılması üçün müstəsna işlər görmüş, sənətkarların layiqli qiymətini verməkdən ötrü əlindən gələni əsirgəməmişdir. Bu cür sənətkarların ön cərgəsində, yəqin ki, qədim Naxçıvan torpağının yetirməsi olan böyük Cavid dayanır.





Keçən əsrin 70-ci illərində ilk dəfə Respublika rəhbərliyinə gəldiyi dövrdən Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Mikayıl Müşfiqlə bir sırada Hüseyn Cavid sənətinə də dərin maraq göstərən Heydər Əliyev onun da adını Azərbaycan ədəbiyyatı qarşısında xüsusilə böyük xidmət göstərmiş sənətkarların arasında fəxrlə çəkmişdir. Səksəninci illərin əvvəllərindən isə Ümummilli liderimiz Hüseyn Cavid irsinə müntəzəm diqqət göstərmiş, kommunist rejimi tərəfindən repressiya edilmiş şairə layiqli qiymətin verilməsi işinə nəzarəti intensiv olaraq gücləndirmişdir. Qlobal siyasi kataklizmlərdən sonra 1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə hakimiyyət başına gələn Heydər Əliyev həmin ilin sentyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasının ziyalıları ilə tarixi görüşündə Hüseyn Cavidin şəxsiyyəti və yaradıcılığı ilə bağlı gördüyü işləri belə xatırlayırdı: "Böyük filosof-şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi. Ancaq təəssüf edirəm ki, 1981-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında qəbul edilmiş qərarı

Azərbaycanda on il ərzində həyata keçirmədilər. İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu?"

Əlbəttə, Cavid kimi dahi şairin əsərlərinin lazımi səviyyədə nəşr edilməsi üçün Ulu Öndərin büruzə verdiyi bu narahatlıq, Azərbaycan ədəbiyyatının böyük mesenatı olan bir insan üçün təbiidir. Ancaq nə yazıq ki, onun sağlığında bu narahatlıq, bir neçə əsər istisna olmaqla, bütövlükdə Cavid yaradıcılığı miqyasında aradan qaldırıla bilmədi. Yalnız 2005-ci ildə Cavid külliyyatının orijinala tam uyğun şəkildə şairin qızı Turan Cavid tərəfindən hazırlanmış beşcildliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının imzaladığı sərəncama əsasən latın qrafikası ilə çap edilərək xalqımıza çatdırıldı. Bu da təsadüfi deyil, çünki Vətən qeyrəti çəkən ataların başladığı böyük və möhtəşəm işləri övladlar davam etdirir və başa çatdırır. Ədəbiyyatın, mədəniyyətin taleyi də məhz bu faktorla müəyyən edilir. Necə ki, minillərdən bəri incəsənətimizdə, ədəbiyyatımızda və mədəniyyətimizdə irs və varislik amili, mütərəqqi ənənələrin davam və inkişaf etdirilməsi özünü güclü şəkildə göstərir, eyni





amili biz dövlət idarəçiliyi, siyasət və diplomatiyamızda da açıq-aşkar şəkildə müşahidə edə bilirik. O da sevindiricidir ki, sonuncu sahədə irsin sadəcə davam etdirilməsini deyil, həm də inkişaf etdirilməsini görürük.

Mövzumuzla bağlı bir cəhəti də nəzərdən qaçırmamalıyıq ki, öz fenomenal istedadı və qabiliyyəti sayəsində Sovet imperiyasının paytaxtı Moskvaya, yüksək dövlət vəzifəsinə getməsi səbəbindən Heydər Əliyevin Hüseyn Cavid irsi ilə bağlı yarımçıq qalmış bir çox işləri elə onun özü tərəfindən, üstündən bir neçə il keçmiş, respublika hakimiyyətinə ikinci qayıdışdan sonra tamamlandı.

Heydər Əliyevlə Hüseyn Cavid ilişkilərinin bir çox aspektləri vardır ki, onların elmi şərhi və təsviri üçün cild-cild kitablar və monoqrafiyalar yazmaq lazım gələrdi. Xüsusi halda, Hüseyn Cavidın tarixi dramlarındakı monumental hökmdar surətləri ilə Heydər Əliyevin bir türk lideri kimi qarşılaşdırılması zamanı maraqlı bənzərliklərin üzə çıxması bütöv bir elmi araşdırmaya material verə bilər. Eləcə də, bu iki dahinin bənzərlikləri onları yetirən torpağın özəllikləri ilə də izah edilməlidir. Eyni zamanda, onu da yaddan çıxarmayaq ki, Heydər Əliyev Azərbaycanın Ümummilli

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

lideri kimi təkcə Hüseyn Cavid irsinə və şəxsiyyətinə deyil, xalqımız və dövlətçiliyimiz qarşısında xidmətləri olan bütün görkəmli klassiklərə hörmət və məhəbbət bəsləmiş, onların təbliği və tədqiqini prioritet vəzifələrdən biri kimi qarşıya qoyaraq, daim nəzarətdə saxlamışdır. Bu baxımdan Ulu Öndər mesenat liderlər arasında xüsusi bir mövqeyə malikdir.

Heydər Əliyevin Cavid sevgisi təkcə dahi sənətkara deyil, bütün cavidlərə yansımış, xüsusilə Turan Cavidlə ilişkiləri və Hüseyn Cavidin bu əlaqələr müstəvisində dəyərləndirilməsi daha geniş səciyyə qazanmış, daha böyük zaman kəsiyini əhatə etmişdir.

Bu barədə kitabın sonrakı fəsillərində daha ətraflı bəhs edəcəyik..





# ƏDƏBİYYATIN BÖYÜK HAMİSİ

*İndi Hüseyn Cavidın əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır.*
**Heydər Əliyev**

Azərbaycan xalqının öz zəngin və keşməkeşli tarixi boyu ərsəyə gətirdiyi ən böyük şəxsiyyətlərin, istedad və qabiliyyət, Vətən və el təəssübü sahiblərinin ön sıralarında duran, xalqımızın tarixi taleyinin müəyyənləşməsində müstəsna rol oynayan və bu taleyi əbədi bir səadət məcrasına salan Ümummilli liderimiz Heydər Əliyev dühası öz ölməz əməlləri, möhtəşəm fəaliyyəti ilə bu gün də yaşayır, ictimai-mədəni həyatın bütün sahələrində bünövrəsini qoyduğu işlərin davam etdirilməsinə, ülvi vətənpərvər məqsədlərinin həyata keçirilməsinə, xalqımızın və ölkəmizin dünya birliyində öz layiqli yerini tutma-

sına bizi ilhamlandırır. Ulu öndərin cismani yoxluğundan keçən hər il onun unikal ictimai-siyasi fəaliyyətinin indiyə qədər gizli qalan daha bir cəhətini üzə çıxarır və heç də qəribə deyildir ki, bu cəhətlər praktik baxımdan tükənməzdir. Bu, belə də olmalıdır, çünki zaman keçdikcə, Azərbaycan torpağında, Türk dünyasında və ümumiyyətlə, dünyada insan nəsilləri bir-birini əvəzlədikcə hər nəslin öz Heydər Əliyevi olacaq, hər nəsil öz Heydər Əliyevinə öz dünyagörüşü, öz problemləri baxımından yanaşacaq və onu narahat edən suallara bu nəhəng şəxsiyyətin çoxyönlü fəaliyyət müstəvisində cavablar tapacaq. Bu, təkcə Heydər Əliyevə aid olan bir fenomen deyil, öz sahəsinin klassiki, ən böyük şəxsiyyəti olan bütün dahilər üçün xarakterikdir.

Əlbəttə, bu sırada Azərbaycan xalqının dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi ədəbiyyat və sənət adamları, bəşər bədii təfəkkürünün zənginləşməsində öz rolunu namusla oynamış insanlar da şərəfli və layiqli yerlərini tutmaqdadırlar. Xüsusi halda ədəbiyyatı yüksək qiymətləndirən Ümummilli liderimiz Heydər Əliyev nitqlərinin birində ədəbiyyat haqqında öz yüksək fikirlərini və mülahizələrini belə ifadə etmişdi: "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir.





Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür."[2]

Doğrudan da, klassik səviyyəyə yüksəlmiş ədəbiyyat, yəni həqiqi mənəvi dəyər olan bədii söz sənəti cəmiyyət həyatının yaxşılaşmasında, insanların ruhi-psixoloji rahatlığının, dolayısı ilə isə maddi rifah halının təmin edilməsində müəyyən qədər rol oynamağa qadirdir. Dünyanın aparıcı şəxsiyyətləri, böyük fikir adamları zaman-zaman bu həqiqəti təsdiq etmək məcburiyyətində qalmışlar.

Heydər Əliyev klassiklərin daim xalqın gələcəyini, xoşbəxt həyatını düşünməsinə və bunu yaradıcılıq kredosuna çevirməsinə böyük əhəmiyyət verərək, bu sahədə onların elm və zəhmət adamlarından heç də az əmək sərf etmədiyi qənaətinə gələrək deyirdi:

"Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat

[2] Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar /Heydər Əliyev; Tərt.: V.Quliyev - Bakı: Ozan, 1999

qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir. Bizim mütəfəkkir insanlarımız, şəxsiyyətlərimiz, böyük alimlərimiz, yazıçılarımız məhz bununla fəxr edirlər ki, xalqın içindən çıxaraq böyük mədəniyyət, ədəbiyyat, şeir nümunələri yaradaraq xalqı oyadıblar, qaldırıblar, ruhlandırıblar, mübarizəyə dəvət ediblər."

Azərbaycan xalqı ta qədimlərdən özünün zəngin ədəbiyyatı və mədəniyyəti ilə seçilmiş, bu misilsiz xəzinəyə yüksək qiymət vermiş, qayğısına qalmışdır. Mədəniyyətə və ədəbiyyata xüsusi diqqət və qayğının Azərbaycan xalqının mentalitetinin ayrılmaz əlaməti kimi səciyyələndirən Heydər Əliyev bunun böyük üstünlük olduğunu vurğulayır, 28 oktyabr 1997-ci ildə Azərbaycan ədəbiyyatının yaşlı nümayəndələri ilə Prezident Sarayında keçirdiyi görüş zamanı deyirdi:

"Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar. Bunun da kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir, ədəbiyyatımızı, tariximizi və mədəniyyətimizi zənginləşdirən dahi şəxsiyyətlərimiz də olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqları əsərləri həmişə sevə-sevə oxuyaraq, mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıbdır."





Burada Heydər Əliyevin üslubundakı bir nüansı da nəzərdən qaçıra bilmərik. O da Ulu Öndərin nitqindəki bir ifadə ilə bağlıdır. "Bilmirəm, bəlkə səhv edirəm..." Əslində bu, Heydər Əliyevin dahilərə məxsus yüksək təvazökarlığının parlaq təzahürlərindən biri kimi qiymətləndirilə bilər. Axı bütün dünya bilirdi və Ulu Öndərin özü də bütün dünyadan əvvəl yaxşı bilirdi ki, heç vaxt yanılmır, səhv eləmir; xüsusən Azərbaycana, Azərbaycan xalqına, bu xalqın unikallığına, mədəni keçmişinə münasibətdə heç bir səhvdən söz gedə bilməzdi və Heydər Əliyev burada özünəməxsus üslubu vasitədən istifadə edərək, irəli sürdüyü fikri daha da qabartmaq, onun əhəmiyyətini vurğulamaq istəyir və buna yüksək səviyyədə nail olurdu. Bu da Heydər Əliyev dühasının hələ bundan sonra daha dərindən araşdırılmalı olan

sirlərindən biridir.

Hadisələrə və şəxsiyyətlərə peşəkarcasına qiymət vermək istedadına malik olan Heydər Əliyev, xüsusən klassik ədəbiyyatın ictimai-mədəni inkişafdakı rolunu yüksək qiymətləndirir və Azərbaycan xalqının öz klassik ədəbiyyatı ilə fəxr etməyə haqlı olduğunu göstərirdi. 1997-ci ilin sonlarında Prezident Sarayında Azərbaycan ədəbiyyatının gənc nümayəndələrini qəbul edən Ümummilli lider onlara ünvanladığı tövsiyələrində və atalıq öyüdlərində, xeyir-dualarında xalqımızın malik olduğu ədəbi-mədəni dəyərləri unutmamağa, bunlarla hər zaman qürur duymağa çağırırdı:

"...Xalqımızın tarixində ədəbiyyat qədim dövrlərdən öz yerini tutubdur və xalqımızın inkişafında çox böyük rol oynayıbdır."

Ədəbiyyatı dərindən bilən Heydər Əliyev, bu ədəbiyyatın uzun illər boyu təhsil, oxuyub-öyrənmə, bəşəriyyətin yaratdığı mənəvi dəyərlərə sahiblənmə, ağır zəhmətlər, sarsıntılar, mənəvi yaşantılar bahasına başa gəldiyini yaxşı anladığındandır ki, gənclərə də yaradıcılıqda asan yol tutmamağı və bununla da xalq üçün lazımlı ədəbi əsərlər ərsəyə gətirməyi tövsiyə edərək dünyagörmüş bir ağsaqqal müdrikliyi ilə deyirdi: "Ədəbiyyat, mədəniyyət ... həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasalar, böyük sənətkar ola bilməzlər. Siz gənclər bunu bilirsiniz, amma daha dərindən bilməlisiniz ki, ən qədim dövrlərdən bizə gəlib çatmış, indi fəxr etdiyimiz ədəbiyyat əsərlərinin – Nizaminin, Nəsiminin, Füzulinin, Vaqifin, Mirzə Fətəli Axundovun, Hüseyn Cavidin, yaxud digərlərinin əsərlərinin heç birisi asanlıqla yaranmayıb. Heç də hamı bilmir ki, bu əsərlərin yaranması üçün onlar nə qədər zəhmət, əziyyət çəkiblər, nə qədər fədakarlıq göstəriblər."





Ədəbiyyatın cəmiyyət həyatında, mədəni-mənəvi inkişaf və kamilləşmədə oynadığı müstəsna rolu xüsusi qabardan Ümummilli lider konkret tarixi situasiyalarda onun təsir mexanizmini də konkret ədəbi abidələrin timsalında göstərirdi. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi ərəfəsində Heydər Əliyevin söylədiyi dahiyanə fikirlər bu baxımdan çox səciyyəvi sayılmalıdır. Nitqlərində Heydər Əliyev ədəbiyyata, ölməz milli-mənəvi dəyərlərə nə qədər dərindən bələd olduğunu bir daha sübuta yetirirdi.

Heydər Əliyevin müstəqillik illərində dinə, da-

ha doğrusu, dini-mənəvi dəyərlərimizə verdiyi böyük önəm də onun həyat və fəaliyyət mövqeyinin, prinsiplərinin müəyyənləşməsində və formalaşmasında ülvi bir meyar olub ki, titanik fəaliyyəti boyu hər şeyi bu meyara uyğunlaşdırıb. Hətta lazım gəldikdə, dissident olmaqdan belə geri durmayıb. 1997-ci ilin noyabrında Azərbaycan Yazıçılar Birliyinin X qurultayında söylədiyi nitqində bu etirafı dilinə gətirən Ulu Öndər deyirdi:

"1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək kommunist partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam. Heç də təsadüfi deyil ki, kommunist partiyasına o qədər xidmət edən bir adam – yəni mən həqiqətən kommunist partiyasına xidmət etmişəm – 1990-cı ilin yanvar hadisələrindən sonra kommunist partiyasını tərk etmişəm. Azərbaycanda bunu etməyə adi adamların cəsarəti çatmadı. Amma mən böyük çətinliklər içərisində və böyük təhlükə altında kommunist partiyasını tərk etdim. Mən adi tərk etmədim, mənim bu barədə bəyanatım qəzetlərdə dərc olunub, oxumusunuz. Mən ittiham verdim, bildirdim ki, nəyə görə kommunist partiyasını tərk edirəm. Ümumiyyətlə, mən nə etmişəmsə, hamısını şüurlu etmişəm. Heç bir şeyi şüursuz etməmişəm. Bütün keçmişimə, həyatıma görə, bütün gördüyüm işlərə görə də heyfsilənmirəm. Hesab edirəm ki, hamısını xalqın naminə, millətin naminə və doğma Azərbaycanın naminə etmişəm."





Belə bir aydın həqiqəti bəlkə bu yuxarıda örnək gətirdiyimiz fikirlə bağlı bir daha təkrar etmək lazımdır ki, Heydər Əliyevin bütün maraqları Azərbaycanın, Azərbaycan xalqının mənafeyi, rifahı, firavanlığı, azadlığı, xoşbəxtliyi, dünya xalqları arasında öz layiqli yerini tutması ilə müəyyən olunurdu. Və bütün bunlara xidmət edən nə vardısa, Heydər Əliyevin prinsiplərini, həyat və fəaliyyət mövqeyini müəyyənləşdirirdi. Bütün ömrünü "uf" demədən xalqının yolunda sərf etməyi həyat tərzi kimi qəbul edən Ulu Öndər elə belə də olmalıdır.

Heydər Əliyevin klassik ədəbiyyatla bağlı mülahizələri və proqram xarakterli nitqləri bundan öncə də ədəbiyyatşünas alimlərin diqqətini cəlb etmiş və bu haqda sanballı elmi tədqiqatlar aparılmışdır. Heydər Əliyev diplomatiya və idarəçilik məktəbinin son nümayəndələrindən, görkəmli ədəbiyyatşünas alim, professor Vilayət Quliyevin ümumilikdə ensiklopedizmə yad olan XX əsrin azsaylı ensiklopedik zəkalarından biri kimi qiymətləndirdiyi Ulu öndər haqqında aşağıdakı söz-

lərində də dərin səmimiyyət və heyranlıq duyğuları özünü aydın şəkildə büruzə verir:

"Heydər Əliyevin az qala hər gün yeni nümunələrlə zənginləşən ensiklopedist qənaətlərində ədəbiyyatla bağlı fikir və mülahizələr xüsusi yer tutur. Mübaliğəsiz demək olar ki, məktəb şagirdi kimi yazıb-oxumağı öyrəndiyi dövrdən bu günə kimi (oçerkin yazıldığı 1997-ci il nəzərdə tutulur – G.B.) Azərbaycan ədəbiyyatı Prezidentimizin ən etibarlı yol yoldaşı olmuşdur və olaraq qalır. Təsadüfi deyil ki, o özü də dəfələrlə bir şəxsiyyət kimi formalaşmasında, mənəvi cəhətdən kamilləşməsində doğma ədəbiyyatın əvəzsiz rol oynadığını etiraf edib. Yenə də mübaliğəsiz demək olar ki, Azərbaycan ədəbiyyatının bütün dövrləri, bütün şəxsiyyət və hadisələri Heydər Əliyev üçün eyni dərəcədə doğma və yaxın olmuş, onu eyni dərəcədə maraqlandırmışdır. O, folklor haqqında da, klassik və müasir ədəbiyyatın tanınmış nümayəndələri barəsində də eyni sərbəstliklə mülahizə yürüdür. İşinin həddindən artıq çoxluğuna, vaxtının və imkanlarının son dərəcə məhdudluğuna baxmayaraq ədəbi inkişafın müasir mərhələsi, yeni və ən yeni ədəbi gəncliyin problem və qayğıları ilə maraqlanır. Deməyə ehtiyac yoxdur ki, çağdaş Azərbaycan yazıçılarının müxtəlif nəsilləri də





Heydər Əliyevin şəxsində ən tələbkar oxucu və tənqidçilərini, ədəbiyyatın ən yaxın dostunu və təəssübkeşini görürlər."[3]

Xüsusi halda, iki nəşri işıq üzü görmüş və 2011-ci il nəşri müstəqil Azərbaycan Respublikasının ilk Dövlət Mükafatına layiq görülmüş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabında Ümummilli liderin klassik ədəbiyyatla bağlılığına geniş həcmli bir bölmə həsr edilmişdir. Bölmənin müəllifləri – AMEA-nın həqiqi üzvü Teymur Kərimli və professor Vilayət Quliyev Ulu Öndərin bu sahədəki fəaliyyətini kifayət qədər dərindən araşdırmağa çalışmış və təbii ki, bu dahi şəxsiyyətə məhəbbətləri sayəsində bu ülvi məqsədlərinə nail olmuşlar. Xüsusi halda, bizim mövzumuzla bilavasitə əlaqəsi olduğuna görə, Heydər Əliyevin Cavid irsinə göstərdiyi məhəbbət və qayğının yüksək səviyyədə elmi təhlili razılıq doğurmaya bilmir.

Ancaq, əslinə qalanda Heydər Əliyev və Azərbaycan ədəbiyyatı problemini ən müxtəlif rakurslardan işıqlandırmaq mümkündür ki, onlar arasında ən önəmlilərindən biri də Ümummilli lide-

[3] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı. "Elm", - 1998. s. 39-40.

rimizin mesenatlıq fəaliyyəti, ədəbi irsimizə – istər klassikamıza, istərsə də çağdaş sənətkarlara, xüsusilə, ədəbi gəncliyə və bütövlükdə dünya ədəbiyyatının ayrılmaz tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının inkişafına, nəşrinə və təbliğinə, dünyada layiqincə tanıdılmasına göstərdiyi böyük himayədarlıqdır. Bu baxımdan Heydər Əliyevin böyük ədəbiyyat sevgisi haqqında danışmamaq mümkün deyildir. Ancaq aydındır ki, bu sevgi, abstrakt şəkildə ədəbiyyata deyil, konkret sənətkarların yaradıcılığına, bu irsdə öz əksini tapmış yüksək mədəni-mənəvi dəyərlərə yönəlmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatının nəşrinə və təbliğinə ayırdığı böyük qayğı ilk növbədə özünü klassik ədəbi abidələrin timsalında göstərir. İlk dəfə respublika rəhbərliyinə gəldiyi 1969-cu ildən 2003-cü ilə kimi, yəni bir qərinədən artıq tarixi dövr ərzində klassik ədəbi-mədəni irsin öyrənilməsi, təbliği, nəşri, qlobal səviyyədə tanıdılması və bununla da Azərbaycan xalqının, Azərbaycan Respublikasının dünya səviyyəsində layiq olduğu yüksək mövqeyin bərqərar edilməsi bir an belə Heydər Əliyevin diqqətindən kənarda qalmayıb. Hakimiyyətə gəldiyi ilk aylardan mənəvi mədəniyyət və ədəbiyyat məsə-





lələrini prioritet sahələrdən biri kimi müəyyənləşdirən ulu öndər 1969-cu ilin noyabrında, Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibəti ilə söylədiyi proqram səciyyəli nitqində qarşıda duran mədəniyyət siyasətinin əsas tezislərini belə ifadə etmişdi:

"Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Məşhur filosof Əbülhəsən Bəhmənyarın və mütəfəkkir şair Nizaminin, riyaziyyatçı-astronom Nəsirəddin Tusinin və dahi lirik şair Füzulinin, orta əsrlərin böyük alimi Rəşidəddinin və üsyankar şair Nəsiminin, tarixçi Abbasqulu ağa Bakıxanovun və realist yazıçı Mirzə Fətəli Axundovun, görkəmli satiriklərdən Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və bir çox başqalarının adları bu mədəniyyətin çoxəsrlik tarixinin bəzəyidir.

Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrini, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar."

Azərbaycan Respublikasına 33 illik, yəni bir qərinəlik rəhbərliyi dövründəki fəaliyyətində yuxarıdakı tezisdən çıxış edən Ümummilli lider, öl-

kəmizin şanlı tarixinin müxtəlif sahələrində əbədi iz salmış bir çox başqa əməlləri ilə yanaşı, "mədəniyyətimizin çoxəsrlik tarixinin bəzəyi" (Heydər Əliyev) olan böyük klassiklərimizin ölməz irsinə özünə layiq və klassiklərə layiq səviyyədə göstərdiyi qayğı və diqqətə görə də, qədirbilən Azərbaycan xalqının ürəyində öz əbədi heykəlini, yıxılmaz mücəssəməsini ucaltmışdır. Nə qədər ki, Yer üzərində Azərbaycan adlı gözəl bir diyar var, nə qədər ki, Azərbaycanda şirin ana dilimizin rəvacı və zənginləşməsi yolunda qeyrətlə çalışanlar var, qədirbilən insanların ürəklərində ucaldılmış bu möhtəşəm heykəli heç bir qüvvə yıxa bilməz, heç bir bədxah onun bir zərrəsinə belə sədəmə toxundura bilməz. Çünki bu heykəlin bünövrəsi ümumxalq məhəbbəti adlanan əzəmətli bir qüvvəyə söykənməkdədir.

Heydər Əliyevin klassik ədəbiyyatımıza, onun ayrı-ayrı şəxsiyyətlərinə, bu ədəbiyyatın təbliğ və təşviqinə, bütün dünyada qlobal bəşəri dəyər kimi tanıdılmasına, yüksək elmi səviyyədə tədqiqinə və gələcək nəsillərə çatdırılmasına yönəlmiş təmənnasız xidmətlərini bir monoqrafiyada yetərincə qiymətləndirmək çox çətindir və bəlkə də imkansızdır. Amma biz buna cəhd edəcəyik.





## NAXÇIVANDAN BAŞLANAN TANIŞLIQ, YAXUD ƏBƏDİ BƏRAƏT

Bəşəriyyətin ilk peyğəmbərlərindən və xilaskarlarından olan Nuhu öz qoynunda əziz və müqəddəs bir əmanət kimi saxlayan, məkrli düşmən qarşısında alınmaz bir qala kimi ucalan qədim Naxçıvan torpağı həmişə şeirə-sənətə, müdrik, tərbiyəedici sözə, gözəl və ürəkaçan kəlama, eləcə də müdrik ağsaqqallar qədər nüfuzlu el-oba başçılarına yüksək qiymət verən insanların məskəni olmuşdur. Bu diyarın təkcə ziyalıları deyil, sıradan insanları, şəhər əsnafı, sadə kəndlilər də ta qədimlərdən söz xırıdarı olmuş, tükü tükdən seçmiş, gizli mənanı, incə eyhamı adi bir işarədən anlamışlar. Buna görədir ki, maddi cəhətdən, var-dövlət baxımından o qədər də seçilməyən bu yerin insanları mənən çox zəngin ol-

muş, məntiqi və bədii təfəkkürləri ilə çox zaman seçilmişlər.

Ulu Öndər Heydər Əliyev 1996-cı ildə Hüseyn Cavidin məqbərəsinin Naxçıvanda təntənəli açılışı mərasimində söylədiyi tarixi nitqdə Naxçıvanı ən yüksək sözlərlə xarakterizə edərək demişdi: "Naxçıvan Azərbaycanın gözəl bir guşəsidir. Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır."[4] Ulu Öndərin bu dərin mənalı sözləri Naxçıvanı səciyyələndirmək və tanıtmaq, onun malik olduğu və malik olacağı mədəni-mənəvi sərvətləri səciyyələndirmək baxımından bütöv bir ensiklopediyadan daha zəngin material, dərin bilgi verir desək, o qədər də böyük mübaliğə olmaz.

Sözə və sənətə diqqət və qayğı mühitində dünyaya göz açmış və nəşvü nüma tapmış Heydər Əliyevin də müdrik bir söz xiridarı kimi böyüməsi çox təbii idi.

Hüseyn Cavid yaradıcılığı və cavidlər ailəsi ilə

[4] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı. 1996, s. 365.





tanışlığı 1981-ci ildə böyük şairin 100 illiyi münasibətilə qəbul edilmiş qərardan çox-çox əvvəllər, hələ Ulu Öndərin uşaqlığı və ilk gəncliyi dövründə baş vermişdir. Ümummilli liderimizin heyrətamiz fenomenal yaddaşı sayəsində sonralar xatırladığına görə, Hüseyn Cavidin böyük qardaşı Şeyx Məhəmməd Naxçıvanda onun ilk ana dili müəllimi olmuşdur. Sonralar Hüseyn Cavidin qızı Turan Cavidlə söhbətində Heydər Əliyev öz müəllimini xatırlayaraq deyəcəkdi: "Mənə ilk Azərbaycan dilini öyrədən Şeyx Məhəmməddir. Gözəl müəllim idi. Amma çox tələbkardı, hətta demək olar ki, əzazil idi.

Turan Cavid: Amma deyim Sizə ki, Siz həmişə müəllimlərinizi xoş sözlərlə xatırlayırsınız. Tələbkar müəllim çox yaxşıdır.

Heydər Əliyev: Bəs nə, müəllim tələbkar olmalıdır. Özü də o vaxtlar. Mənim kimi tələbəyə bir o qədər tələbkarlıq lazım deyildi, amma 25-30 nəfər tələbənin hamısı müxtəlif səviyyədə idilər. Ona görə də çox tələbkar idi.

Mənə 5-ci sinifə qədər o dərs deyib. Azərbaycan dilindən. Amma mən sənə deyim ki, o vaxtlar maddi cəhətdən çətinlik çəkirdi. Elə mən özüm də kasıb bir evdən idim. O vaxtlar, ümumiyyətlə, orda sən deyən dövlətli adamlar yox idi. Amma bə-

zi müəllimlər var idi ki, keçmişdən onlara nə isə qalmışdı. Geyimləri yüksək idi. Amma bu isə sadə geyinirdi.

Turan Cavid: Ailə də çox böyük idi. Birinci qadından 3 uşağı var idi, o birisindən isə 5. Ona görə çətin idi.

Heydər Əliyev: Çətinliyi olmağını hiss edirdim, amma çox intizamlı və tələbkar müəllim idi."

1943-cü ildə ordudan tərxis edilərək Naxçıvana gəlmiş Ərtoğrol Cavidi, sonralar isə Hüseyn Cavidin həyat yoldaşı Mişkinaz xanımı gördüyünü yaxşı xatırlayan Heydər Əliyevin ürəyində Cavid sevgisinin daha da qüvvətlənməsində, şübhəsiz ki, bu ünsiyyətlərin də böyük rolu olmuşdur. Hələ bundan xeyli əvvəl, Naxçıvan Pedaqoji Məktəbində təhsil alarkən sənətin bütün növlərinə, o sıradan da teatra böyük maraq göstərən Ulu öndər məktəbin dram dərnəyinin aparıcı üzvlərindən biri olarkən, o dövrdə tələbə gənclər arasında populyar olan başqa tamaşalarla yanaşı, Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində də baş rolu böyük uğurla ifa etmişdi.

1981-ci ildə Cavid irsinin öyrənilməsinin, təbliğinin daha da yaxşılaşdırılması və Azərbaycanın bu böyük sənətkarının xatirəsinin əbədiləşdi-





rilməsi haqqında Heydər Əliyevin təşəbbüsü ilə və Hüseyn Cavid şəxsiyyətinə, yaradıcılığına böyük məhəbbəti sayəsində qəbul edilmiş tarixi qərarın əsas bəndlərinin həyata keçirilməsinin, Sovet İttifaqında və dünyada gedən mürəkkəb qlobal ictimai-siyasi proseslərin təsiri altında tam 15 il gecikəcəyi heç kimin ağlına gəlməzdi. Burada simvolik məna axtarmaqdan uzaq olsaq da, belə bir həqiqəti də etiraf etməliyik ki, sanki tarixin, heç nəyə baxmayan zamanın özü də bu işlə bağlı gedişini dayandıraraq, həmin təşəbbüs müəllifinin özünün qayıtmasını və yarımçıq qalmış işləri şəxsən tamamlamasını gözləyirdi. Ancaq təkcə Azərbaycana, vətənin ən qədim dilbər guşəsi doğma Naxçıvana qayıtmaqla iş bitmirdi. Heydər Əliyev o zaman həm də hər kəsdən artıq layiq və gərəkli olduğu hakimiyyətə qayıtmalı idi ki, qarşıya qoyduğu ülvi məqsədləri gerçəkləşdirə bilsin. Hələ 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən Hüseyn Cavidin 110 illik yubileyi münasibətilə keçirilən yığıncaqdakı nitqində Ulu Öndər təəssüflə deyirdi:

"1981-ci ildə Azərbaycan KP MK, Azərbaycan Nazirlər Soveti Hüseyn Cavidin 100 illik yubileyi haqqında qərar qəbul edərkən, bir çox təd-

birlərin həyata keçirilməsi nəzərdə tutuldu. Hüseyn Cavidin cənazəsinin vətəninə qaytarılması, Hüseyn Cavidin Bakıda və Naxçıvanda yaşadığı evlərdə ev-muzeyinin təşkil olunması, Hüseyn Cavidin heykəlinin Bakıda qoyulması, Hüseyn Cavidin Naxçıvanda məzarı üzərində məqbərənin yaranması, Naxçıvanda Hüseyn Cavidin heykəlinin qoyulması, Hüseyn Cavidin əsərlərinin geniş yayılması, dərc olunması, rus dili və başqa dillərə tərcümə olunması, təqdim olunması. Təəssüf ki, bu tədbirlərin çoxu bu 10 ilin içərisində həyata keçirilməyibdir. Bu gün qeyd olunur ki, bu işlərdə mənim, Heydər Əliyevin təşəbbüskarlığı olubdur. Bəli, olubdur, ancaq mən bunu özüm böyük bir nailiyyət hesab etmirəm. Bu mənim sadəcə vətəndaşlıq borcum olubdur. Mən vətəndaşlıq borcumu yerinə yetirdiyimə görə, şübhəsiz ki, təsəlli tapıram."

Əlbəttə, bu da Heydər Əliyevin böyük təvazökarlığının bir sübutudur ki, gördüyü möhtəşəm işləri sadəcə özünün vətəndaşlıq borcu kimi qələmə verə bilsin! Ancaq eyni zamanda, bunun özü də Heydər Əliyevin azərbaycançılıq məktəbinin başqaları üçün bir ibrət və örnək dərsidir ki, o zaman hakimiyyətdə olanlar da heç olmasa, vətəndaşlıq borclarını anlayıb, heç olmasa, Heydər Əli-





yevin yarısı qədər yerinə yetirə bilsinlər... Heydər Əliyevin verdiyi müdrik dərslərdən biri də budur ki, təkcə əlində hakimiyyət olan dövlət xadimləri, vəzifəli şəxslər deyil, hər bir azərbaycanlı milli-mənəvi dəyərlərə münasibətdə öz mövqeyini ortaya qoymağa borcludur. Bu baxımdan o, özünü sadə azərbaycanlılardan ayırmayaraq deyirdi:

"Fəqət o tədbirlərin indiyə qədər həyata keçirilməməsi yəqin ki, hər bir millətini, dövlətini, xalqını, mədəniyyətini, ədəbiyyatını sevən azərbaycanlı üçün eyni zamanda çox böyük narazılıq törədir. O cümlədən məndə də."

Müdrik Ulu Öndər, Azərbaycanın tarix boyu baş bəlasına çevrilmiş xırda yerliçilik hisslərinə, regionçuluq duyğularına da özünün kəskin münasibətini bildirir, bu sözləri ilə də, bütün zamanların ən böyük azərbaycançılarından, bütöv, güclü Azərbaycanı hər şeydən uca tutanlardan biri olduğunu bir daha elan edirdi:

"Bəziləri düşünə bilər ki, Hüseyn Cavid naxçıvanlı olduğuna görə, bəlkə Heydər Əliyev belə bir təşəbbüskarlıq edir. Yox, Azərbaycanda hamı bilir ki, Azərbaycanın milli irsinə, mədəni irsinə, ədəbiyyatına, mədəniyyətinə imkanım qədər kömək etməyə və onları qaldırıb indiki nəsillərə göstərməyə həmişə çalışmışam."

Heydər Əliyevin dilimizin imkanlarından maksimum yararlanmaqla söylədiyi bu tarixi nitqində diqqətçəkən bir cəhət də budur ki, o, Cavidin 110 illiyinə sadəcə bir anım, bir yubiley, böyük sənətkarın yad edilməsi kimi yanaşmır, onu böyük bir bayram olaraq təqdim edirdi. Əlbəttə, mədəni irsə yanaşmanın yolunu göstərən bu münasibət də birbaşa Heydər Əliyevin vətənsevərlik məktəbinin ibrətamiz dərslərindən sayılmalıdır. Nitqinin lap başlanğıcında Ümummilli lider üzünü ağır blokada və müharibə şəraitində mərdliklə yaşayan, doğma torpaq, sevgili yurd uğrunda bütün çətinliklərə sinə gərən həmvətənlərinə tutaraq deyirdi:

"Bu gün bayram günüdür, bu gün bütün Azərbaycan xalqı üçün, o cümlədən naxçıvanlılar üçün böyük bir bayramdır. Biz Azərbaycanın böyük yazıçısı, şairi, dramaturqu, mütəfəkkiri, filosofu Hüseyn Cavidin anadan olmasının 110 illiyini qeyd edirik." Nitqini fəlsəfi mühakimələrlə davam etdirən Ümummilli lider, özünün də müdrik bir ağsaqqal, dünyagörmüş filosof, qlobal xeyir-şər qarşıdurmasını dişinə vurmuş mütəfəkkir olduğunu təsdiq edirdi:

"Bu dünya heç kim üçün, heç kəs üçün əbədi deyil. Hüseyn Cavid öz həyatı dövründə yaratdığı mənəvi, mədəni sərvətlərlə özünü əbədiləşdirib-





dir. Ona görə də bugünkü toplantı, bu mərasim, bu yubiley gecəsi deyil, bayram gecəsidir. Biz Hüseyn Cavidin əsərlərinin uzun illərdən sonra qalibiyyətini qeyd edirik və bayram edirik. Bu bayram xüsusi bir şəraitdə keçirilir. Azərbaycan öz milli azadlığına, dövlət müstəqilliyinə nail olub və bu bayramı biz müstəqil Azərbaycanın mövcud olduğu bir şəraitdə keçiririk. Eyni zamanda bu bayramı Azərbaycanda, o cümlədən də Naxçıvanda mövcud olan gərgin sosial-iqtisadi, ictimai-siyasi vəziyyət şəraitində keçiririk."

Ancaq təbii ki, Ulu Öndəri Azərbaycanın və Naxçıvanın düşdüyü ağır müharibə vəziyyəti qorxutmur, o, vəziyyəti bir diplomat, bir təcrübəli dövlət xadimi, nəhayət, bacarıqlı və istedadlı bir sərkərdə kimi analiz edərək, gələcəyə tam bir nikbinliklə baxır:

"Bu vəziyyətin səbəbləri məlumdur. Beş ildir ki, Azərbaycan müharibə şəraitindədir, torpaqlarının bir qismi əlindən gedib, çox qurbanlar gedib. Fəqət Azərbaycan hələ də bu müharibədən çıxa bilməyibdir və öz ərazi bütövlüyünü, suverenliyini təmin edə bilməyibdir. İkinci tərəfdən bu gərginliyin səbəbi iqtisadi, ictimai-sosial böhrandır. Bu böhran artıq keçmiş Sovetlər İttifaqının hər yerindədir. Azərbaycan burada müstəsna-

lıq təşkil etmir. Fəqət Azərbaycanın uzun müddət müharibə şəraitində olması bu böhranı daha da dərinləşdirir və bizim vəziyyətimizi ağırlaşdırır. Ancaq bunların hamısına baxmayaraq, biz bu gün bayram edirik. Çünki həyat nə qədər maddi cəhətdən ağır olsa da, insan mənəviyyatı insanı yaşatmağa, mübarizəyə və bu çətinliklərin öhdəsindən gəlməyə yardım edir. Bu mənəviyyat mənbəyi də bizim mədəniyyətimizdədir, bizim xatirimizdədir, bizim ali köklərimizdədir, bizim əbədiyyətimizdədir, bizim mənəviyyat, mədəniyyət xəzinəmizdədir. Bu xəzinəni bizə bəxş edənlərdən biri də və demək olar ki, ən görkəmlisi də Hüseyn Caviddir."

Hələ 1992-ci ildə, yəni gələcəyin dumanlı, qeyri-müəyyən olduğu, Cavid məqbərəsinin başa-bəhəmə gələcəyi günə tam dörd il qalarkən bu barədə Heydər Əliyevin xəyal kimi görünən proqnozları, onun ülvi məqsədləri, Hüseyn Cavidin xatirəsi qarşısında bütün azərbaycanlıların daşımalı olduğu borc hissinə münasibəti, peyğəmbərcəsinə uzaqgörənliyi sözün ən yaxşı mənasında heyrət doğurmaya və bu söz sahibinin iradəsi qarşısında baş əydirməyə bilmir:

"Hüseyn Cavidin cənazəsini Sibirdən gətirəndən sonra onun dəfni ilə əlaqədar Azərbaycanda





fikir müxtəlifliyi oldu. Bəziləri onun Bakıda Fəxri Xiyabanda dəfn olunması, bəziləri isə Naxçıvan torpağında, şəhərin mərkəzində dəfn olunması fikrini irəli sürdülər. Bu məsələni biz həm alimlərlə, həm yazıçılarla geniş müzakirə etdik və ümumi fikir belə oldu ki, cənazə Naxçıvana gəlsin. Bir ona görə yox ki, o burada, Naxçıvanda doğulub, ona görə ki, burada onun məzarının üzərində böyük bir məqbərə, mavzoley ucalsın. Bu bir ziyarətgah olsun. Qədim Naxçıvan diyarında böyük memarımız Əcəmi Naxçıvaninin yaratdığı mavzoleylə yan-yana, yeni bir mavzoley də 800 il bundan sonra bugünkü təsirlər yaratsın. Hüseyn Cavid belə bir mavzoleyə, belə bir məqbərəyə layiq bir adamdır."

Demək, Azərbaycan xalqının dahi oğlu 1992-ci ildə işıqsız, yanacaqsız, ərzaqsız, od-ocaqsız soyuq Naxçıvanda böyük romantik Hüseyn Cavidin xəyallarının gücü ilə 2792-ci ili görürmüş! Məgər bu, peyğəmbər uzaqgörənliyi deyilmi? Bu baxımdan Hüseyn Cavid romantik ədəbiyyatımızın nə qədər dahi sənətkarıdırsa, Heydər Əliyev də dövlətçiliyimizdəki romantik vüsətin o qədər böyük memarı və qurucusudur. Axı hər bir əsər müxtəlif materiallar üzərində gerçəkləşənə qədər ilk növbədə öz yaradıcısının beynində və ürəyində ger-

çəkləşir. Buna görə də, heç şübhə olmasın ki, 2792-ci ilin xoşbəxt azərbaycanlıları Möminə xatun türbəsi ilə yanaşı, Hüseyn Cavid türbəsini də böyük ehtiramla ziyarət edəcək və onun yaradıcısı dahi Heydər Əliyevin ruhuna da ixlasla rəhmətlər oxuyacaqlar.

Çünki Tarixin səbri böyükdür və tarixi ədalət gec-tez öz yerini tutur, elə Hüseyn Cavidin sevimli qızı mərhum Turan Cavidlə birlikdə tarix növbəti dəfə Heydər Əliyevin əlləri ilə ədaləti bərpa etmədimi?

2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağımızın düşmən tapdağından azad olunması ilə Ümummilli lider Heydər Əliyev tərəfindən Hüseyn Cavidin 110 illik yubileyində səsləndirilmiş nikbin arzular yerinə yetdi, tarixi ədalət bərpa olundu. Bütün Azərbaycan xalqı, bütün Türk dünyası vaxtilə Ulu öndərin xoşfal dilindən çıxmış bu fikirlərə dərin və sarsılmaz inam bəsləyirdi:

"Azərbaycan müstəqil dövlətdir, müstəqilliyi təmin etmək üçün şübhəsiz ki, böyük çətinliklər və problemlər vardır. Amma Azərbaycan xalqı Hüseyn Cavid kimi böyük şəxsiyyətlər yaratmışdır. Azərbaycan öz müstəqilliyini bundan sonra





da qoruyacaq, müharibə də qurtaracaq, torpaqlarımız da hamısı özümüzə qayıdacaq. Azərbaycan xalqı yeni mərhələdə onun daxilində olan böyük imkanları, böyük mənəviyyat potensialını bütün dünyaya nümayiş etdirəcəkdir. Mən bu fikirlərlə öz çıxışımı bitirərək sizin hamınızı bu böyük bayram münasibətilə ürəkdən təbrik edirəm, sizin hamınıza Cavid paklığı, təmizliyi, mənəviyyatı arzulayıram."

Hüseyn Cavidlə, onun ölməz yaradıcılığı ilə həmişə maraqlanan, fürsət tapan kimi onun əsərlərinin tamaşalarına baxan Heydər Əliyev 1993-cü ildə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra, şübhəsiz ki, ilk vəzifə kimi, Azərbaycanı düçar olduğu ölçüyəgəlməz fəlakətdən qurtarmağı qarşıya məqsəd qoydu və qısa bir müddət ərzində bunun öhdəsindən uğurla gəldi. Yalnız ölkədə əmin-amanlığı bərpa etdikdən, vətəndaş qarşıdurmasını aradan qaldırdıqdan sonra Ümummilli liderimiz mədəni-mənəvi quruculuq işlərini böyük entuziazmla davam etdirməyə başladı. 1996-cı ilin oktyabrında, Hüseyn Cavidin məqbərəsinin açılışında söylədiyi nitqdə Heydər Əliyev bu yolda sərf etdiyi titanik səyləri təvazökarcasına belə ümumiləşdirirdi: "Üç il yarımdır ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndir-

mək, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, respublikamızı Ermənistanın təcavüzündən qurtarmaq üçün əlimdən gələni əsirgəmirəm və bu yolda gecə-gündüz çalışıram".

1995-ci ilin iyununda Hüseyn Cavidin hələ 1982-ci ildə yaradılmalı olan məqbərəsinin və ev-muzeyinin ərsəyə gətirilməsinə həsr edilmiş müşavirədəki dərin məzmunlu, həm də narahatlıq dolu giriş sözündə ədibin irsinin, xatirəsinin xalqın yaddaşında əbədiləşdirilməsi ilə bağlı prosesi incədən incəyə təhlil edən Heydər Əliyev, doğrudan da, mədəniyyətimiz, ədəbiyyatımız, elmimiz üçün unikal, əvəzedilməz bir dahi şəxsiyyət olduğunu çox sadə sözlərin köməyi ilə diqqətə çatdırmışdı: "Biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etdik. Bundan sonra bir çox işlər görüldü. Ancaq təəssüf ki, o vaxt qəbul olunan qərarlarda nəzərdə tutulmuş tədbirlərin bəziləri indiyədək həyata keçirilməyib. O dövrdən isə artıq on beş il keçir".

1990-cı ildə dünyada gedən qlobal ictimai-siyasi hadisələrin nəticəsində doğma yurdu Naxçıvana qayıdan Ümummilli liderimiz ilk növbədə Cavidin məzarı üstə getmiş və gördüklərindən heyrətə gəlmişdi. Müşavirədəki nitqində Heydər Əliyevin özü həmin hadisəni səmimi bir həyəcanla belə xatırlayırdı: "Fikirləşirdim ki, məqbərə yoxdursa da, heç olmasa, sənətkarın qəbrinin üstü götürülüb. Ancaq gedib oradakı vəziyyəti gördüm, təəssüfləndim, çox narahat oldum".





Müşavirədəki nitqini üç böyük işin həyata keçirilməsi istiqamətində quran Ümummilli liderimiz bu işlərin hamısının müstəsna əhəmiyyəti olduğunu qeyd etmiş, Cavidin məqbərəsinin, ev muzeyinin və abidəsinin açılışını əlaqədar təşkilatların qarşısına bir nömrəli vəzifə kimi qoymuşdur. Yalnız bundan sonra qısa bir müddət ərzində, Heydər Əliyevin şəxsi nəzarəti və qayğısı altında nəhəng işlər görülmüş və özünün müəyyənləşdirdiyi kimi, böyük şairin anadan olmasının ildönümündə – 1996-cı ilin oktyabrında Naxçıvanda Hüseyn Cavidin məqbərəsi bütün gözəlliyi və əzəməti ilə xalqın gözü qarşısında ucalmışdır. Onu da qeyd etmək istəyirəm ki, Heydər Əliyev bütün bu işləri bir çoxları kimi gözdən pərdə asmaq, yalnız faktı təsdiq etmək xatirinə həyata keçirməmiş, doğrudan da, ictimai-siyasi istedadının bütün potensialını sərf etməklə, sevə-sevə görmüş və nəticədə həm özünə, həm də Cavidə layiq gözəl abidələr qoyub getmişdir.

Bu abidələrdən biri də uzun illərdən bəri üzərində iş gedən, ancaq Cavid məqbərəsindən yal-

nız 6 il sonra, yenə də dahi şairin anadan olması-nın ildönümündə, daha doğrusu, 120 illik yubile-yində Ümummilli liderimiz Heydər Əliyev tərə-findən Hüseyn Cavidin Bakıda açılmış ev muze-yidir.





# HÜSEYN CAVİD İRSİNİN BİLİCİSİ

Bəşər tarixində şeirə-sənətə, sənətkar şəx-siyyətinə hamilik edən dövlət başçıları az olmayıbdır. Xüsusi halda klassik Yaxın və Orta Şərq ədəbiyyatlarına üz tutsaq, bir çox hökmdar-ların adlarını hörmətlə çəkə bilərik ki, bunların arasında tarixən türk başçıları öz səxavət və mə-rifətləri ilə həmişə seçilmişlər. Ancaq Azərbayca-nın Ümummilli lideri, Ulu Öndər Heydər Əliyev bu baxımdan unikal bir mövqeyə malikdir, desək, yəqin ki, mübaliğə olmaz. Xüsusən klassiklərin yaradıcılığına böyük önəm verən Heydər Əliyev onların tədqiq və təbliğinə, Vətən və millət qarşı-sındakı xidmətlərinin dəyərləndirilməsinə qayğı və diqqətini bir an belə əsirgəməmişdir. Azərbay-can ədəbiyyatını dünyanın ən qədim və zəngin ədəbiyyatlarından biri sayan Ümummilli lider, bu

ədəbiyyatın yetirdiyi böyük dahilərin qlobal miqyasda öz layiqli qiymətlərini almadıqlarını dəfələrlə vurğulamış və bu yolda göstərdiyi titanik səyləri təvazökarlıqla özünün vətəndaşlıq borcu elan etmişdir.

Heç şübhə yoxdur ki, Heydər Əliyevin sevə-sevə qayğı göstərdiyi klassik Azərbaycan sənətkarları içərisində dahi şair və dramaturqumuz, böyük filosof və fikir adamı, vətənpərvər ziyalı Hüseyn Cavidin özünə məxsus müstəsna yeri vardır. Hüseyn Cavidin repressiyaya uğradığı 1937-ci ildə Heydər Əliyevin 14 yaşı vardı və o, artıq tay-tuşları arasında ədəbiyyata, xüsusən dramaturgiyaya güclü meyl göstərən bir gənc kimi tanınırdı. Şübhəsiz ki, o dövrün ən böyük dramaturqlarından olan Hüseyn Cavidin yaradıcılığı ilə də yaxşı tanış idi. Cavid irsi ilə bu tanışlığının, Cavid irsinə bu sevgisinin təsiri idi ki, sonralar Heydər Əliyev Cavidi dünya dramaturgiyasının ən böyük nümayəndələri olan Şekspirlə, Höte ilə müqayisə edəcək və üstünlüyü Azərbaycan dahisinə verəcəkdi.

Bəli, taleyin, zamanın, dünyanın özünü əsərlərində bir marionet kimi oynadan böyük Cavidi, taleyin oyunları 1937-ci ildə Şərqi Turan (yenə də taleyin istehzası!) çöllərinə ataraq, rus imperializminin əli ilə onun Vətən və millət üçün bu qədər





önəmli olan həyatına son qoydu.

Nə etməli? Dünya fanidir və əgər Tanrının ən yaxın sevimlisi (Həbibullah) Peyğəmbərimiz də ölümü dadmağa, bu dünyadan əbədi köç etməyə məhkum edilmişsə, biz bu vaxtsız-vədəsiz ölümü də Allahın bir qəzavü-qədəri kimi qəbul etməyə borcluyuq. Məşhur sözdür ki, böyük sənətkarlar ölmür, ölməz əsərləri ilə əbədi həyat əldə edirlər. Cavid də öz cismani ölümü ilə sadəcə öz sonrakı yaradıcılığını yarımçıq qoydu – ölümünə qədər yazdıqları isə onun dünya ədəbiyyatına əbədi bəxşişi və ölümsüzlüyünün rəhni, möhkəm qarantı oldu.

Cavidin bu dünyadan köçməsindən 62 il sonra ümummilli liderimiz Heydər Əliyev dünyasını dəyişmiş, əbədiyyətə qovuşmuşdur. Hüseyn Cavidin cismən bu dünyada olmadığı bu 62 ildə Azərbaycan xalqının ərsəyə gətirdiyi bu böyük şəxsiyyətlər həyatlarının və fəaliyyətlərinin mənasını öz xalqlarına və doğma yurdlarına xidmətdə görmüş və həmin müqəddəs missiyanı yerinə yetirərkən əqidə və fikir dostları kimi daim bir-birilərinə dayaq olmuşlar. Azərbaycan klassik ədəbiyyatının, o sıradan Hüseyn Cavidin mütərəqqi humanist əsərləri, bəşəri görüşləri zəminində ərsəyə gəlmiş Heydər Əliyev dühası Azərbaycan

xalqının tarixi taleyinin xoşbəxtliyi üzündən xalqımızın əvəzedilməz liderinə çevrildikdən sonra öz haqq işində daim bu ənənələri rəhbər tutmuş, vətənin inkişafı naminə bunlardan faydalanmaqla yanaşı, böyük qədirşünaslıq örnəyi göstərmiş, ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz üçün müstəsna işlər görmüş sənətkarların layiqli qiymətini vermək yolunda əlindən gələni əsirgəməmişdir. Bu cür sənətkarların ön cərgəsində yəqin ki, böyük Cavid durmaqdadır.

Bəzən adama elə gəlir ki, Cavid də, nəinki doğma xalqı və vətəni qarşısında öz ölməz əsərləri ilə borclu qalmamış, hətta şair dünyadan köçərkən 18 yaşlı bir gənc olan Heydər Əliyevin simasında gələcəkdə Azərbaycan xalqının başında böyük bir maarifpərvər, sənətsevər liderin duracağını görmüş və bunun bədii örnəyi olaraq, Alp Arslan, Məlikşah kimi şeir-sənət vurğunu, elm hamisi türk hökmdar obrazları yaratmışdır. Xəyyamın bir rübaisini dinləyən Alp Arslanın:

*Ah, bu sözlər nə qədər incə, dərin,*
*Böylə kəskinsə də, xoşdur şeirin!*

- deyə onun sənətinə yüksək qiymət verməsi, onun oğlu Məlikşahın, vəziri Xacə Nizamın (tarixi şəxsiyyət kimi Nizamülmülkün) isə daim bu böyük alimə və şairə hamilik edərək qayğı göstərməsi bunu sübut edir. Aydındır ki, orta əsrlərin bu böyük türk hökmdarlarının dərin mənalı, istedadla yazılmış əsərlərə qarşı göstərdikləri bu mesenatlıq fəaliyyəti bir tərəfdən də dahi mütəfəkkir-sənətkar kimi Hüseyn Cavidin öz arzularının bədii inikası idi.





Cavid sənətinə hələ keçən əsrin 70-ci illərindən maraq göstərən Heydər Əliyev onun adını Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirənlər sırasında dəfələrlə çəkmişdir. Səksəninci illərin əvvəllərindən isə Ümummilli liderimiz Hüseyn Cavid irsinə müntəzəm diqqət göstərmiş, şairə layiqli qiymətin verilməsi işinə nəzarəti bir an belə zəiflətməmişdir.

Hüseyn Cavidin əsərlərinin onların dahiyanə məzmununa layiq bir şəkildə nəşr olunmaması, bir çox təhriflərə və ixtisarlara yol verilməsi, şairin sənətkar ruhunun, amal və qayəsinin oxucuya lazımlı səviyyədə çatdırılmaması Heydər Əliyevi bir cavidsevər kimi çox narahat edirdi və cavidşünaslıqdakı bu çatışmazlıqların aradan qaldırılması üçün o, istər maddi, istərsə də mənəvi dəstəyini əsirgəmirdi. Məlum olduğu kimi, Ulu Öndərin möhkəm bünövrəsini qoyduğu bu möhtə-

şəm işi onun varisi, Azərbaycan Prezidenti İlham Əliyev yüksək səviyyədə həyata keçirməyə nail oldu və Hüseyn Cavidin əsərləri bütün orijinallığı ilə 25 min tirajla Azərbaycan xalqına çatdırıldı.

Ancaq Ümummilli liderimizin Moskvaya, yüksək dövlət vəzifəsinə getməsi səbəbindən Cavid irsi ilə bağlı yarımçıq qalmış bir çox işləri elə onun özü, respublika hakimiyyətinə ikinci qayıdışından sonra tamamlamağa nail oldu.

Heydər Əliyev nitqlərinin birində Hüseyn Cavidi: "millətinə həddən artıq xidmət edən bir adam" adlandırmışdı. Ümumilikdə böyük şəxsiyyətlərə və bu halda Hüseyn Cavidə aid edilən həmin ifadə, əslində elə Heydər Əliyevin özünə də heç bir şübhəyə yol vermədən aid edilə bilər. Heydər Əliyev üçün bu, bir meyardır; şəxsiyyətin böyüklüyünü ölçmək üçün meyar. Əgər hər hansı bir şəxsiyyət böyüklüyə iddia edirsə, o, mütləq öz millətinə xidmət etməlidir. Əks halda, şəxsiyyətin böyüklüyündən söhbət belə gedə bilməz. Heydər Əliyevin ömür həsr etdiyi və başqalarından da tələb etdiyi ideya, amal, yüksək məqsəd də məhz budur. Əlbəttə, onu demək artıqdır ki, bu cür şəxsiyyətlər – "haqq-taalanın könüllərinə ilham verdiyi" (Dədə Qorqud) şəxsiyyətlərdəndir və onların adı vətən tarixində daim yaşayacaqdır.





Hüseyn Cavid kimi, Heydər Əliyevin siyasət, diplomatiya, mədəniyyət, ədəbiyyat adamlarına qayğı və diqqət sahəsindəki yaradıcılığı da Azərbaycan xalqının mədəniyyətini və ədəbiyyatını yüksəklərə qaldırmaqdan, bütün dünyada tanıtmaqdan ibarət olubdur və onun səmərəsini biz bu gün bütün parlaqlığı ilə görməkdəyik. Çünki Heydər Əliyev bütün şüurlu həyatı boyu doğma xalqının xoşbəxtliyi, dünya birliyi içərisində öz layiqli yerini tutması uğrunda yaradıcılıq, quruculuq fəaliyyətinə bir an belə fasilə verməmiş, bunu həyatının ən başlıca mənası hesab etmişdir.

Heydər Əliyev ilk növbədə bir azərbaycançı kimi ölkənin maraqlarına uyğun gələn bütün cəhətləri birləşdirmək, xalqa və dövlətə kompleks fayda vermək, onun yüksəlişinə maksimum dərəcədə nail olmaq yolunu tutmuşdu. Hüseyn Cavid irsi də bu baxımdan istisna təşkil etmirdi. 1996-cı il oktyabrın 29-da Hüseyn Cavidin məqbərəsinin təntənəli açılışı üçün Naxçıvana yola düşən Prezident Heydər Əliyev Bakının Binə hava limanında jurnalistlərə müsahibə verərkən bunu xüsusi vurğulayaraq demişdi:

"Mən Naxçıvana birinci növbədə Hüseyn Cavidin məqbərəsinin tikilib başa çatması münasibətilə gedirəm. Oktyabrın 24-də Hüseyn Cavidin

anadan olmasının 114-cü ili tamam olmuşdur. Bilirsiniz ki, bu məqbərənin tikilməsi barədə biz hələ 1982-ci ildə qərar qəbul etmişdik, ancaq o tikilməmişdi və bu işə fikir verilməmişdi. Biz artıq bu məsələni də həll etdik. Mən bu işi də başa çatdırmışam. Məqbərənin açılışı olacaqdır. Azərbaycan ziyalılarının böyük bir dəstəsi, Milli Məclisin üzvləri mənimlə birlikdə oraya gedirlər. Bu, əlamətdar bir hadisədir. Güman edirəm ki, bu, Azərbaycanın həm mənəvi, həm də mədəni həyatında böyük bir hadisə olacaqdır.

Mən üç ildən çoxdur ki, Naxçıvanda olmamışam. Naxçıvandan Bakıya getməyimdən üç il yarım vaxt keçibdir. Mən Naxçıvan Muxtar Respublikasına baş çəkmək istəyirəm. İstəyirəm görüm ki, orada insanlar necə yaşayır, vəziyyət necədir, necə etmək lazımdır ki, blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası bundan sonra da yaşaya bilsin."

Bu sadə sözlərdəki dərin mənalardan belə anlaşılır ki, Heydər Əliyev Azərbaycan naminə xalqımızın keçmişini, indisini və gələcəyini birləşdirmək yolunu seçib və əslində də Azərbaycana xidmətin ən doğru yolu elə budur. Öz fikirlərini Naxçıvan hava limanındakı müsahibəsində davam etdirən Ulu Öndər sanki mifik Antey kimi





Naxçıvan torpağından güc almasını da üstüörtülü şəkildə dilə gətirməyə nail olmuşdur. Xarici ölkələrə səfərləri ilə Naxçıvana səfərini müqayisə edən Ümummilli lider maraqlı və orijinal fikirlər irəli sürmüşdür:

"Şübhəsiz ki, bunun böyük fərqi var. Çünki bir var mən xarici ölkələrə səfər edirəm, bir də var ki, öz torpağımızın, Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasına gəlirəm. Bura mənim doğulduğum yerdir. Əhəmiyyətli cəhət bir də ondan ibarətdir ki, 1990-1993-cü illərdə – Muxtar Respublika üçün ən ağır dövrdə, o cümlədən mənim də həyatımın çətin bir dövründə – mən Naxçıvanda yaşamışam, işləmişəm, Naxçıvan əhalisi ilə bir yerdə olmuşam.

Üç il yarım bundan əvvəl Bakıda, Azərbaycanda baş vermiş ağır, çətin proseslərə görə, Respublikamız böyük təhlükə qarşısında olduğuna, vətəndaş müharibəsi başladığına görə, mən Bakıya dəvət olundum. O vaxt hesab edirdim ki, mən Bakıya bir neçə günlüyə gedirəm. Gedirəm ki, müəyyən məsləhətlər verim, yaxud vəziyyəti normallaşdırmaq üçün öz xidmətimi göstərim. Ancaq hadisələr elə inkişaf etdi ki, mən Bakıda qalası oldum, Naxçıvana dönmədim. Mən o vaxt naxçıvanlılara söz vermişdim ki, iki-üç gündən

sonra qayıdacağam. Ancaq mümkün olmadı. Bundan sonra da Azərbaycanın qayğıları, işləri məni o qədər məşğul etdi ki, buraya gəlmək imkanı əldə edə bilmədim.

Nəhayət, mən bu imkanı əldə etmişəm, çox məmnunam, sevinirəm, şadam. Xüsusən ona görə ki, mənim bir arzum da yerinə yetir. Böyük Azərbaycan yazıçısı, şairi, dramaturqu Hüseyn Cavidin cənazəsini 1982-ci ildə Sibirdən gətirərkən, onu burada – Naxçıvanda torpağa verərkən mən qərar qəbul etmişdim ki, onun qəbri üzərində məqbərə tikilsin. Bu, indiyədək olmamışdı. İndi onu başa çatdırmışıq və mən bu mərasim münasibətilə Naxçıvana gəlmişəm."

Səriştəsiz, diletant başçıların üç il yarım ərzində xaraba qoyduqları Azərbaycanı tam qarşısında durduğu uçurumdan xilas etmək üçün Heydər Əliyev üç il yarım ərzində fasiləsiz mübarizə aparmalı oldu, hətta o dərəcədə ki, doğma Naxçıvana getməyə belə vaxt tapa bilmədi. Kim bilir, bəlkə hələ üç il yarım da, yəni nağıllarda olduğu kimi, yeddi il Naxçıvana gedə bilməyəcəkdi, əgər Ümummilli liderin böyük Cavid sevgisi, dahi sənətkar qarşısında duyduğu övladlıq borcu olmasaydı... Təsadüfi deyil ki, müsahibəsinin sonunda da bunu xüsusi vurğulayır və "mən bu mərasim münasibətilə Naxçıvana gəlmişəm" – deyirdi.





Repressiya qurbanı olan Hüseyn Cavid Heydər Əliyev üçün bir də şəhid-sənətkar kimi əziz idi. Buna görə də təsadüfi deyil ki, Cavid mərasiminə gəlmiş Azərbaycan Prezidenti ilk növbədə Naxçıvandakı Şəhidlər Xiyabanına getmiş, burada qorunan fəxri kitaba öz ürək sözlərini yazmışdı. İndi artıq tarixə qovuşmuş həmin ürək sözləri belə idi:

"Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda şəhid olanlar əbədiyyətə qovuşublar. Onların qəhrəmanlıq xatirəsi bizim qəlbimizdə daim yaşayacaq."

Şübhəsiz ki, bu sözlərdə Hüseyn Cavidin, Azərbaycanın başqa şəhid övladlarının da payı vardır. Çünki vətən, millət uğrunda canını fəda edənlər hər hansı bir zaman kəsiyinə sığışmır, tarixin əbədi yol yoldaşlarına çevrilirlər.

# İKİ QAYIDIŞ

*Dənizə dönmək istiyorum...*
**Nazim Hikmət**

Dünya praktikasında tarix boyu qayıdışların o qədər də uğurlu olmadığı konkret faktlar əsasında təsbit edilməkdədir. Yalnız Hüseyn Cavidin və Heydər Əliyevin qayıdışları bu uğursuzluq çərçivəsini vurub-dağıdan və gedişdən daha yüksək səviyyəsi ilə seçilən qayıdışlar kimi dünya ədəbiyyatında və siyasətində tanınmaqdadır. Ancaq bir məsələ var ki, bu qayıdışların ikisinin də müəllifi eyni bir şəxsiyyətdir – Heydər Əliyev. İstər Cavidi, istərsə də özünü Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə, Azərbaycan millətimə qaytaran məhz Ulu Öndər Heydər Əliyevdir.

O da maraq doğurur ki, xarakterindən və məkanından asılı olmayaraq, hər iki dahinin dəniz-





dən – doğma Azərbaycandan ayrılığı onlarda bir nostalji duyğusu yaratmışdı və hər ikisi, böyük türk şairi Nazim Hikmətin sözləri ilə desək, "dənizə dönmək istiyorlardı".

Hüseyn Cavidin ruhu, çox güman ki, qarlı Sibirdə ona əmanət verilmiş bədəni buzlu torpağa tapşırandan sonra dənizə - Azərbaycana dönmüşdü; ancaq 59 illik dostunu – bədənini də unuda bilməzdi. Bu mənada Heydər Əliyevin Hüseyn Cavid ruhunun sakitləşməsinə, Sibirlə Azərbaycan arasında sərgərdan qalmamasına göstərdiyi xidmət misilsizdir. Didərgin şairin didərgin ruhu nəhayət rahatlığa qovuşa bilərdi və bu, təkcə Hüseyn Cavidin rahatlığı deyildi, həm də onun milyonlarla oxucusunun, pərəstişkarının rahatlığı idi. Axı, sənətkarın ölümsüzlüyünü də elə oxucu nəsillərinin bir-birini əvəz etməsi mümkün edir. Əgər sənətkarın yaradıcılığına müntəzəm olaraq qiymət verən, onun müdrik fikirlərindən bəhrələnən, bu fikirlər əsasında tərbiyə olunan oxucu kontingenti, auditoriyası yoxdursa, demək, o sənətkar ömrü boyu doğma vətəndə yaşayıb, öləndən sonra elə həmin doğma vətəndə dəfn olunsa belə, yenə də qürbətdəki kimi sayılır.

Bu mənada, görkəmli şair Əliağa Vahidin sözləri ilə desək, "Cavid həmişə xalqimizin xatirin-

də" olub, onun hətta qadağan olduğu illərdə belə, minlərlə pərəstişkarı böyük şairin əsərlərini gizlincə oxuyub feyzyab olublar. Bu mənada Cavidin "Xəyyam" pyesindəki məşhur şeirini bir növ simvolik-mistik saymaq olar: sanki böyük şair nə vaxtsa gedib, nə vaxtsa qayıdacağını, dönəcəyini əvvəlcədən duymuş və bunu öz əsərində bədii cəhətdən əks etdirmişdi:

*Gəldin də, niçin pənbə bulutlar gibi akdın?*
*Bilməm, niyə getdin, niyə döndün, niyə baktın?*
*Şimşək gibi çaktın da nədən ruhumu yaktın?*
*Bilməm, niyə getdin, niyə döndün, niyə baktın?*

Gedər-gəlməzə gedərkən, şübhəsiz ki, Cavid dönüb doğma vətənin çöllərinə yük vaqonunu dar pəncərəsindən baxmışdı. Niyə baxmışdı? Ona görə ki, bir gün ədalətin zəfər çalacağına, zülmətin öz yerini nura verəcəyinə, bədənini olmasa da, ruhunun vətənə qayıdacağına inanırdı. Çünki öz xalqını tanıyırdı Cavid, öz xalqının potensial imkanlarına, bütün bu işlərin belə qalmayacağına inanırdı. Yoxsa, onun ömrünün otuz ilini sərf edərək yaratdığı insan obrazları, vəsf etdiyi türklük bir heç olardı. Cavid buna inanmırdı və inanmamağa da tam əsası var idi. Çünki tarixi bilirdi,





fəlsəfəni bilirdi, dünya ədəbiyyatından, mədəniyyətindən xəbərdar idi. Bütün bunların əsasında düzgün proqnozlar vermək mümkün idi və böyük sənətkar-filosof-tarixçi bu proqnozları verirdi.

*Türk ordusu daim basaraq ölkələr almış,*
*Ən sonda siyasətdə basılmış da bunalmış.*
*İdrakı sönük başçıların qəfləti ancaq*
*Etmiş, edəcək milləti həp əldə oyuncaq.*
*Turana qılıcdan daha kəskin ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!*

"İdrakı sönük başçıların" dövranı qurtarmışdı 1969-cu ildə. "Milləti oyuncaq" olmaqdan xilas edən bir başçı gəlmişdi və Hüseyn Cavidin də 50 il öncə gördüyü qayıdışın gerçəkləşməsinə lap az qalmışdı.

Hüseyn Cavidin rəsmi qayıdışı əslində Xruşşov mülayimləşməsindən sonrakı bəraəti ilə baş tutmuşdusa da, bu, formal bir qayıdış idi. Böyük sənətkarın həqiqi qayıtması üçün onu sevən, qiymətləndirən, qədirbilən bir dövlət başçısına, xalq rəhbərinə ehtiyac var idi. Bu olmasaydı, Cavidin qayıdışı da, istər şəxsiyyət baxımından, istərsə də sənət acısından yarımçıq bir qayıdış olacaqdı və Cavid kimi sənətkar nə buna layiq idi, nə də onun

müqəddəs ruhu belə alayarımçıq qayıdışla barışa bilərdi. Və bu yerdə, şübhəsiz ki, Tanrı özü, tale özü işə qarışaraq, Cavidin kamil şəkildə qayıdışı üçün Heydər Əliyev dühasını Azərbaycana bəxş etdi. Əlbəttə, xalqımıza olunan bu ilahi hədiyyədən məqsəd təkcə Hüseyn Cavidin Vətənə qaytarılması deyildi; çoxsaylı ülvi məqsədlərdən biri də məhz bu idi. Sadəcə, onu nəzərə çatdırmaq istərdik ki, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsilə, əslində Azərbaycanın bir etnik-coğrafi vahid olaraq özünəqayıdışının möhkəm özülü qoyulmuş oldu. 1969-cu ildən başlayaraq, Azərbaycanın özünəqayıdışı, başqa sözlə, milli müstəqillik yolunda apardığı mübarizələr dönməz xarakter aldı. Bu dövrü hər cəhətdən bir intibah hadisəsi kimi xarakterizə etmək mümkündür. Elə özünəqayıdış, öz mənəvi-siyasi köklərindən bəhrələnmə, onların ənənələrinin dirçəldilməsi də elmi ədəbiyyatda intibahın mühüm əlamətlərindən biri sayılır.

Azərbaycanın Ümummilli lideri, Ulu Öndər Heydər Əliyev kimi şeirə-sənətə, sənətkar şəxsiyyətinə hamilik edən dövlət başçıları tarixdə bəlkə də az tapılar. Azərbaycan xalqına rəhbərliyi boyu Heydər Əliyev klassik şair və yazıçıların yaradıcılığına böyük önəm verərək daim diqqət mərkə-





zində saxlamışdır. Heydər Əliyevin sevə-sevə qayğı göstərdiyi klassik Azərbaycan sənətkarları içərisində dahi şair və dramaturqumuz Hüseyn Cavidin özünəməxsus, müstəsna yeri vardır. Cavid irsinə və şəxsiyyətinə münasibətdə Heydər Əliyevin daha ülvi, daha fərqli duyğular bəslədiyini əminliklə söyləyə bilərik. Bu sevgini yüksək qiymətləndirən Cavid ocağının son qoru-közü Turan Cavid yazırdı: "Repressiya qurbanlarından yalnız birinin cənazəsi gətirildi. Şübhəsiz ki, bu işdə yeganə bir şəxsin yüksək, müstəsna xidmətini və böyük ürək sahibi olmasını qeyd etmək lazımdır. Vəzifə borcu hələ hər şey demək deyil. Vədlər çox olurdu. Sonralar, bu vədlər Cavidlə bağlı yüksək bir tədbirə çevrilə bilmirdi. Bu gün qarşısında durduğumuz bu türbə, vaxtilə ayrı-ayrı məzarlarda, ayrı-ayrı şəhərlərdə uyuyan şəxslərin bir yerdə, bir qütb altında qovuşmaları – mənim zənnimcə, qeyri-adi hadisədir. Cavidə bundan böyük məhəbbət, bundan böyük ehtiram, sevgi ola bilməz."

Turan xanım haqlı idi – məhz sinəsində gəzdirdiyi böyük sevginin sayəsində Heydər Əliyev Cavid yaradıcılığına və şəxsiyyətinə bu qədər böyük ehtiram nümayiş etdirmişdi. Bəlkə bu böyük sevginin nəticəsi idi ki, ermənipərəst Qorbaçovun

məkrli siyasəti nəticəsində böyük siyasətdən və dövlət idarəçiliyindən xaincəsinə uzaqlaşdırılan, qol-qanadının sındırıldığı güman edilən Ümummilli lider əfsanəvi feniks kimi Kreml alovlarından sıyrılaraq öz yurduna-yuvasına uçdu və mütərəqqi bəşəriyyətə, səmimi insanlığa hələ çox fayda verə biləcəyini, xain düşmənlərin sevincinin vaxtından əvvəl olduğunu sübuta yetirdi, nağıl qəhrəmanları kimi öz xalqına başçılıq etdi, öz dövlətini dünya dövlətləri sırasına çıxartdı və hazırda onun qurduğu təməl üzərində bu iş gündən-günə qüvvətlənir, dövlətimizin mövqeyi, nağıllarda olduğu kimi, ilbəil deyil, saatbasaat güclənir.

Heydər Əliyevin Azərbaycana qayıdışı, əslində bütün ictimai-iqtisadi həyatımızın, eləcə də mənəvi-əxlaqi sərvətimiz olan ədəbiyyatımızın və mədəniyyətimizin bir renessans, durğunluqdan və dekadansdan silkinib ayılma dövrünə daxil olması demək idi. Bu mənada, Heydər Əliyevin qayıdışı həm də Hüseyn Cavidin üçüncü dəfə qayıdışı demək idi. Bu kontekstdə bir qədər müqayisə aparacaq olsaq, Hüseyn Cavidin "Azər" poemasında baş qəhrəmana verdiyi xarakteristikanı bir azərbaycanlı övladı kimi Heydər Əliyevə də aid etmək mümkündür və lazımdır:





*Bən yetişdim atəşlə su*
*Öpüşdüyü bir ölkədən.*
*İzliyorkən sevgi yolu*
*Acı duydum hər kölgədən.*

*Bir yoqsulum, hər diləyim*
*Diz çökdürür zənginləri.*
*Bir arifim, bilmədiyim*
*Aşar durur ənginləri.*

*Bən mülayim bir dənizim,*
*Atəşlidir dalğalarım.*
*Sülhə qoşan bir acizim,*
*Əskik olmaz qavğalarım.*

*Bir avçıyım, eşq umarım*
*Hər ahunun gözlərindən.*
*Dərd əhliyim, rəmz anlarım*
*Hər şairin sözlərindən.*

*Bir aşıqım, feyz alırlar*
*Bəndən irfan çobanları.*
*Bir çobanım, qaval çalar,*
*İnlətirim vicdanları.*

*Bən əbədi hürriyyətin*
*Sevdalı bir cilvəsiyim.*

*Anlaşılmaz bir xilqətin*
*Parlar, sönər şöləsiyim.*

Zənnimcə, əlavə şərhə və detalların müqayisəsinə heç bir ehtiyac duyulmur. Əlbəttə, Heydər Əliyevin doğulduğu və ilk uşaqlıq çağlarını keçirdiyi illərdə qələmə alınmış bu misralarda Ulu öndərin şəxsiyyəti və fəaliyyəti ilə üst-üstə düşən cizgilərin olmasında heç bir mistika axtarmaq lazım deyil; bu, sadəcə olaraq, milli mentalitetin sabitliyindən, milli psixologiyanın sağlamlığından, xalqa xidmət etməyi həyatının başlıca mənası və məramı sayan qəhrəman oğulların xarakter bütövlüyündən qaynaqlanan bir uyğunluq, bənzərlikdir.

Bir də, "Peyğəmbər" dramında Peyğəmbərin Mədinədən Məkkəyə qayıdışını xatırlayaq və əsərdə onun son monoloqunu yada salaq. Ulu öndər də, Peyğəmbər kimi, ikinci dəfə qayıdışına müharibə şəraitində olan ölkə üçün ilk növbədə atəşkəs problemini həll edərək, ordu quruculuğuna və maarifə böyük önəm verdi. Məhz bu səyləri nəticəsində ölkəni dağılmaqdan xilas etdi. Cavidin dramında da Peyğəmbər çıxış yolunu qılınc və kitabda, yəni, ordu və maarifdə görür:





*Biri əzməkdə bulur zevqü səfa,*
*Biri həp duydu əzilməkdə şəfa.*
*Bəncə, əzmək də, əzilmək də xəta,*
*Haqqı sev, haqsızı dəf et! Zira*
*Yaqışır haqqa məhəbbət, hörmət,*
*Kinli cəllada ədavət, nifrət.*
*Şu qılıc, bir də şu mənalı kitab*
*İştə kafi sizə... Yoq başqa xitab.*
*Açar ancaq şu kitab el gözini,*
*Siləcəkdir şu qılıc zülm izini.*
*Haq, vətən, zevqi-səadət, cənnət*
*Həp qılıc kölgəsi altında, əvət.*

Ancaq, təbii ki, maarifsiz, bilgisiz bir cəmiyyətdə qılınc zülm alətinə çevrilə bilər və çevrilməlidir. Ona görə də Peyğəmbər sözünün məntiqi davamını belə gətirərək, öz həmvətənlərinə üz tutub deyir:

*O da bilgiylə fəqət qıymət alır,*
*Bilgisiz bir qılıc er-gec qırılır.*
*Kəsbi-irfan için erkək və qadın*
*Çalışın, qəbrə qədər həp çalışın!*
*Gərçi xılqətdə bəşər birsə, yenə*
*Eş deyil bilməyən əsla bilənə.*
*Kişi irfan işığından parlar,*

*Şübhəsiz, bilgidə Allah gücü var.*
*Əvət, arif düşünür, haqqı bulur,*
*Aqibət kəndisi bir tanrı olur.*

Böyük Cavid bu vətənpərvər misraları 1926-cı ildə qələmə alıb. Ondan tam 70 il sonra – 1996-cı ildə, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr edilmiş təntənəli yubiley gecəsindəki nitqində Ümummilli lider Heydər Əliyev dərin məzmunlu sözlərini Azərbaycan xalqının rifahı, Azərbaycan dövlətçiliyinin inkişafı üzərinə gətirərək deyirdi:

"Şübhə yoxdur ki, Məhəmməd Füzulinin 500 illik yubiley mərasimləri xalqımızın mənəvi həyatını daha da zənginləşdirir, xalqımıza daha böyük ruh verir, xalqımızı vətənpərvərlik, vətənə sədaqət, torpağa sədaqət ruhunda tərbiyələndirir, və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqları azad etmək üçün, Azərbaycan Respublikasını yüksəklərə qaldırmaq üçün bizim hamımızı səfərbər edir."

Fikir verin, bütün dünyada məhəbbət və gözəllik şairi kimi tanınmış Məhəmməd Füzulinin yaradıcılığının bugünkü məna və mahiyyətini, Füzuli irsinin Azərbaycan üçün əhəmiyyət və öl-





məzliyini Heydər Əliyev necə ustalıqla ifadə etməyə nail olmuşdur. Eyni natiqliyi biz Hüseyn Cavidin Peyğəmbərində də görürük. Deməli, bu da Heydər Əliyevi və Hüseyn Cavid Peyğəmbərini yaxınlaşdıran, doğmalaşdıran cəhətlər kimi nəzərdən keçirilə bilər. Yubiley nitqindəki sözünə davam edən Ulu öndər fikrinin məcrasını daha yüksək səviyyəyə qaldıraraq deyirdi:

"Mən əminəm ki, bu yubiley şənlikləri, bu böyük bayram xalqımızı daha da birləşdirəcək, daha da yekdil edəcəkdir. Məhəmməd Füzuli insanları dostluğa, mehribanlığa dəvət edibdir. Eşqi, məhəbbəti, sevgini vəsf edərkən, insanlarda saf mənəviyyatı, ülvi duyğuları vəsf edərkən Məhəmməd Füzuli insanları birliyə, həmrəyliyə, dostluğa, mehribanlığa çağırıbdır. Bu gün Məhəmməd Füzulinin bu fikirləri bizim üçün hər şeydən vacibdir."

Ümummilli liderin sonrakı fikirləri Məhəmməd Füzuli yaradıcılığının nəyə görə bu gün vacib olduğunu, başqa sözlə, klassikin müasirliyini özünəməxsus sadə sözlərin köməyi ilə dahiyanə bir surətdə, peyğəmbərcəsinə öz qarşısındakına çatdırmağa nail olur: "Biz ölkəmizi bu ağır mərhələdən keçirmək üçün, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqla-

rımızı azad etmək üçün, ölkəmizdə demokratik prosesləri inkişaf etdirmək üçün, ölkəmizin dünya birliyində özünə layiq yer tutması üçün, onu daha irəliyə aparmaq üçün daxilimizdə olan birliyi, həmrəyliyi möhkəmlətməliyik."

Birliyin, həmrəyliyin möhkəmləndirilməsi yolları arasında ən mühümlərindən biri kimi, Ümummilli lider milli mənəvi dəyərlərin xalqın müxtəlif təbəqələri tərəfindən üzvi şəkildə mənimsənilməsində görürdü və bu fikrini hər yerdə təbliğ edərək, onun bəhrələrindən də məmnuniyyət duyğusu ilə danışırdı. Elə yubiley nitqində olduğu kimi:

"Mən məmnuniyyətlə deyə bilərəm ki, son illər (1993-1996-cı illər nəzərdə tutulur – G.B.) Azərbaycan dövlətinin qüdrətinin möhkəmlənməsi illəri olmuşdur. Son illər Azərbaycanın daxilində ictimai-siyasi vəziyyətin sabitləşməsi illəri olmuşdur. Son illər insanların bir-birinə münasibətlərinin daha da mehribanlaşması, daha da inkişaf etməsi illəri olmuşdur. Biz bunları öz nailiyyətlərimiz kimi qiymətləndiririk. Amma eyni zamanda, Respublikanın gələcəyi üçün bunları ilk addımlarımız hesab edirik və ümidvaram ki, Məhəmməd Füzuli yaradıcılığı, onun nəsihətləri, onun bizə bəxş etdiyi töhfələr və irs bizə bu yolda





uğurla getməyə kömək edəcəkdir..."

Ulu Öndərin böyük ümidləri boşa çıxmadı. Bu ümidlərin ifadə edildiyi gündən keçən iyirmi yeddi il ərzində Azərbaycan Respublikası onun özünün müəyyən etdiyi doğru yolla uğurla addımlamağa imkan verdi, ölkəmizi dünya birliyində layiq olduğu yüksək mövqelərə çıxardı. Əgər keçən əsrin səksəninci illərində Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosuna üzv seçilməyi münasibətilə yazılmış bir beyti iqtibas etsək, aşağıdakı sözləri qürurla səsləndirə bilərik: "Biz elə yüksəldik, elə yüksəldik; Təhlükəsizlik Şurasından gəldi səsimiz!"

Bütün bunlar isə, Heydər Əliyevin qurşadığı Peyğəmbər qılıncı və kitabının – müdafiə və iqtisadi qüdrətimizin, mənəvi-intellektual yüksəlişimizin sayəsində, onun ardıcılları və davamçılarının vətəndaş qeyrəti nəticəsində baş vermişdir. Dahiyanə şəkildə seçilmiş bu doğru yolun bundan sonra da yüksələn xətlə davam edəcəyinə, Heydər Əliyevin atdığı ilk addımların səsinin get-gedə güclənəcəyinə, düşmən qulağını kar edəcəyinə heç bir şübhə yoxdur.

Və ona da heç bir şübhə yoxdur ki, bu yolun daha inamla qət edilməsində, bu yoldakı sıralarımızın sıxlığında bizim klassik şair və yazıçıları-

mız, böyük fikir adamlarımız, bədii-intellektual sərvətimizin daşıyıcıları hər zaman yardımçımız və yol göstərənimiz olacaqdır. Başqa görkəmli klassiklərimizlə yanaşı, böyük Hüseyn Cavidin də yaradıcı bir şəxsiyyət kimi bu sırada önəmli yer tutacağına heç bir şübhə yoxdur.

İqtisadi və siyasi qüdrəti get-gedə artan Azərbaycanın öz klassiklərinin ölməz əsərlərini müxtəlif dillərə tərcümə edərək dünya miqyasına çıxaracağına və onların yüksək humanist dəyərlərindən təkcə xalqımızın deyil, bütün mütərəqqi bəşəriyyətin də mədəni-mənəvi yöndən faydalanacağına da heç bir şübhə olmasın gərək.





# HÜSEYN CAVİDİN ƏBƏDİYYƏTİ UĞRUNDA

*Haqqını sən mübarizə ilə alarsan*
**Hüseyn Cavid**

Hüseyn Cavid öz ölməz əsərləri ilə adını tarixdə əbədiləşdirmiş sənətkarlardandır. Heydər Əliyev isə bu əbədiliyi tamamlayan, bütövləşdirən, bir daha nadanların hücumuna məruz qalmayacaq hala salan, ona layiq olduğu qiyməti verən və layiq olduğu abidələri ucaldan nadir dövlət rəhbərlərindəndir.

Dahi sənətkarlar çox vaxt dahi rəhbərlərin qayğısı nəticəsində öz layiqli qiymətini alır. Hüseyn Cavid irsinə, xüsusən də Bakıda ev muzeyinin açılışına göstərdiyi müstəsna qayğı və diqqəti Ulu öndərin cismani yoxluğundan sonra riqqətlə xatırlayan Turan Cavid 2003-cü ildə yazırdı:

"Hüseyn Cavidin uzaq Sibirdən doğma Naxçıvana gətirilməsi o dövrdəki Sovetlər İttifaqında yeganə hal idi. Onun da səbəbkarı daim xalqına, millətinə bağlı olan, ziyalılarına xüsusi məhəbbətlə yanaşan Heydər Əliyev oldu. Təbii ki, belə məsuliyyətli vəzifəni yerinə yetirmək biz fikirləşdiyimiz qədər də asan deyil. Buna mütləq ən yüksək səviyyəli rəhbərlərin razılığı lazım idi. Görünür, Heydər Əliyev belə bir çətin işin öhdəsindən gələcəyinə inanırdı. Ona görə də işini planlı şəkildə həyata keçirmişdi. Hələ o vaxt Cavidsevərlər dahi şairin gec də olsa vətənə gətirilməsi kimi böyük cəsarət tələb edən işin öhdəsindən gəldiyinə görə, ona minnətdarlıq etdilər. Bu, həqiqətən, müqayisəsi, bənzəri olmayan, xalq qarşısında misilsiz bir xidmət kimi həmişə yüksək qiymətləndiriləcək."

Doğrudan da, Heydər Əliyevin təkcə Hüseyn Cavidi cismən Vətənə qaytarması onun cavidşünaslıq qarşısında müstəsna xidmətlərindən biri kimi qiymətləndirilə bilər. Ancaq Ulu Öndər fraqmentarlığı, yarımçıqlığı sevmirdi və başladığı bir işi kompleks şəkildə yüksək səviyyədə həyata keçirməyincə, necə deyərlər, rahatlıq tapmır, ürəyi soyumurdu. Ona görə də, 1981-ci ildə əsasını qoyduğu möhtəşəm işləri Ümummilli lider





ikinci dəfə Respublika hakimiyyətinə gəldikdən sonra qətiyyətlə davam etdirdi və Hüseyn Cavidə layiq bir şəkildə sona yetirdi. Turan xanım minnətdarlığına davam edərək yazırdı:

"Onu da xatırlayırıq ki, bunu eşidən digər millətlər də repressiya qurbanları olan böyük şəxsiyyətlərinin, yaxınlarının cənazəsini öz diyarlarına gətirmək istədilər.

Lakin qürbətdən doğma elinə qayıdan, doğma torpağa qovuşan təkcə Hüseyn Cavid oldu."

Əlbəttə, bu, hər oğulun işi deyildi və bu əzəmətli planı həyata keçirmək üçün Heydər Əliyev dühası, Heydər Əliyev müdrikliyi, Heydər Əliyev nüfuzu və qətiyyəti, imperiyanın ən yüksək dairələrində layiq olduğu böyük hörməti lazım idi. Bu baxımdan Heydər Əliyev o zamankı müttəfiq respublika rəhbərlərindən qat-qat yüksəkdə dururdu. Turan xanım da məhz bunu nəzərdə tutaraq deyirdi:

"Bu işin çətinliyini göstərmək üçün bir məsələni də qeyd etmək istəyirəm. Əgər bu köçürülmə indi olsaydı, bir o qədər təəccüblənməzdik. Çünki artıq müstəqil respublikayıq, istədiyimizi edə bilərik. Amma o dövrün şəraitini, kimlərin təsiri və rəhbərliyi altında yaşadığımızı bir daha yada salsaq, onda görərik ki, belə mümkünsüz görünən işi

reallaşdırmaq üçün hətta razılıq almağın özü bir məharət tələb edirdi. Görünür, qarşısındakının dili ilə danışmağın özü bir siyasət imiş. Onda bir daha hiss etdik ki, Heydər Əliyev dediyi sözün üstündə axıra qədər dayanan qətiyyətli bir şəxsiyyətdir."

Ulu Öndərin cavidşünaslıq sahəsində on dörd il sonra gördüyü möhtəşəm işlərə də yüksək qiymət verən Turan Cavid istər məqbərənin, istərsə də ev muzeyinin Heydər Əliyev və Hüseyn Cavid dühalarının qovuşuğunda təqdim etməklə öz səmimi duyğularını ifadə etmiş olur:

"1996-cı ildə Cavidin məzarı üzərində ucaldılmış məqbərənin açılışında (Heydər Əliyevin-G.B) dediyi sözlər bu gün də qulaqlarımda səslənir. Hamıdan çox o, sevinirdi. Dedi ki, mən bu gün arzuma çatmışam."

Məqbərənin açılışında Turan xanımın da ürəyi səmimi və mütəşəkkir sözlərlə dolu idi, sevinci, şükranlığı yerə-göyə sığmırdı: "Hörmətli, əziz və dəyərli Prezidentim! Düz beş gün sonra Cavidin Sibirdən gətirilərək Naxçıvan torpağında dəfn olunmasının 14 ili tamam olur. 1982-ci ildə Cavid cənazəsi gətirilərkən bu qeyri-adi hadisənin əks-sədası çox uzaqlara yayılmışdı. Başqa şəhərlərdən bu xəbərin dəqiqliyini öyrənmək istəyən-





lər sualı belə qoyurdular ki, yəqin, bu hörmətli Heydər Əliyevin xidmətidir. Bunun da qısa bir cavabı var: Şübhəsiz ki, elədir.

Möhtərəm Prezident, o zaman, Cavidin yüz illiyi qarşısında mərkəzi Komitənin çox geniş, çox gözəl bir qərarı çıxmışdı. O qərarda Cavidlə bağlı olan bir sıra tədbirlər yerinə yetirildi. Ancaq qərar 1981-ci ildə çıxdığına görə, Cavid cənazəsinin gətirilməsi orada qeyd olunmamışdı. 1982-ci ildə bu cənazə gətirilərkən 1981-ci ildəki həmin qərarda nəzərdə tutulan bütün tədbirlərin zirvə nöqtəsi cənazənin gətirilməsi oldu. Onu da qeyd edək ki, o vaxta qədər bu hadisənin nə bənzəri var idi, nə belə bir iş var idi, nə də sonralar bunun təkrarı oldu. Bu, yeganə hadisə idi. Repressiya qurbanlarından yalnız birinin cənazəsi gətirildi. Şübhəsiz ki, bunun da gətirilməsi yeganə bir şəxsin yüksək, müstəsna xidmətini və böyük ürək sahibi olmasını qeyd etmək lazımdır. Vəzifə borcu hələ hər şey demək deyil. Vədlər çox olurdu. Sonralar, bu vədlər Cavidlə bağlı yüksək bir tədbir ola bilmirdi. Bu gün qarşısında durduğumuz bu türbəni, türbədə yatanların, ayrı-ayrı məzarlarda, ayrı-ayrı şəhərlərdə uyuyan şəxslərin bir yerdə, bir qütb altında qovuşmaları – mənim zənnimcə, qeyri-adi hadisədir. Cavidə bundan böyük məhəbbət, bun-

dan böyük ehtiram, sevgi ola bilməz. Vaxt dardır, ancaq ürək sözlərimi yəqin ki, dəqiqələrlə yox, saatlarla demək olar. Sizin gördüyünüz bu iş, mən deyərdim ki, heç bir ölçüyə sığmır. Bu, həqiqətən belədir.

...Cənab Prezident Heydər Əliyevin yanında bütün bu işlər mərhələ-mərhələ müzakirə olunub. Prezident bu məqbərənin tikintisindən qayğı və diqqətini bir an belə çəkməmişdir. ...Bunların hamısına görə, mən cavidsevərlər adından, qohumlarımın adından və şübhəsiz ki, Cavid ocağının son nümayəndəsi kimi öz adımdan Sizə dərin minnətdarlığımı və sonsuz hörmətimi bəyan edirəm."

2003-cü ildə Ulu öndərin vəfatından sonra qələmə aldığı məqaləsində Turan Cavid Heydər Əliyevin Cavid irsinə qayğısını dönə-dönə yada salır, bu barədə düşüncələrini belə ifadə edirdi: "Dahi rəhbərin Cavid irsinə məhəbbəti bununla (Cavid məqbərəsinin ucaldılması ilə - G.B.) bitmədi. Sonra Hüseyn Cavidin Ev Muzeyinin onun adına layiq təşkil edilməsində misilsiz xidmətləri oldu.

Ev Muzeyi də əslində hələ o vaxt, yəni 1982-ci ildə açılmalı idi. Lakin ondan sonra bu məsələ ilə maraqlanan olmadı. Hər yerə müraciət etdim, lazımi təşkilatlara məktub yazıb, teleqramlar vurdum, heç bir nəticə vermədi.





Hüseyn Cavidin Ev Muzeyi yalnız O (Heydər Əliyev – G.B.) yenidən Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra reallaşdı. 1995-ci ildə müşavirə çağırdı. Məqbərənin layihəsinin nümunələrinə baxıldı. Daha sonra muzeyin təşkili ilə maraqlanaraq dedi ki, adətən dahilərin muzeyləri onların yaşadıqları evlərdə, mənzillərdə olur. Nə üçün indiyə qədər bu işi həll etməmisiniz. Beləcə, düz 14 ildən sonra əvvəl binanın birinci mərtəbəsində olan muzey, məhz onun diqqət və qayğısı sayəsində, əsl ünvanında yerləşdirildi. Onun daimi nəzarəti altında çox böyük bərpa və tərtibat işləri aparıldı."

Yazısında atası Hüseyn Cavid kimi, özünə mənəvi qardaş saydığı Heydər Əliyevin də cismani yoxluğuna inanmadığı açıq-aşkar hiss olunan Turan xanımın dilindən bəzən nisgilli ifadələr də süzülür:

"Hüseyn Cavidin anadan olmasının 120 illiyi ərəfəsində muzeyin açılışında şəxsən iştirak etdi. Heç kəsin ağlına gələ bilməzdi ki, bu böyük şəxsiyyətin lentini kəsdiyi son muzey elə Cavidin ev muzeyi, onun yadigarlarını qoruyan bu otaqlar olacaq. Həmin gün muzeydə xeyli oturdu. Bizim-

lə çox səmimi söhbətlər etdi. Vaxtın necə keçdiyini heç kəs hiss etmədi. "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsini (Drezden nüsxəsinin nəfis surəti nəzərdə tutulur – G.B.) Elmlər Akademiyasına (Əlyazmalar İnstitutuna – G.B.) təqdim etdi. Həmin gün bizim üçün həmişə xatırlayacağımız son dərəcə mənalı tarix idi."

24 oktyabr 2002-ci ildə baş tutmuş həmin açılışdan sonra Ulu öndər tərəfindən muzeyin rəy kitabına yazılmış sözlər Heydər Əliyevin Hüseyn Cavid irsinə və taleyinə əvəzolunmaz qayğısının inikası idi. Və bu məqamda Ulu öndərin qələmindən süzülmüş o səmimi ifadələr bir daha yada düşür: "Bu gün böyük şair və dramaturq dahi Hüseyn Cavidin anadan olduğu bir gündə onun ev-muzeyini açarkən dərin həyəcan və fərəh hissi keçirdim.

Cavidin cənazəsini 20 il bundan öncə uzaq Sibirdən doğma vətəninə gətirdik, onu doğma torpağına qovuşdurduq. Sonra onun qəbri üzərində gözəl bir məqbərə ucaltdıq. Bu gün isə ölməz sənətkarımızın ev-muzeyini açdıq. Bütün bu işlərin gerçəkləşdirilməsi yolunda nə qədər böyük çətinliklərlə üzləşsək də, tale bizə Hüseyn Cavid ruhu qarşısında vətəndaşlıq borcumuzu yerinə yetirmək şərəfini qismət etdi.





Bu gün mənə elə gəlir ki, Hüseyn Cavid 65 il əvvəl cismən tərk etdiyi evə mənən qayıtmış, onun ruhu isə sədaqətli qızı Turan xanımın böyük zövq və səliqə ilə sahmanladığı ev-eşiyində rahatlıq tapmışdır.

Hüseyn Cavidin ev-muzeyi tarixi əhəmiyyət kəsb edən qiymətli sənədlərlə, eksponatlarla zəngindir. Bunlar bizi böyük Cavid dünyasına yenidən qaytarır. Ümidvaram ki, bu Cavid ocağı xalqımızın tarixinin, ədəbi irsinin, milli mənəvi dəyərlərinin gənc nəsillərə aşılanmasında misilsiz rol oynayacaqdır."

2003-cü ildə müdrik Heydər Əliyevi itirmək ümumən Azərbaycan xalqı üçün çox böyük itkiyə bərabər idi... Onu şəxsən tanıyan, onu özünə doğma bilən insanlar üçün isə bu itkinin ağrı-acısı ölçüyə gəlməzdi. Bəzən əziz bir insanı itirəndən sonra ona hər an ehtiyac duyulduğu daha kəskin şəkildə meydana çıxır. Bu zaman onun hər bir sözü, işi yada düşür və yeni kontekstdə, yeni şəraitdə nəzərdən keçirilərək qiymətləndirilir. Turan xanımın Heydər Əliyevi təzəcə itirdiyimiz bir vaxtda qələmə aldığı və yuxarıda bir hissəsini iqtibas etdiyimiz yazı da bənzər duyğularla çulğalanmışdır. Xüsusən, Ümummilli liderin möhtəşəm işlərindən sonra cavidşünaslığın yeni mərhə-

ləyə qədəm qoyması Turan Cavid tərəfindən sadə sözlərin köməyi ilə dilə gətirilir:

"Heydər Əliyevin atama münasibəti elə bil insanlara cəsarət verdi. Onun haqqında məqalələr, namizədlik dissertasiyaları yazıldı."

Çox doğru fikirdir: çox vaxt bir işi başlamaq çətin olur, təşəbbüs göstərən böyük zəhmət sərf edir. Ancaq onun göstərdiyi örnək bir çoxlarının qarşısında duran psixoloji maneələri keçmək üçün yardım edir. Məhz buna görədir ki, hər hansı bir möhtəşəm işdə orijinal ideyanın müəllifinə böyük önəm verilir. Heydər Əliyevi də Cavidşünaslıqda orijinal ideya müəllifi saymaq olar. Bu ideyanın əsasında isə Ulu öndərin böyük Cavid sevgisinin durduğu heç bir şübhə doğurmur. Turan Cavid Heydər Əliyevin bu sevgisindən qürur və minnətdarlıq hissi ilə bəhs edərək yazırdı:

"O, Cavidi çox sevirdi. Demək olar ki, bütün külliyyatı ilə tanış idi. Bilirdi ki, Cavid söz xatirinə misra yazan şair olmayıb. Hər biri bir xəzinə olan külliyyat yaradıb, irs qoyub gedib. Zəngin sərvət bəxş edib bu xəzinədən yararlananlara. Heydər Əliyev də belə qədirbilən, sənətə, hər kəsə layiq olduğu qiyməti verən söz sərrafı idi."

Maraqlıdır ki, Turan xanım Hüseyn Cavidlə Heydər Əliyevin yaradıcı intellekti arasında ortaq





nöqtələr, kəsişən cizgilər, ümumi cəhətlər axtarır və tapmağa da nail olur. Heydər Əliyevin təkcə baza təhsilinə görə deyil, həm də şəxsi keyfiyyətlərinə görə tarixçi olması ilə Hüseyn Cavidin tarixi mövzuda qələmə aldığı ölməz əsərləri arasında intuitiv bir yaxınlıq görən Turan xanım yazırdı:

"O, həm də tarixçi olub. Cavidin əsərlərinin əksəriyyəti isə demək olar ki, tarixi hadisələrdən qaynaqlanırdı. Bəlkə də bu idi ona Cavid yaradıcılığını sevdirən, onu ölməz sənətkara bağlayan ortaq meyar, mənbə. Realist şair Hüseyn Cavidin əsərlərində həyatdan qaynaqlanan həqiqət var idi. Heydər Əliyev isə həyatın, düzlüyün, saflığın vurğunu idi. Təsəvvür edin, 1990-cı ildə Naxçıvana qayıdanda ilk getdiyi yer Hüseyn Cavidin məzarı olub. Onu bu işə vadar edən sənətə, sənətkara məhəbbəti, hörməti idi."

Turan xanımın yazısında müəllifinə hörmət doğuran cəhətlərdən biri də odur ki, o, təkcə Hüseyn Cavidin qızı kimi yox, qeyrətli, vətənpərvər bir azərbaycanlı xanım ziyalı kimi Heydər Əliyev irsinə münasibət göstərir, bu baxımdan onu öz doğma atasından ayırmır. Onun bir növ Azərbaycan xalqına müraciət kimi səslənən son sözləri də bu duyğulardan və narahatlıqdan qaynaqlanır:

"Heydər Əliyev həm də ensiklopedik biliyə

malik fenomen insan kimi xatırlanacaq. Onun dərindən bilmədiyi elə bir sahə yox idi. Hansı peşədən, ixtisasdan danışsaydı, elə bilərdin o işin mütəxəssisidir. Ədəbiyyatı da incəliklərinə qədər bildiyi üçün sevirdi. Gərək bir işi sevəsən ki, onu öyrənməyə həvəsin ola, haqqında danışmağa bacarığın, qabiliyyətin çata. Heydər Əliyev həqiqətən fitri istedada malik, hafizəsinə hamının qibtə etdiyi insan idi. Həmişə bir iş görməzdən əvvəl ətrafına topladığı insanların təkliflərinə qulaq asıb, məsləhətlərini eşidən Ümummilli liderimiz deyərdi: "Gəlin görək, indi nə etməliyik?"

Ən əsası isə, bu müdrik insanda başqalarında hiss edilməyən Azərbaycana bağlılıq təsəvvür edilməyəcək dərəcədə yüksək və ülvi idi. Elə buna görə də otuz dörd illik tariximizdə nəyə üz tuturuqsa, orada Heydər Əliyevin izini, dəst-xəttini görürük. Buna görədir ki, ona ümumxalq məhəbbətini bildirmək istəyən milyonlar gecədən xeyli keçənə qədər mərhumun məzarını ziyarət edir."

Turan xanım Ulu öndər Heydər Əliyevin Hüseyn Cavidə verdiyi qiyməti ədibə münasibətdə ən dəyərli, ən ülvi, ən doğru qiymət hesab edirdi, Ümummilli lideri Cavidlər ailəsinin bir üzvü kimi əziz bilir, onun qəminə şərik olduğu qədər, sevincinə də sevinirdi. Hələ 1998-ci ildə Ulu öndərə





yazdığı məktubda Turan xanım bu hissləri belə ifadə etmişdi:

"Möhtərəm cənab prezident!

Bu günlər ictimaiyyətimizin sevincinə və iftixarına səbəb olmuş hadisə –Türkiyənin "NTV" televiziyasının apardığı sorğuya əsasən, dünya siyasətçiləri sırasında birinci yerə çıxaraq "İlin adamı" adına layiq görülməyiniz mənim də qəlbimi qürur hissi ilə doldurdu. Sizin hər uğurunuza, onsuz da bəlli olan böyüklüyünüzün dünya arenasında hər yeni təsdiqinə mən ürəkdən fərəhlənirəm, bunları yalnız dövlətimizin güclü başçısının nailiyyətləri kimi deyil, həm də mənə, Cavidlər ailəsinə çox doğma olan məhrəm bir insanın qələbələri kimi qəbul edirəm. Son 60 il ərzində Cavid ailəsi cəmiyyətdən və insanlardan hər cür münasibət görüb. İndi arxada qalmış əbədiyyət qədər uzun, çətin illəri xatırlayanda hər halda bizə qarşı təzyiqlərin, soyuqluğun, biganəliyin diqqətdən, himayədən daha çox olduğunu acı təəssüflə yada salıram. Atamın "Kimsədən bəkləmə yardım əsla, Yalnız kəndinə kəndin ağla" misralarını illərcə onun vəsiyyəti hesab edərək heç kəsə ümid bağlamadan yaşamışıq. Amma dünyada Cavid və onun ailəsinə hər məşəqqəti qismət etmiş tale bizim bəxtimizə Sizin kimi nadir şəxsiyyəti də ya-

zıbmış. Siz hətta arzulamağa belə ehtiyat etdiyimiz dəruni istəklərimizi gerçəkləşdirdiniz. Atamın cənazəsini Sibirdən Vətənə qaytarmaq yalnız və yalnız Sizin qeyri-adi hünəriniz və siyasi qüdrətiniz sayəsində mümkün ola bilərdi. Atamı, anamı, qardaşımı Naxçıvanda dədə-baba yurdunda sonu görünməyən hicranlardan qurtararaq bir türbədə qovuşdurdunuz, Əcəmi "Əhsən"inə layiq məqbərə ucaltdınız. 1937-ci ildə atamın həbsindən az sonra çıxarıldığımız mənzilimizi qaytardınız, burada Cavidin ev-muzeyini yaratdınız. Bunların hamısının minnətdarlığını ifadə edə bilmək üçün sözlərin gücü çatmaz. Sizi hər gün, hər an ən xeyirxah dualarımla, məhəbbətlərimlə anıram. Pərvərdigar Sizə Cavid ailəsi üçün, ədəbiyyatımız, mədəniyyətimiz üçün, xalqımız üçün etdiyiniz bütün alicənab işlərinizə görə daim həyan olsun, şəfqətini üstünüzdən əskik etməsin. Hüseyn Cavid "Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur Yer üzünü" deyirdi. Neçə illərdir ki, torpağımızda tökülən qanların izini kəsibsiniz, inşaallah, nurlu zəkanızın gücüylə müharibəni də bitirəcəksiniz və atamın o yazdıqları sonacan çin olacaq.

Sağ olun ki, Siz varsınız!

Xoşbəxtik ki, Siz varsınız!"





Turan xanım Ulu öndər Heydər Əliyevə çox güvənirdi və ona xitabən "...inşaallah, nurlu zəkanızın gücüylə müharibəni də bitirəcəksiniz" deməklə, əslində xalqımızın, bütün cavidsevərlərin, vətən qeyrətli insanların ona sonsuz dərəcədə güvəndiyini ifadə edirdi. Ulu öndərin vəfatından bir neçə ay öncə Turan xanımın ona yazdığı təbrik məktubunda da bu hisslər hakim idi: "Əlamətdar təvəllüd gününüz münasibətilə Sizi, böyük xalqımın böyük oğlunu ürəkdən təbrik edirəm.

Siz Azərbaycan üçün tarixi işlər görürsünüz. Müstəqillik dövrümüzün ən mühüm mərhələləri Sizin adınızla bağlıdır.

İnanıram ki, hələ uzun illər, Siz, təməl daşını qeyri-adi istedadla qoyduğunuz doğma vətənimizin tərəqqisi naminə yorulmaz fəaliyyətinizi davam etdirəcək, ərazi bütövlüyümüzün bərpası, didərgin yurddaşlarımızın doğma yurd-yuvalarına qayıdışı da tarixə Sizin adınızla düşəcəkdir.

Bir daha Sizə möhkəm cansağlığı, uzun ömür, övlad fərəhi arzulayıram."

Turan xanım Heydər Əliyevlə Hüseyn Cavid arasındakı mənəvi bağların çıraqsuzu, mənəvi körpü idi. Ulu öndərlə Turan xanımın Cavid irsi ilə bağlı düşüncələri, qayğıları bir növ sinxronlaşmışdı, onların Cavid yolundakı addımları son ana

qədər bərabər, qarşılıqlı hörmət və ehtiramları isə sonsuz idi. Təsadüfi deyil ki, Ulu öndər Heydər Əliyev həyatının ən çətin anlarında, müalicə aldığı uzaq Klivlend klinikasında belə, Cavidə, onun yadigarına olan qayğısını, diqqətini əsirgəməmiş, Turan xanıma çox dərin məzmunlu bir təbrik məktubu yollamışdı:

"Hörmətli Turan xanım!

Sizi – Azərbaycanın tanınmış mədəniyyət xadimini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz respublikamızın mədəni həyatında uzun illərdən bəri yaxından iştirak edən ziyalı kimi ölkəmizdə yaxşı tanınırsınız. Mədəniyyət və İncəsənət Universitetində Sizin Azərbaycan teatr tarixinə dair otuz ildən də artıq bir dövr ərzində oxuduğunuz mühazirələr gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda böyüməsi baxımından əhəmiyyətli olmuş, milli mədəniyyətimizin inkişafına ləyaqətli xidmətin parlaq nümunəsini təşkil etmişdir.

Siz uzun müddət Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru vəzifəsində çalışmış, tarixi yaddaşımızın böyük bir parçasının qorunması üçün əlinizdən gələni əsirgəməməsiniz. Bu gün isə Azərbaycanın milli sər-





vətlərindən sayılan bir mədəniyyət ocağının – Hüseyn Cavidin Ev Muzeyinin direktoru kimi, göstərdiyiniz nəcib fəaliyyət sayəsində Cavid yaradıcılığı ilə maraqlananlar da, elmi işlə məşğul olanlar da qiymətli sənədlərlə zəngin bu muzeydə özləri üçün lazımi məlumatları toplaya bilmək imkanına malikdirlər. Bununla yeni nəsil ulu əcdadlarımızın əsrlər boyu yaratdığı mənəvi dəyərlərin xalqımıza qaytarılması üçün Sizin də yorulmadan göstərdiyiniz səylər sayəsində tariximizin zəngin bir dövrü ilə tanış olmaq, görkəmli şəxsiyyətlərimizi daha da yaxından tanımaq imkanı əldə etmişdir.

Siz mətnşünaslıq sahəsində də uğurlu fəaliyyət göstərmisiniz. Böyük Azərbaycan şairi Hüseyn Cavidin işıq üzü görən bütün əsərlərinin tərtibatçısı kimi, Sizin fəaliyyətiniz hər cür təqdirəlayiqdir. Hüseyn Cavid irsini – bu əvəzsiz söz xəzinəsini bir çox təhriflərə məruz qalmaqdan məhz Siz xilas etmiş, onlara yenidən Cavid nəfəsi vermisiniz.

Ata ocağı qarşısında həqiqi vəfalı övladlıq borcunu ömrü boyu şərəflə yerinə yetirən və öz taleyini doğma xalqın taleyi ilə birləşdirən şəxsiyyət kimi Sizin həyatınız, Sizin ləyaqətiniz və ən çətin anlarda göstərdiyiniz dəyanət, dözüm ibrətamiz

olub, bugünkü və gələcək nəsillər üçün bir nümunə, bir həyat dərsidir.

Sizə uzun ömür, cansağlığı arzulayıram."

Bu məktubdan sayılı günlər sonra Azərbaycan xalqı Heydər Əliyevin vəfat xəbərindən sarsıldı, insanların qəlbində matəm ocağı qalandı. Turan Cavid xalqımızın bu kədərini özünəməxsus fəlsəfi harayla belə bölüşürdü:

"...İndi bu sualı hər birimiz özümüzə verməliyik. Biz nə etməliyik ki, onun ruhu şad olsun?! Yalnız ona layiq işlər görməliyik. Gurultulu sözləri sevməyən Heydər Əliyevi sevir, ona hörmət edirıksə, özümüzü də, xalqı da boş sözlərlə aldatmamalıyıq. Yalnız bu millətə xeyir verən işlər görməklə Heydər Əliyev əməllərinə sadiq qaldığımızı, ona ehtiramımızı bildirmiş olarıq. Bununla da onun memarı olduğu, qurub-yaratdığı dövlətçiliyimizin mənafeyini qoruya bilərik. Heydər Əliyevin ruhu Hüseyn Cavid demişkən "nurihəqq kimi daim yanacaq, sönməyəcək!""

Turan xanımın vətəndaş qeyrəti və qüruru ilə yazdığı bu sözlərin üstündən 20 il keçir. Nə yaxşı ki, bu ziyalı xanımın tövsiyəsi və vəsiyyəti bu gün müstəqil Azərbaycan Respublikasında ən yüksək səviyyədə gerçəkləşməkdədir. Ulu Öndərin layiqli varisi, onun monumental vətənsevər iş-





lərinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ürəyində də Heydər Əliyevin ürəyində olan Hüseyn Cavid sevgisi, Azərbaycan sevgisi alovlanmaqdadır. Hüseyn Cavidin 125, 130, 135, 140 illik yubileylərinin yüksək səviyyədə keçirilməsi, ölməz sənətkarın irsinə, onun ev muzeylərinə (Naxçıvanda və Bakıda) göstərilən yüksək qayğı və diqqət bunun əyani sübutudur.

Son zamanlar Prezident İlham Əliyev tərəfindən Hüseyn Cavidin, xalqımızın başqa böyük şəxsiyyətlərinin, şair və yazıçıların yubileylərinin yüksək səviyyədə keçirilməsi haqqında verilmiş sərəncamlar Heydər Əliyevin mesenatlıq fəaliyyətinin davamı etdirilməsinin və Prezidentin Azərbaycan xalqına sədaqətlə xidmət etməsinin göstəricisidir. Biz bu barədə monoqrafiyanın sonrakı bölmələrində daha ətraflı söz açacağıq. İndi isə yenə də mövzumuza qayıtmaq və tarixin səhifələrini bir daha varaqlamaq istərdik.

Dahı öndər Heydər Əliyev Naxçıvanda Hüseyn Cavid məqbərəsinin təntənəli açılışı mərasimində söylədiyi dərin mənalı nitqində bir daha Hüseyn Cavidi, onun yaradıcılığının Azərbaycan xalqı və dövlətçiliyi üçün əhəmiyyətini belə qiymətləndirmişdir: "Hüseyn Cavidın bütün yaradı-

cılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəkliyə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur".

Yalnız klassikin həyat və yaradıcılığını, eləcə də onu araya-ərsəyə gətirən mədəni-mənəvi, sosial-siyasi mühiti dərindən dərinə bilən və elmi araşdırmaya, sistemləşdirməyə qabil bir təfəkkür sahibi olan, eyni zamanda, doğma ədəbiyyatını, mədəniyyətini sonsuz bir məhəbbətlə sevən bir şəxsiyyət bu cür qiymət verə bilərdi. Heydər Əliyev bütün həyatı və fəaliyyəti boyu Hüseyn Cavid yaradıcılığına və şəxsiyyətinə münasibətdə məhz vurğuladığımız mövqeyi tutduğunu və bu mövqedən bir an belə geri durmadığını parlaq şəkildə sübuta yetirmişdir. Bir şey də maraq doğurur ki, Heydər Əliyevin Hüseyn Cavid haqqında dediyi yüksək sözlər, əslində, dahi bir azərbaycanlı kimi, elə onun özünə də tamamilə aiddir; əgər həmin sözləri iqtibas edərək desək ki: "Heydər Əliyevin bütün yaradıcılığı, bütün fəaliyyəti





Azərbaycan xalqının mədəniyyətini yüksəkliyə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur" - bu sözlərdə zərrə qədər də yanlışlıq tapmaq mümkün olmaz.

Ən əlamətdarı isə odur ki, Ümummilli lider bu cür münasibəti təkcə Hüseyn Cavidə qarşı deyil, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində xidmətləri olan hər bir klassik sənətkarımıza qarşı göstərmişdir. Bu münasibətin bu gün də davam etməsi, yəni Ümummilli lider Heydər Əliyevin birbaşa gələcəyə yönəlmiş müdrik mədəniyyət siyasətinin davam və inkişaf etdirilməsi Azərbaycan dövlətçiliyinin, xalqın mədəni səviyyəsinin dönmədən inkişafı və gücləndirilməsinin möhkəm qarantı kimi nəzərə çarpır. Başqa sözlə, müdrik Ümummilli liderimiz Heydər Əliyevin Cavid əbədiyyəti uğrunda göstərdiyi xidmətlər, atdığı addımlar xalqın yaddaşında hər daim yaşayır, cavidsevərlər tərəfindən yüksək qiymətləndirilir.

# HEYDƏR ƏLİYEV VƏ HÜSEYN CAVİD ARASINDA CANLI KÖRPÜ

Ulu öndən Heydər Əliyev və filosof-şair Hüseyn Cavid mövzusundan bəhs edərkən bu iki dahi arasında canlı körpü rolunu oynamış Cavid qızı Turanın fəaliyyətindən də danışmağımız çox təbiidir.

Əgər böyük Cavid özündən sonra Azərbaycan ədəbiyyatını son dərəcə zənginləşdirən ölməz əsərlər qoyub getdisə, Turan xanım da bu əsərlərin son mükəmməl nəşrini hazırlayıb öz xalqına təhvil verdi, sonra isə arın-arxayınlıqla, rahatlıqla həyatın keşməkeşlərində bir qədər sərtləşmiş, amma həmişə intellekt və əsilzadəlik süzülən gözlərini yumdu.

Hüseyn Cavidin beşcildliyi – uzun onilliklər boyu aparılan gərgin mətnşünaslıq işinin, müxtəlif qaynaqlarından axtarışların və tapıntıların uğurlu yekunu, şirin bəhrəsidir.





Məlumdur ki, Cavidin üslubu kimi, bədii dili də təkraredilməz, unikal idi və böyük ədib bu dilin üstündə əsirdi, onu olduğu kimi, oxucularına çatdırmaq istəyirdi. Bu da səbəbsiz deyildi; Cavidin əsərlərində, hər bir böyük sənətkarın yaradıcılığında olduğu kimi, forma və məzmun vəhdəti çox güclü idi və bunlardan birinin azacıq dəyişdirilməsi, oraya edilən kobud müdaxilə poetik sistemin bütövlüyünün pozulmasına, gözəlliyin kamilliyinə xələl gətirməsinə səbəb olurdu. Elə buna görə idi ki, əlyazmalarını nəşriyyata təqdim edərkən Cavid təkidlə: "İmlasına dokunmamalı!" qeydini yazırdı və təbii ki, şairin sağlığında çap olunan əsərlərində buna ciddi riayət edilirdi. Ancaq böyük sənətkar repressiya edildikdən, uzun müddət əsərləri qadağan edildikdən sonra, nəhayət, bəraət aldıqda onun əsərlərinin nəşri zamanı süni məhəlliləşdirməyə, Cavidin bütün yaradıcılığı boyu uğrunda mübarizə apardığı böyük türk birliyindən ayırmağa ciddi-cəhdlə çalışmağa başladılar. Turan xanım ürək ağrısı ilə bütün bunları xatırlayıb türkofob bolşevik ideologiyasının Cavid irsini "müasirləşdirməyə", xalqa "yaxınlaşdırmağa" yönəlmiş basqısından yana-yana danı-

şır, bu yolda nə kimi əzablar çəkdiyini yada salırdı.

Yalnız ölkəmizdə dövlət müstəqilliyi əldə edildikdən, türkofobiyaya son qoyulduqdan, milli və dini dəyərlərimizə qayıdış baş verdikdən, xüsusən Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışından və mədəni dəyərlərimizə hami, arxa, qahmar durmasından sonra Turan xanımın uzun illərdən bəri ürəyində gəzdirdiyi arzuları həyata keçirmək üçün real imkanlar yarandı.

Heydər Əliyevin və Turan xanımın ən böyük müştərək yadigarlarından biri olan Hüseyn Cavidin ev muzeyində böyük ədibin unikal bir dördcildliyi saxlanılır. Bu dördcildliyin hər səhifəsində Turan xanımın əli ilə edilmiş minlərlə düzəliş vardır. Bu, Turan xanımın Cavid irsinin bərpası uğrunda çəkdiyi titanik zəhmətin əyani göstəricisidir. Turan xanım öz zəhmətinin bəhrəsini – Hüseyn Cavidin latın qrafikalı yeni Azərbaycan əlifbası ilə nəfis şəkildə kütləvi tirajla çapdan buraxılmış beşcildliyini görməsə də, həmin nəşri əlinə alan hər kəs Turan xanımı xəyalən görür, onun ruhuna qəni-qəni rəhmətlər oxuyur. Bir övlad kimi Turan xanımın borcunu ləyaqətlə yerinə yetirmək nişanəsi olan bu nəşr ona ən böyük abidədir.

Turan xanımın illər boyu üzərində zəhmət çək-





diyi və yüksək səviyyədə araya-ərsəyə gətirdiyi "əsərlərdən" biri də Hüseyn Cavidin Ev-Muzeyidir. Yuxarıda qeyd etdiyimiz kimi, bu muzey də Cavid irsinin böyük himayəçisi, Ümummilli liderimiz Heydər Əliyevin yaxından köməyi və bir rəhbər kimi qayğısı nəticəsində yaradılıb və Cavidsevərlərin ixtiyarına verilib. Muzeyin hər bir eksponatında, hər bir guşəsində Turan Cavidin Cavidlərə məhəbbətini, Cavid ocağının qorunu qorumağa yönəlmiş övladlıq qeyrətini duymamaq olmur. Hüseyn Cavidin beşcildliyi kimi, bu muzey də mükəmməl bir sistemdir, forma və məzmun vəhdətinin klassik örnəyidir. Ancaq beşcildliklə muzeyi fərqləndirən bir cəhət var ki, bu da muzeyin rəsmi açılışını görməyin, böyük öndərimiz mərhum Heydər Əliyevlə birlikdə muzeyin salonlarını gəzməyin ona qismət olmasıdır. Həmin açılışdan alınmış qırmızı lent də indi muzeyin ən qiymətli eksponatlarından biri kimi qorunmaqda və cavidsevərlərə nümayiş etdirilməkdədir.

Turan Cavid, təbii ki, beşcildliyin nəşrindən və muzeyin sonrakı taleyindən nigaran getdi. Amma onun müqəddəs ruhu yəqin ki, beşcildliyin nəşrini də, muzeyin indiki səviyyəsini və inkişaf yolunu da görüb şad olur, rahatlanır. Turan xanımın

vəfatından keçən dövr ərzində muzeydə bir sıra görülmüş, bu qurumun böyük Cavid adına layiq olması üçün muzey əməkdaşları əllərindən gələni əsirgəməmişlər. Bu işlərin sırasında Hüseyn Cavidin ev muzeyinin əsərləri olan "Cavidşünaslıq" toplusunun 30 cildinin çapdan çıxmasını, Hüseyn Cavidin mükəmməl biblioqrafiyasının hazırlanıb nəşr edilməsini, Hüseyn Cavidin istedadlı oğlu Ərtoğrol Cavidin 1938-1941-ci illərdə dahi Bülbülün rəhbərliyi ilə toplayıb şərhlər verdiyi folklor mətnlərinin işlənərək 10 cildlik "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" çox cildliyinin çap olunmasının, şairin sevimli qızı Turan Cavidin həyat və fəaliyyətini əks etdirən "Turan Cavidin ömür səlnaməsi" kitabının nəşrə hazırlanmasını, Hüseyn Cavidin şeirlərinə bəstələnmiş mahnılardan ibarət "Sözləri Hüseyn Cavidindir" albomunun işıq üzü görməsini, Hüseyn Cavidin əsərlərinin Avropa və Şərq dillərin tərcümə edilməsini, müntəzəm olaraq, Cavidlərin anım günlərinin və Cavid yaradıcılığına həsr olunmuş elmi sessiyaların keçirilməsini, Cavid irsinin geniş kütlələr arasında təbliğini və s. göstərmək olar. Amma əlbəttə ki, bu sadalananlar Turan xanımın vəfatından sonra ev-muzeyinin əldə etdiyi nailiyyətlərin hamısı deyil və biz bu məqama kitabın sonrakı fəsillərində - Ulu öndər Heydər Əliyevin Cavid sevgisinin müasir təzahürlərindən danışarkən bir daha qayıdacağıq.





Kitabın daha əvvəlki səhifələrində xatırlatdığımız kimi, Hüseyn Cavidin Ev Muzeyinin açılışında Ulu Öndər Heydər Əliyev şəxsən Muzeyə gəlmiş, burada yaradılmış ekspozisiyanın ilk tamaşaçısı olmuş və Turan xanımla səmimi söhbət etmişdi. Bu söhbətdə Heydər Əliyevə xas olan müdrikliklə sadəliyin üzvi sintezi, Hüseyn Cavidin həyat və yaradıcılığına, Cavid dövrünün ictimai-ədəbi mühitinə dərindən bələdliyi bir daha özünü göstərməkdədir. Həmin söhbətdən aşağıda təqdim etdiyimiz parça fikrimizin əyani təsdiqi kimi səslənir:

"**Heydər Əliyev**: Cavid burada neçənci illərdə yaşayıb?

**Turan Cavid**: 20-37-ci illərdə.

**Heydər Əliyev**: Burada yaşayış olub?

**Turan Cavid**: II mərtəbədə dərslər keçirilib, III mərtəbə isə müəllimlərə verilib. Hüseyn Cavidə sağ tərəfdəki otaqlar verilib, baş tərəfdə seminariyanın müdiri Pənah Qasımov yaşayıb. Həyətdəki evdə digər müəllimlər – Cəmo Cəbrayılzadə, Şəfiqə Əfəndiyeva, Sahib Xəlil və s. Tələbələrə yaxın olmaqdan ötrü müdiriyyət və müəllimlər

burada yerləşdirilib. Bu bina düz 100 il bundan əvvəl, Bakı milyonçusu Zeynalabdin Tağıyevin sifarişi ilə məxsusi qız məktəbi üçün inşa edilib. 1920-29-cu illərdə də məktəb kimi fəaliyyət göstərib. 1929-cu ildən məktəb fəaliyyət göstərməsə də, biz 1937-ci ilə kimi burada yaşamışıq. Bir dəfə bizə Sultan Məcid Qənizadə dedi ki, gəlin, sizə ev verək. Çünki 1929-37-ci illərdə artıq burada bizdən başqa yaşayan yox idi. Bizim otaqlardan başqa digər otaqlar idarə kimi fəaliyyət göstərirdi. Hər dəfə deyirdilər Cavid əfəndi, gəl, ev verək sizə, deyirdi ki, yox, mən rahatam ki, mənim yazılarımı burada qoruyursuz. Aşağıda polis dayanırdı. Biz bura vəsiqə ilə çıxırdıq. 1937-ci ildə atam həbs olunandan sonra biz cəmi 4 ay yaşadıq burda. Sonra köçürüldük."

Əlbəttə, Turan xanımın "köçürüldük" ifadəsi cavidlərə qarşı kommunist rejiminin yol verdiyi zülm və zorakılığı bütün aydınlığı ilə ifadə etmirdi. Məhz buna görə də, o illərdəki hadisələrin mahiyyətinə dərindən bələd olan Ümummilli lider Turan Cavidin ifadəsinə bir növ düzəliş verməyə məcbur olur. Söhbətin davamını izləyək:

"**Heydər Əliyev**: Çıxartdılar sizi buradan?

**Turan Cavid**: Düz 65 il bundan əvvəl sentyabrın 28-də (Ulu Öndərlə Turan Cavidin söhbəti





2002-ci ildə baş verib – G.B.) biz çıxarıldıq buradan. Bizə keçmiş Sovetski küçəsində ev verdilər."

Turan xanımla səmimi söhbətində Heydər Əliyev cavidlərin başqa bir nümayəndəsi – Mişkinaz Cavidlə tanışlığı haqqında da maraqlı məlumat vermiş, hər şeydən öncə isə onu öz anası ilə müqayisə etmişdir. Bu qiymətli məlumatı Turan Cavidə verən Heydər Əliyev deyir:

"**Heydər Əliyev**: Mən sizin ananızı görmüşdüm. Mənim anam xəstə idi. İndiki Cavadzadənin klinikası – Leçkomissiyada müalicə olunurdu. Orda yan-yana otaqda mənim anam ilə birlikdə Mişkinaz xanım da müalicə olunurdu. Təxminən reabilitasiya vaxtında, 50-ci illər. Mən anamın yanına gedib-gəlirdim. Təbii ki, anam Mişkinaz xanım ilə əvvəllər tanış deyildi. Orda tanış olmuşdular. Mən də bir dəfə anamın yanına gedəndə onu görmüşdüm.

**Turan Cavid**: Az olur ki, insanın zahiri də gözəl olsun, daxili də. Mən anam olduğu üçün demirəm. Bunu görənlər də deyirdi.

**Heydər Əliyev**: Elədir, gözəl qadındı, çünki elə mən o vaxtlar da görəndə gözəl idi."

Aydın məsələdir ki, bütün övladlar üçün anaları dünyanın ən gözəl məxluqlarıdır; necə ki, bü-

tün analar da öz övladlarından daha gözəl bir yaradıq olduğunu təsəvvürlərinə belə gətirməzlər. Ancaq "hüsni-xuda" şairi olan, "Tanrısını gözəllik və sevgi" elan edən Hüseyn Cavidin sevib-seçdiyi, bəyəndiyi qadın elə Mişkinaz xanım kimi həm zahirən, həm də içdən gözəl olmalı idi və bu baxımdan istər Turan xanımın, istərsə də Ulu Öndərin Mişkinaz xanım haqqındakı məhəbbət dolu tərifli sözlərində zərrə qədər də mübaliğə yoxdur.

Təbii ki, Heydər Əliyevlə Turan Cavidin söhbətinin əsas mövzusu dahi Hüseyn Cavid olmuşdur və onlar söhbətin ayrı-ayrı məqamlarında yenə də sözü bu dahi şəxsiyyətin üzərinə gətirmişlər. Heydər Əliyevin cavidlər qarşısında ən böyük xidmətlərindən biri də Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən gətirilməsi olmuşdur və təbii ki, söhbət bura çatanda hər iki müsahib qürur və minnətdarlıq duyğularını gizləyə bilməmişdilər. Yenə də müsahibəyə qayıdaq:

"**Turan Cavid**: Muzeyimizin guşələrinin birində Hüseyn Cavidin cənazəsinin İrkutskdan çıxarılarkən çəkilmiş fotoşəkillər nümayiş olunur.

**Heydər Əliyev**: Bu qərarı biz imzalamışdıq.

**Turan Cavid**: Bəli. 1982-ci il oktyabrın 21-də Sibirdə onun qəbrini tapıb, 100 yaşına görə 100 atəş açırlar və cənazəni çıxarırlar. Əlbəttə, Siz də





çox müdrik qərar verdiniz ki, cənazə əvvəl Şirvanşahlara gətirilsin. Sonra da bu binada qoyulub, buradan Naxçıvana aparılsın.

**Heydər Əliyev**: İndi 20 il vaxt keçir üstündən. Xatırlayırıq Şirvanşahlar sarayına gətirilməsini."

Cavidin Sibirdən gətirilməsi mövzusunda söz-sözü çəkir və bu iki böyük nəsil şəcərəsi arasında daha yeni, maraqlı bağlantılar üzə çıxır. Bunlardan biri də, əlbəttə, Hüseyn Cavidin böyük qardaşı Şeyx Məhəmmədin vaxtilə orta məktəbdə Heydər Əliyevin müəllimi olması faktıdır. Turan xanım əmisinin adını çəkəndə Ulu Öndər bildirir ki, Şeyx Məhəmməd ona Azərbaycan dili və ədəbiyyatdan dərs deyib:

"**Turan Cavid**: Siz təsəvvür eləyin ki, biz çıxdıq aeroportdan. Maşında Zakir Bağırov idi, Məmməd Cəfər idi, Abbas Zamanov, bir də mən. İndi maşınla gəlirik, mən də bilmirəm hara gedəcəyik. Gəldik-gəldik Qız Qalasını da keçdik. Çox yaxşı bir iş gördülər ki, Qız Qalasına Bakı Soveti tərəfdən yox, fırlandılar bu evin qarşısından keçdilər. Onda mən başa düşdüm ki, Şirvanşahlara gedirik. Amma yol o tərəfdən qısadır. Dedim, Zakir müəllim, bilərəkdən bu evin qarşısından keçdiniz? Dedi hə. Qoy birinci evinin qapısından keçsin və noyabrın 1-nə qədər Şirvanşahlarda

saxladılar. Noyabrın 2-də bura – Əlyazmalar İnstitutuna gətirdilər. Burda da bir gecə zalda qaldı. Bir gecə də Naxçıvanda gənclik illərində yaşadığı evində qaldı. Hansı ki, o evdə sonralar böyük qardaşı Şeyx Məhəmməd yaşamışdır.

**Heydər Əliyev**: Bəli, mən onu tanıyıram, müəllimim olub."

Ulu Öndərin hüzurunda sanki bir növ ürəklənən, ilhamlanan Turan Cavid atasının həyat və yaradıcılığı haqqında qiymətli tarixi-ədəbi informasiyanı dilə gətirmişdir. Bunun özü də dolayısı yolla Heydər Əliyevin Hüseyn Cavid irsinə və şəxsiyyətinə böyük məhəbbətinin sübutu kimi nəzərə çarpır. Belə bir böyük məhəbbət olmasaydı, dövlət başçısı ilə ziyalı xanım arasında da bu cür səmimi ürək söhbəti baş tutmazdı. Heydər Əliyevlə dialoqundan necə deyərlər, "balü pəri açılan", çoxdan arzuladığı əziz bir adamını görmüş kimi qol-qanad açan Turan xanım Hüseyn Cavid haqqında cavidşünaslıq üçün böyük önəm daşıyan informasiyanı ortaya qoymuşdur:

"**Turan Cavid**: Bəli. Bilirəm. Babam o evdə az yaşayıb, gənclik illərini yaşayıb orda. Sonra İstanbula getdi, qayıdandan sonra isə Bakı-Tiflis-Gəncə. Mən həmişə deyirəm ki, sonda həqiqət yerini alır. Başqa cür qeyri-mümkündür. Əgər





haqlıdırsa, bir adam haqqını alacaq. Ürək ağrıdan bir hal odur ki, ordan - sürgündən bizə məktub göndərirdi, nə istədiyi bizə məlum olmurdu, çünki məktubun yarısını əl ilə kəsib götürürdülər, bu vəziyyətdə bizə gəlib çıxırdı (yarımçıq məktublardan Prezidentə göstərir), burda yazdıqları rus dilində, ordan yazdıqları ərəb əlifbası ilə idi. Həbs olunan gecəsində tərtib olunan axtarış protokolunda yazılıb ki, bir zənbil əlyazısı aparılıb. Bir-bir yazılmayıb. Axtarışa gələnlər azərbaycanlı deyildilər, rus idilər. Onlar necə biləcəkdilər ki, orda yazılanlar nədir və eləcə də 115 kitab, 23 fotoşəkil. Halbuki belə olmamalıdır. O, bir-bir yazılmalıdır. Onlar oxuya bilmirdilər. Heç olmasa hərəsindən bir nüsxə saxlanılsaydı. "Atilla", "İblisin ilhamı", "Çingiz", "Şəhla", "Telli saz" aparılan əsərlərdəndir.

**Heydər Əliyev**: Onlar indi yoxdur?

**Turan Cavid**: Xeyr, yoxdur. Özü də hamısı tarixi əsərlərdir. "Xəyyam"dan sonra yazılıb. Hamısı makina çapı şəklindəymiş."

Deyirlər, əlyazmalar yanmır. Ancaq nə yazıq ki, Turan xanımın adlarını çəkdiyi bu qiymətli Cavid əlyazmaları kommunizmin KQB tonqallarında bir daha geri dönməmək üçün yandırılaraq, yoxa çıxıblar və maraqlıdır ki, bu faktın özünü də

böyük ürək ağrısı ilə Heydər Əliyev etiraf etməli olur. Turan Cavid atasının həbsindən və sürgünündən sonra da onun əleyhinə çıxışların olduğunu, böyük şairə müxtəlif uydurma damğaların vurulduğunu deyəndə, Heydər Əliyev özünəməxsus müdrıkliklə aşağıdakı cavabı verir:

"**Heydər Əliyev**: (İstehza ilə) Alman-yapon ştampım vurublar. Onda da yapon təzə çıxmışdı."

Heydər Əliyevlə Turan Cavidin söhbətində hər iki müsahibin xarakterindəki obyektivliyi parlaq şəkildə göstərən epizodlar da az deyildir. Belə ki, Hüseyn Cavidin düşmənlərindən şikayətlənən Turan xanım onun dostlarına – Üzeyir bəyə, Əzız Əliyevə, Cəfər Cəfərova, repressiya olunmuş şairin ailəsinə göstərdikləri qayğı və diqqətə görə minnətdarlığını da unutmur və bu məqamda cavidlərlə əliyevlərin tarixi taleyinin kəsişdiyi daha bir məqam üzə çıxır. Məlum olur ki, Turan Cavid Heydər Əliyevin ömür-gün yoldaşı, bu fani dünyanı vaxtsız tərk etmiş görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanı və onun atası, Azərbaycanın böyük ictimai-siyasi xadimi, vətənpərvər ziyalısı Əziz Əliyevi, Zərifə xanımın bacısı, görkəmli ziyalı, istedadlı musiqiçi Gülarə Əliyevanı da tanıyırmış. Bu isə özlüyündə Heydər Əliyevlə cavidlərin növbəti möhkəm bağı kimi nəzə-





rə çarpır:

"**Turan Cavid**: Onda şərəf bilirdilər kimsə-kimsəni ifşa eləsin. Şərəf bilirdilər. Qardaşım Ərtoğrol əsgərliyə gedəndən sonra məktub yazmışdı Üzeyir bəyə. "Mən əsgərliyə gedirəm, görüşə bilmədim. Bacıma işə düzəlməkdə kömək edin". Birinci işi mənə Üzeyir bəy düzəltdi. Zəng elədi radio komitetə. Sonra institutu qurtardım. İkinci xeyirxah Əziz Əliyevdir. Onun göstərişi ilə mənə institutda dərs verdilər. Dərs qurtardı, 52-ci il gəldi. Üçüncü Cəfər Cəfərov mənə işə düzəlməkdə kömək etdi. Hər dəfə mən bu üç şəxsi xatırlayıram. Cavid ocağını, demək olar ki, yaşadanlardır. Mən həmişə təəssüf edirəm ki, Əziz Əliyevi görə bilmədim.

**Heydər Əliyev**: Əziz Əliyevi görmədin?

**Turan Cavid**: Mən Əziz Əliyevi tanıyırdım. Birinci kitabı reabilitasiyadan sonra, çıxanda avtoqrafnan mən Əziz Əliyevə göndərdim - Gülarənin vasitəsi ilə. Mən Gülarə ilə tanış idim.

**Heydər Əliyev**: Yadımdadı, Gülarə də, Zərifə də sizin haqqınızda çox danışırdılar. Çünki Gülarə ilə bir institutda işləyirdiniz.

**Turan Cavid**: Bəli, bir mərtəbədə. Hər gün görüşürdük."

Beləcə söz-sözü çəkir və Heydər Əliyev Hü-

seyn Cavidin istedadlı oğlu, sənətin müxtəlif sahələrində böyük ümidlər verən, ancaq nə yazıq ki, taleyin amansız çarxı altında vaxtsız-vədəsiz saralıb-solmuş Ərtoğrol Cavidi hələ Naxçıvanda olarkən, müharibə dövründən tanıdığını etiraf edir:

"**Heydər Əliyev**: Zərifə xanım da çox maraqlanırdı sizin ilə. Mənə həmişə sənin haqqında danışırdı. Mən sənin qardaşını da görmüşdüm. Bir dəfə 1942-ci il idi. Naxçıvanda idim. Dedilər ki, Hüseyn Cavidin oğlu burdadır. Onda onu əsgərlikdən buraxmışdılar Naxçıvana. Bir dəfə küçədə gedəndə onu mənə göstərdilər. Əsgər geyimində idi, üzü çox solmuş, amma sifəti çox gözəl bir oğlan idi. Ondan sonra xəbərim olmadı düzü ondan.

**Turan Cavid**: Anama oxşayırdı gözəllikdə. Vəfat edəndə ən yaxın qohumlardan başqa heç kəs dəfnə gəlmədi.

**Heydər Əliyev**: Nə vaxt vəfat edib, mənim ondan xəbərim yoxdur. Çünki mən onda bir iş sahibi deyildim."

1942-ci ildə 19 yaşlı bir yeniyetmə ikən, özünün dediyi kimi, hələ elə bir yüksək məqam tutmadığı bir vaxtda, Hüseyn Cavidin xəstə oğlu ilə maraqlanması və kim bilir, bəlkə də ona yardım göstərə bilmədiyi üçün təəssüflənməsi də bu dahi





azərbaycanlının, Ulu Öndərimizin böyük Cavid sevgisindən, Azərbaycan xalqı qarşısında xidmətləri olan hər bir şəxsiyyətə münasibətdə qədirşünaslığından xəbər verir.

Ancaq doğrudan da, dünyanın səbri nə qədər böyük imiş və haqq-ədalətin öz yerini tutması, cavidlərə layiq olduqları qiymətin verilməsi üçün altmış ilə yaxın bir dövr keçməli, qocaman çərxifələk öz çevrəsini başa vurmalı imiş. Dünya ilə birgə Turan xanımın da səbri nə qədər böyük imiş və titanik bir səbrlə gözlədiyi günün gəlib çatmasını da titanik bir təntənə ilə qeyd edirdi Turan Cavid:

"**Turan Cavid**: Onda qorxurdular. Amma indi Naxçıvanda ən gözəl məqbərə onlarınkıdır. Taleyin işi belədir. Hüseyn Cavid öz əliylə kitabların birində doğum tarixini yazıb. Öz doğum tarixini, anamınkını yazıb, anamın doğum günü və ayı məlum olmadığına görə boş qoyub və uşaqların doğum tarixini yazıb. Hətta məndən əvvəl bir uşaq olub qalmayıb. Onun da tarixini yazıb.

**Heydər Əliyev**: Sən 2-ci uşaqsan?

**Turan Cavid**: Xeyr, mən 3-cü uşağam. Hərdən fikirləşirəm ki, bu 2-ci mənim dözdüyümə dözməyəcəkdi, ona görə də Allah onu götürüb ki, 3-cü uşaq da olsun."

Müsahibinə münasibətdə ən incə detalları belə nəzərdən qaçırmayan Heydər Əliyev, təbii ki, cavidlərin doğum tarixlərinin yazıldığı kitabın hansı kitab olması ilə də maraqlanmalıydı və Ulu Öndər bu sualı da Turan xanıma verir:

"**Heydər Əliyev**: Bu tarixlər yazılan kitab nə kitabdır?

**Turan Cavid**: "Qamusi-türki". Hüseyn Cavidin 115 kitabı olub. Çox qəribədir ki, bunlar hamısı İstanbulda nəşr edilmiş kitablardır – Yunan tarixi, təbabətə aid, astronomiyaya aid."

Çox maraqlıdır ki, Ümummilli liderlə Turan Cavidin səmimi söhbətı sanki iki nəfər arasında deyil, üç nəfər arasında baş verir; bu üçüncü, daha doğrusu, birinci müsahib də şübhəsiz ki, böyük Hüseyn Cavidin özüdür. Çünki söhbət hara dönüb-dolansa da, yenə Cavidin üzərinə gəlir, həm Ulu öndər, həm də Cavid qızı Turan sanki hər dəfə onun adını çəkməkdən, qədir-qiymətini verməkdən yorulmurlar. Elə aşağıdakı dialoqda da bunun bariz əksini görmək olar:

"**Heydər Əliyev**: Hüseyn Cavid çox faciəli həyat keçirdi. Yəqin, onun xoşbəxtliyi onda idi ki, sən var idin. Sən yaşamasaydın bunları bir yerə kim yığacaqdı? Vəfalı övlad həmişə ata-ana üçün böyük nemətdir. Sən varsan, bunu yaratmısan.





Allah bu əzab-əziyyətin müqabilində səni saxlayıb ki, sən bu irsi yaşadasan."

"Vəfalı övlad" – yəqin ki, Turan xanımın bütün bu uzun onilliklər boyu çəkdiyi əzab-əziyyətə ən böyük qiyməti məhz bu iki sadə sözün köməyilə vermək olardı ki, burada da Heydər Əliyev öz təkraredilməz dili və üslubu ilə həmin qiyməti verməyə nail olub. Söhbəti yenə də rahatca Hüseyn Cavid yaradıcılığı üzərinə gətirən Ümummilli lider yenə də öz heyrətamiz intellektual ümumiləşdirmə qabiliyyətini bir daha nümayiş etdirmişdir. Buradan məlum olur ki, Heydər Əliyev istedadlı bir dövlət xadimi kimi ədəbi əsərlər arasında tarixi mövzulu əsərlərə nə qədər yüksək önəm verirmiş. Bu, bir yandan da Ümummilli liderin ədəbi-bədii zövqü, eləcə də, hər hansı əsərin cəmiyyətin inkişafında oynadığı rola verdiyi qiymət haqqında təsəvvür yaratmağa xidmət edir:

"Turan xanım, Hüseyn Cavid bu qədər məşhur əsərlər yazıb, onların da demək olar hamısı tarixi əsərlərdir. O, elə bir əsər yazmayıb ki, kimsə-kimsəynən orada sevişdi, yaxud da ki, sevişmədi getdi. Hamısı tarixi əsərlərdir, tarixi dəqiqlik var bunlarda. Tarixi fantaziya deyil bu. Bir belə tarixi, bir belə şeyləri o hardan bilirdi. O axı bir o qədər də çox yaşamayıbdır. Düzdü, sən də uşaq

olmusan, amma sən yeganə adamsan ki, onu hamıdan yaxşı tanıyırsan.

**Turan Cavid**: Mütaliəsi son dərəcə güclü olub. Özü də İstanbula gedəndə. Müəllimləri də gözəl olub. Çox mütaliə edirdi, bir o qədər firavan yaşamasa da, bütün pulunu kitablara verirdi."

Hüseyn Cavidin təkcə bir dahi sənətkar kimi deyil, həm də fövqəladə bir şəxsiyyət kimi xarakterizə edildiyi bu söhbətdə böyük şairin siyasi hadisələrdən heyrətamiz şəkildə baş çıxarması, qlobal hadisələr barədə öncədən düzgün proqnozlar verməsi də yada salınır. Bu baxımdan Turan xanımın Ulu öndərə verdiyi məlumatlar da böyük maraq doğurur. Doğma və yaxın adam kimi, inam və etibar göstərdiyi Ümummilli liderə üz tutan Turan Cavid yenə də xatirələrini dilə gətirir:

"Təsəvvür ediniz ki, 1941-ci ildə son məktubunu 27 mayda yazdı. Ondan bir ay sonra müharibə başladı. Onun yanından gələnlər deyir ki, Cavid deyir ki, müharibə 4-5 il çəkəcək və Sovet İttifaqı qalib gələcək. Çox uzaqgörən adam idi. O, proqnozu heç vaxt səhv etməyib."

Turan xanımı yalnız o təəssüfləndirir ki, qlobal hadisələr barədə çox düzgün proqnoz verən bu dahi öz şəxsi taleyi barədə eyni öncəgörümü edə bilməyib:





"Amma məni çox təəssüfləndirir ki, bu cür uzağı görən adam özündən əvvəl həbslər başlananda özü də deyirdi mənim əsərlərim göz qabağındadır. Onlar məni nə üçün həbs etməlidirlər."

Ancaq o da var ki, atalar nahaq yerə deməyiblər: "Çıraq öz dibinə işıq salmaz" və dahi Hüseyn Cavidi də, xalqın və vətənin taleyi, insanlığın taleyi öz taleyindən daha artıq narahat etdiyindən, intellekt və intuisiyasının gücünü də məhz bu yöndə sərf etməsi təəccüb doğurmamalıdır.

Söhbətdə hər iki tərəfin təəssüfünə səbəb olan cəhətlərdən biri də Hüseyn Cavidin itmiş əsərlərinin hələ də tapılıb üzə çıxarılmamasıdır. Əlbəttə, bu da cavidşünaslığın gələcəkdə aparacağı axtarışlar üçün zəngin material verməkdədir. Cavidın repressiya olunacağına qətiyyən inanmadığı üçün yazdığı əsərləri gizlətməməsi altmış ildən sonra da onun vəfalı qızını yandırır, bütün bunları haqlı olaraq, Azərbaycan ədəbiyyatının əvəzsiz itkisi kimi qələmə verir:

"Bir dənə də olsun əsərlərindən gizlədə bilmədi. Heç olmasa evdən çıxarardı.

**Heydər Əliyev**: Tapılmayan əsərləri də olub?

**Turan Cavid**: Hamısını apardılar. Heç birini də qaytarmadılar.

**Heydər Əliyev**: Bərpa olunanlar var axı.

**Turan Cavid**: Çap olunanlardır, bəlli olanlardır.

**Heydər Əliyev**: Əlyazmanı deyirsən?

**Turan Cavid**: Xeyr, yazıb bitirdiyi, çap olunmayan əsərlər - "Atilla", "Çingiz", "İblisin ilhamı", "Şəhla", "Telli saz" pyesləri, "Koroğlu" ssenarisi, heç birisi qalmayıb. Apardılar və mən bəraət alan kimi birinci məktubu yazdım təhlükəsizlik orqanına ki, atamın xəttini bilirəm, mənə şəra-it yaratsınlar ki, sizin işçiynən arxivdə yazıları araşdırım. Ərəb əlifbasını da özü mənə öyrətmişdi. Elə bil bilirdi ki, mənə lazım olacaq. Mən 4-cü sinifdə oxuyanda yayda bağda mənə ərəb əlifbasını öyrətmişdi. Bir azdan məni çağırıb dedilər ki, heç bir şey qalmayıb. Bununla qurtardı. Amma mən isə ümidimi üzmədim. "Telli saz"la "Şəhla" evdən çıxıb. Tamaşaya qoymaq istəyirdilər. Nə isə yarımçıq qalıb. Yeganə "Xəyyam"ı İrəvan teatrından Şahzavallı adlı bir aktyor var idi, o mənə verib. Yoxsa "Xəyyam" itmişdi, çap olunmamışdı. Axı "Xəyyam" əsərini 1935-ci ildə Şura hökumətinin qurulmasının 15-ci ildönümü münasibətilə müsabiqəyə verib, əsər üçüncü mükafatı alıb. Həmin o mükafat alınan əsər kimi tamaşaya qoyulmalıydı, amma yarımçıq qaldı."

"Xəyyam" əsərinin 35 ildən sonra tapılıb bərpa





olunması xoşbəxt bir presedent kimi, Cavidin başqa itmiş əsərlərinin də tapılmasına həm Turan Caviddə, həm də çağdaş cavidşünaslıqda zəif də olsa, bir ümid qığılcımı doğurur. Ancaq kommunist rejiminin alovları da bu əsərlərdən əsər-əlamət qoymamaq üçün çox güclü idi və nə qədər ağır da olsa, Heydər Əliyev bu acı xəbəri Turan Cavidə - Hüseyn Cavidin kişi qızına çatdırmağı özünə borc bilir. Təsəllisi də o olur ki, Cavidin axı başqa əsərləri qalır və doğma xalqına, dövlətinə xidmətini davam etdirir. Xüsusən "Xəyyam" pyesini yüksək qiymətləndirən Heydər Əliyev əsər barədə bəlkə də yaxşı bildiyi bir sıra tarixi məlumatları da sanki Turan xanımın öz dilindən eşitmək istəyir:

"**Heydər Əliyev**: Deməк, "Xəyyam" o illərdə (1930-cu illərin ortalarını nəzərdə tutur – G.B.) tamaşaya qoyulmayıb?

**Turan Cavid**: Azərbaycan teatrında yeganə əsəridir ki, yazılması 1935-ci ildi, tamaşaya qoyulması 1970. 35 il keçib arasından.

**Heydər Əliyev**: Bu tamaşa Mehdi Məmmədovun quruluşunda qoyulub.

**Turan Cavid**: Yeganə onun quruluşunda qoyulub. Gözəl bir tamaşa idi.

**Heydər Əliyev**: Mən o tamaşaya baxmışam.

Amma mən elə bilirdim əvvəllər tamaşaya qoyulub. Deməк, ilk dəfə qoyulubmuş.

**Turan Cavid**: İlk dəfə Mehdi Məmmədov qoyub. O illərdə çap da olunmamışdı. Bir nəfər üzünü köçürüb. Öz xətti də deyildi. Sübut üçün mükafat alandan sonra qəzetdə parçalar verilmişdi, onlar tutuşduruldu. Bir əsər bax belə tapıldı."

Deyirlər, ümid ən sonda ölür. Turan xanım da ilahi bir qüvvəyə malik şəxsiyyət saydığı, yenilməz bir qüvvə kimi güvəndiyi Ulu Öndərin hüzurunda ümidini dilə gətirməklə sanki bir möcüzə gözləyir, yaxın adamının ölümünə inanmayan bir insan kimi inad göstərməkdə davam edir:

"Fikirləşirəm ki, bəlkə, o biri əsərlər də belə tapıla bilər. Təhlükəsizlik Nazirliyində qapalı yerlər ola bilsin ki, var.

**Heydər Əliyev**: Elə bir yer yoxdur.

**Turan Cavid**: Amma Siz bir dəfə yadımdadır ki, çıxışınızda dediniz ki, təzə gələndə işçilərdən biri deyib ki, o həyətdə Cavidin bütün əsərlərini yandırıblar.

**Heydər Əliyev**: Elədir. Mən təzə gəlmişdim Moskvadan, işləyirdim. Və mənə məlumat verdilər ki, Cavidin əsərlərini və Salman Mümtazın kitablarını qutulara töküb yandırmışdılar. Bu iş ilə məşğul olanlar, əsasən, ermənilər imiş. İndi Allaha şükür ki, qalan əsərləri də var."





Bu da maraq doğurur ki, təxminən eyni yaşda olmalarına baxmayaraq, Turan Cavid Heydər Əliyevə bir ata kimi yanaşır, ata əvəzi, Cavid əvəzi kimi baxır, istər dərdini, istərsə də sevincini səmimi bir ərklə onunla bölüşməkdən həzz alır, doğma bir insan kimi ona güvənir. Cavid əsərlərinin ilk örnəklərinin ədibin özünün yazdığı kimi, imlasına və üslubuna toxunmadan, əlyazmasında olduğu kimi çap edilməsi Turan xanımı nə qədər sevindirirsə, bu məlumatı Ulu Öndərə verməsi və həmin kitabı hədiyyə etməsi Cavid qızının sevincini on qat artırır. Gəlin, bu sevinci onun öz dilindən duyaq:

"**Turan Cavid**: İndi mən sizə bir kitab təqdim eləyəcəm. Çox sevindim, nəhayət ki, Cavidin öz qələmindən çıxan bir tərzdə onun əsərləri nəşr olundu, mən özüm işlədim. O üç əsəri "Turan" adlı nəşriyyat buraxıb. Burada "Bahar şəbnəmləri"ndəki şeirlər, "İblis" və "Peyğəmbər" pyesləri necə yazmışdısa elə verilib."

Hüseyn Cavidin de-yure və de-fakto reabilitasiyası, onun cismən vətənə dönməsi də söhbətin aparıcı motivləri sırasında olmalı idi və sonrakı dialoqdan bunun elə belə də olduğunu görürük:

"**Turan Cavid**: Elə şeylər var ki, danışmaq da

artıqdır. Bilirsiz, bu, çox yüksək bir işdir. Xatırlayıram rəhmətlik Mirvari Dilbazinin şeirini: "Sağ olsun Cavidi vətənə gətirən oğul" deyir. Görünür ki, Allah insanları yer üzünə göndərəndə hər kəsi öz missiyasına görə göndərir. Kimsə nə isə eləməlidir.

Bu adam bu işi görməlidir. Məndə, həqiqətən, bir inam var ki, bir işi başlayan adam mütləq onu sona çatdırmalıdır. Məsələn, bəziləri deyirdilər ki, buranın alınması mümkün deyil. Deyirəm mümkün olmayan şey həyatda yoxdur. O, bir ölümdür ki, insanlar acizdir. Qalan hər bir şey insan iradəsindən, insan qeyrətindən asılıdır. İnsanlar hər işi gərək ürəynən etsinlər. Əlbəttə, buranı mən özüm üçün eləmirəm ki, istəyirəm ki, sonrakı nəsillər qiymət versinlər ki, onlar necə adamdılar.

**Heydər Əliyev**: 20 il bundan öncə bir sərəncam imzalamışdım, Cavidin 100 illik yubileyi ilə əlaqədar.

**Turan Cavid**: O, çox qeyri-adi bir hadisə idi.

**Heydər Əliyev**: Sonra fikirləşdim ki, dünya qəribə bir dünyadır. 20 il bundan öncə başladığım bu işi elə davam edəcəm. Cavidin həbs olunması, sürgün olunması, vəfat etməsi bu bir dövrdür. Vəfat etdi, getdi torpağa. Amma bundan sonra loru





dildə desək, yenidən dirilmə məsələsi - mənəvi cəhətdən onun reabilitasiyası var idi. Tam reabilitasiya olunmalı idi.

**Turan Cavid**: Mən həmişə deyirəm, 1956-cı ildə onlar cismani bəraət aldılar. Amma yenə də onlar haqqında yazmırdılar. Əsil bəraət 1982-ci ildə oldu."

Hüseyn Cavidin qaynaqlandığı torpaqda dəfn olunması problemi də Heydər Əliyevi öz torpağına, doğma ocağına bağlarını heç vaxt zəiflətməyən bir naxçıvanlı kimi, bütöv Azərbaycan sevgisini ürəyində daşıyan, azərbaycanlı olması ilə həmişə fəxr edən bir naxçıvanlı kimi xarakterizə edir. Axı, çıxdığın ocağı sevmədən bütöv vətəni necə sevmək olar? Vətən özü də məhz bir köz kimi başlanğıc götürdüyün həmin o müqəddəs ocaqdan, ata yurdundan qaynaqlanır:

"**Heydər Əliyev**: 1982-ci ildə bu adamın (Hüseyn Cavidin – G.B.) Sibirdən cənazəsinin gətirilməsi ilə nəticələndi. O dövr mənim yadımdadır, nə qədər çətinliklər var idi. Onun gedib gətirilməsi məsələsi nə qədər çətinliklər törədirdi. Bunu etdik. Artıq mənə xəbər verdilər ki, gətirirlər, indi mən müşavirə çağırıb qərar qəbul etməliydim ki, sonra nə etməli. Düzdür, qohumların çoxusu, sənin özün də deyirdin ki, Bakıda dəfn

olunsun. Yeganə bir adamıydım ki, mən onun Naxçıvanda dəfn olunmasını təklif etmişdim. Hətta yazıçılar belə onun Bakıda dəfn olunmasının tərəfdarıydılar. Mən dedim ki, Naxçıvanda dəfn olunması lazımdır. Amma nə üçün Naxçıvanda? Mən Naxçıvandakı qəbiristanlığı da tanıyıram. Naxçıvanda bir fəxri xiyaban da yoxdur. Amma Naxçıvan deyəndə mən düşünürdüm ki, şəhərin mərkəzində bir yerdə dəfn olunsun və məqbərə tikilsin. Və bunu mən başa salandan sonra bir çoxları razı oldu. Bəziləri yenə də deyirdilər, Bakı paytaxtdır, amma Naxçıvan da onun doğulduğu yerdir. Bir də ki, burada, Fəxri Xiyabanda Azərbaycanın böyük insanları çoxu yanyanadır. Amma orada, təəssüflər olsun ki, xırda insanlar da var. Layiq olmayanlar da var. Amma mən o vaxtlar dedim ki, mənim fikrim, mənim düşüncələrim tamamı başqa şeyləri nəzərdə tutur. Naxçıvanda yer də seçildi, yaşadığı evin yanında və böyük bir məqbərə də ucaldı. Mən belə bir tapşırığı vermişdim ki, bunu edin. Mən gedib qayıdana qədər bunu etməmişdilər. Mən Moskvada ağır vəziyyətdə qalanda bir çox şeylər düşünürdüm, onlardan biri də Cavid məqbərəsi idi. Qayıdıb gələndə ilk maraqlandığım bu oldu. Amma bu ərəfədə də mənim elə bir səlahiyyətim yox idi.





Naxçıvana adi vətəndaş kimi gəlmişdim. Sonra mən deputat seçildikdən sonra yenə də gəldim Naxçıvan rəhbərliyinə ki, bəs belə bir iş görmüşük, gəlin, bunu axıra çatdıraq. Amma o dövrdəki vəziyyətdə bunu etmək çətin idi. Mən özüm 1991-ci ildə Naxçıvana rəhbər seçildim. Bir-iki proyekt verildi və proyektlərin seçilməsi ilə məşğul olduq. Bu işlərin başa çatdırılması da asan olmadı. Taleyində, demək, bu olmalıymış.

**Turan Cavid**: Çox ağır taleyi var idi. Amma son nəticə yaxşıdır."

Hadisələrin sonrakı gedişi göstərdi ki, Heydər Əliyev öz qərarında nə qədər haqlı, nə qədər uzaqgörən imiş və Cavidın bir sənətkar, bir şəxsiyyət kimi təkraredilməzliyinə onun məqbərəsinin də təkraredilməzliyini əlavə etməsi baxımından nə qədər humanist və kövrək romantik bir qərar çıxarıbmış. Əlbəttə, Hüseyn Cavidin Naxçıvanda dəfn edilməsi ilə onun məzarı üzərində məqbərə ucaldılması arasında möhkəm bir bağlılıq var və məqbərə məsələsini ortaya atarkən Ümummilli lider məhz bunun Naxçıvanda ucaldılmasını nəzərdə tuturdu. Axı, Bakıdakı Fəxri Xiyabanda heç bir məzarın üzərində məqbərə yoxdur və yalnız müxtəlif formatlarda heykəllər, sinə başdaşıları ucalır. Hüseyn Cavidi çox böyük

şəxsiyyət sayan, bu baxımdan onu dahi Nizami ilə müqayisə edən Heydər Əliyev, Nizaminin öz ana yurdu Gəncədə məqbərəsinin olduğu kimi, Cavidin də öz ana yurdu Naxçıvanda məqbərəsinin olmasını vacib sayırdı. Ancaq Nizamidən fərqli olaraq, Hüseyn Cavidin məqbərəsi həm də bir ailə panteonu kimi nəzərdə tutulmuşdu və Heydər Əliyev bu baxımdan da məqbərənin unikallığını məmnuniyyətlə diqqətə çatdıraraq, deyir:

"Həqiqətən, ağır taleyi var. Amma gör necə sonu oldu. Azərbaycanda elə ikinci bir şəxs yoxdur, onun sevimli həyat yoldaşı və oğlu bir məqbərədə dəfn olunsun."

Turan xanımın cavabında nisgil qarışıq bir sevinci də duymamaq olmur ki, həyatın bərkindən-boşundan çıxmış, ağrı-acısını çəkmiş, hər üzünü görmüş ahıl bir qadın kimi onun özü də doğmaları ilə bir yerdə əbədi həyata qovuşmaq arzusundadır və nə yaxşı ki, Heydər Əliyev dühasının bərpa etdiyi tarixi ədalət onun bu arzusunu da gözündə qoymadı.

"**Turan Cavid**: Bir şeyə həmişə inanıram ki, nə isə gecikəndə çox uğurlu səbəbə görə gecikir. Vaxtilə olsaydı, yəqin ki, belə olmayacaqdı. Demək ki, bu mütləq gecikməliydi. Azərbaycanda





Sizdən başqa heç kim bunların üçünün bir yerdə dəfn olunmağına icazə verməyəcəkdi. Bu mənim üçün çox böyük bir ağrı idi. Gətirmə ərəfəsində istədiyim o idi ki, qardaşımı da bura - Bakıya gətirim, anam burdadır. Elə ki atam gətirildi, mən dayandım, fikirləşdim ki, hara gətirmək olar. Elə də oldu ki, bunlar, doğrudan da, birləşdilər yenidən. Artıq mən sentyabrda anamın cənazəsini Naxçıvana aparıb atamın yanında dəfn etdim. O dəqiqə mən çox rahatlandım, onlar üçü də birlikdədirlər. Birləşdirə bildim onları. Siz olmasaydınız bu iş baş tutmazdı. Mən həmişə minnətdaram Sizə və başqaları da qiymətləndirirlər bunu.

**Heydər Əliyev**: Allah rəhmət eləsin Hüseyn Cavidə. Allah Mişkinaz xanıma da rəhmət eləsin, Ərtoğrola da. Biz nə mümkündür etmişik. Xatirəsini əbədiləşdirmişik.

**Turan Cavid**: Mən əminəm ki, onların ruhları burdadır. 17 il burada çox xoş gün keçirtdilər."

Sonda Ümummilli liderin Hüseyn Cavidin Ev Muzeyinin açılması münasibətilə Turan Cavidi təbrik etməsi, əslində elə həm də onun öz-özünü təbrik etməsi kimi səslənir və Ulu öndərin əsasını qoyduğu vətənşümul işlərin bundan sonra da onun varisi tərəfindən daha yüksək səviyyədə davam etdiriləcəyinə heç bir şübhə yeri qoymur:

"**Heydər Əliyev**: Mən təbrik edirəm ki, Ev Muzeyi açıldı. Maraqlanan insanlar gəlsinlər, baxsınlar, görsünlər. Onlar bizim xalqımızın, millətimizin tarixidir və bu tarix ilə insanlar tanış olsunlar. Tariximizi insanlara, daima gənc nəslə anlatmaq, bildirmək, öyrətmək lazımdır. Tarixini bilməyən insan öz xalqına, öz millətinə sədaqətlə xidmət edə bilməz və həqiqi millət ola bilməz. Həqiqi insan da ola bilməz. Ona görə də biz Azərbaycanda belə muzeylər yaradarkən tariximizin ayrı-ayrı hissələrini bugünkü nəsillərə, gələcək nəsillərə göstərmək istəyirik. Bu da onun bir gözəl nümunəsidir. Allah xeyirli eləsin."

***

Amansız taleyin əvvəlcə Cavid qızı kimi ərköyünləşdirdiyi, sonra isə tez bir zamanda qəddarlıqla küsdürdüyü Turan xanım, keçən əsrin 70-80-ci illərinə qədər, hətta sevimli babasının bəraət aldığı 50-ci illərin sonu, 60-cı illərdə də hadisələrə laqeyd bir ağayanalıq, ətrafındakı cılız insanlara yuxarıdan aşağı baxmaq kimi, təbii bir xasiyyət əldə etmişdi. O, inanmırdı ki, kommunist rejimi repressiyaya uğratdığı (və haqlı uğratdığı, çünki Cavid yaradıcılığı doğrudan da kommunist ideologiyası ilə daban-dabana ziddiyyət təşkil edirdi – G.B.) bir şəxsiyyəti yenidən layiq olduğu səviyyəyə ucalda və insanlıq qarşısındakı xidmətlərini obyektiv qiymətləndirə bilər. Yalnız Heydər Əliyevin hakimiyyətə gəlməsi və tez bir zamanda Cavid irsi ilə maraqlanaraq, bu irsə diqqət və qayğı göstərməsi Turan Cavidin şübhələrini dağıtdı, onillərdən bəri onda formalaşmış və bərkimiş laqeydlik buzlarını əridə bildi. Cavidlərə göstərilən hər bir diqqət, hər bir qayğı, əslində dövranın çox qaradinməz etdiyi Turan xanımı da dilə gətirdi və o, müəyyən qədər xəsisliklə olsa da, öz çıxış və nitqlərində, təşəkkür məktublarında Heydər Əliyevə babasına görə minnətdarlığını bildirməyə başladı.

Həmin məktublardan birinin mətnini bu kitabda verməzdən öncə, Turan xanımın Heydər Əliyevin qayğısı və köməyi ilə, necə deyərlər, diş-dırnaqla ərsəyə gətirdiyi çağdaş cavidşünaslığın taleyi haqqında narahatlıqla dolu bir müraciətinin mətnini örnək gətirməyi məqsədəuyğun saydıq:

"Son illərdə Hüseyn Cavid irsinin öyrənilməsi, təbliği, şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlər qəlbimdə dərin minnətdarlıq duyğuları oyadır. Övlad kimi məni ən çox sevindirən cəhətlərdən biri budur ki, artıq Bakıda

şairin adı ilə bağlı mərkəz var. Hörmətli prezidentimiz Cavid xatirəsinə hər kəsdən daha artıq diqqət və qayğı göstərən Heydər Əliyevin qətiyyəti sayəsində uzun illərdən bəri gözlənilən məqsəd həyata keçib – Elmlər Akademiyasında Hüseyn Cavidin ev muzeyi yaradılıb. Burada yalnız Cavidlə bağlı yadigarlar nümayiş etdirilmir, həm də onun həyat və yaradıcılığının ayrı-ayrı problemləri ətrafında elmi tədqiqat işləri aparılır.

Məni respublika ədəbi və elmi ictimaiyyətinə – Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin rəhbərliyinə, nəşriyyatlarımıza, elmi tədqiqat institutlarına, təhsil ocaqlarına, qəzet, jurnal redaksiyalarına, mədəniyyət müəssisələrinin başçılarına müraciət etməyə bir nigarançılıq vadar eləyir. Caviddə özü haqqında işıq üzü görən yazılara da, nəşr edilən əsərlərə də, pyeslərinin səhnələrdəki ifasına da çox vasvası münasibət vardı. O, şəxsiyyəti və yaratdıqları ilə bağlı buraxılan səhvlərə, təhriflərə, ciddi yaradıcılıq işinə qeyri-ciddi münasibətə görə çox narahat olurdu, belə halları qəlb incikliyi, əsəb gərginliyi ilə qarşılayırdı.

İndi vaxtaşırı mən eyni hissləri yaşamalı oluram. Sanki bir çoxları Cavid barədə yazmağa dəbdə olan mövzu kimi yanaşmağa başlayıb. Hətta Cavid mövzusu ətrafında ədəbi möhtəkirlik cəhdləri müşahidə edilir. Dərindən öyrənmədən, Cavid ruhunu duymadan, onun düşüncələr aləminə lazımınca daxil olmadan, ömründə roman yazmayan birisi Cavid haqqında roman ortaya qoyur, hələ bərkimənmiş, klassiklərdən yaza biləcək siqlət qazanmamış naşı qələmlərdən povestlər, hekayələr, məqalələr çıxır, dramaturgiyanın qayda-qanunlarından, əlifbasından bixəbərlər debütlərini Cavid haqqında pyeslərlə edirlər. Acınacaqlı cəhət isə budur ki, belə "əsərlər" efirə, mətbuata, səhnələrə, nəşriyyatlara çox asanlıqla yol tapa bilir.

Bu yaxınlarda televiziya ilə Nafilə adlı müəllifin Cavid haqqında yazısı əsasında hazırlanmış səhnələşdirmə nümayiş etdirildi və sonralar təkrar da olundu. İnandırıram sizi, bu qəbil səviyyəsiz "xidmətlərlə" Cavid ruhunu yalnız incitmək olar. Yaxud xəbər tuturuq ki, Cavid irsi ilə əlaqədar dissertasiya müdafiə olunub, yaxud pyes tamaşaya hazırlanır, yaxud da...

Mən varam və Elmlər Akademiyasının Hüseyn Cavidi peşəkarcasına araşdırıb təbliğ edən Cavid muzeyi var. Cavidlə əlaqədar iş görürlər, bizə xəbər vermirlər. Ola bilsin, hətta görülən iş uğurludur, amma bizə də irəlicədən göstərilsəydi,

hansısa məsləhətlərimizlə, təqdim etdiyimiz mənbələrlə, sənədlərlə bəlkə də onun daha yaxşı alınmasına yardımçı olardıq.

Artıq dərəcədə rica edirəm ki, Hüseyn Cavidin həyat və yaradıcılığı ilə əlaqədar yazılan əsərləri xalqa çatdırmazdan əvvəl – əgər belə demək mümkündürsə – ilkin ekspertizadan keçmək üçün Cavidin ev muzeyinə rəyə göndərin.

Mənim yeganə arzum budur ki, atam haqqında yalnız doğru, yanlışsız, təhrifsiz yazılmış əsərlər işıq üzü görsün".

Turan xanımın bu gün də, onun cismani yoxluğundan keçən müddət ərzində öz aktuallığını saxlayan bu narahatlığı təkcə Cavid irsinin araşdırıcılarına deyil, bütün Azərbaycan xalqına, ilk növbədə isə, əlbəttə ki, Hüseyn Cavid yaradıcılığının və şəxsiyyətinin böyük pərəstişkarı Ümummilli lider Heydər Əliyevə ünvanlanmışdı. Yalnız Heydər Əliyevin böyük məhəbbəti və mesenatlığı sayəsində Hüseyn Cavid irsini və ruhunu naşı qələmlərdən qorumaq, bazar iqtisadiyyatının zövqsüzlük girdabından xilas etmək mümkün idi. Eyni narahatlığı və böyük etimadı, etibarı, minnətdarlığı Turan Cavidin birbaşa Heydər Əliyevə ünvanladığı məktubunda da görmək mümkündür. Cavid qızı üzünü böyük cavidsevərə - Heydər





Əlirza oğluna tutaraq yazırdı:

"Möhtərəm cənab Prezident, hörmətli Heydər Əlirza oğlu!

Hüseyn Cavidin 120 illiyi ərəfəsində təkcə Cavid yaradıcılığına deyil, bütövlükdə milli mədəniyyətimizin taleyinə həssas münasibətinizə görə Sizə bir daha minnətdarlığımızı bildirirəm.

Siyasi tarixin Hüseyn Cavidlə bağlı buraxdığı səhvlərin, bir insanın taleyi fonunda bütöv mədəniyyətimizə vurduğu zərbələrin kədərli nəticələrini aradan qaldırmaq missiyasını Tanrı Sizə həvalə etdi. Siz Hüseyn Cavidin ən ləyaqətli mənəvi övladı olaraq, Cavidin özündən sonrakı tərcümeyi-halına əhəmiyyətli əlavələr etdiniz.

Hörmətli, Heydər Əlirza oğlu, bütün bunları etiraf etmək xoşdur. Lakin görülən işlərin miqyası o qədər geniş, Cavidlə bağlı həyata keçirdiyiniz xeyirxah və tarixi tədbirlərin məzmunu elə dərindir ki, bütün bunları bir məktubda ifadə etmək, təbii ki, mümkün deyil və mənə elə gəlir ki, bu, gələcəkdə cavidşünaslığın ayrıca tədqiqat sahəsindən biri olacaqdır. Sizə bir daha öz dərin ehtiramımı bildirirəm. Tanrı yardımçınız olsun!"

Bir cəhətə də diqqət yetirək ki, Turan xanım böyük vüqar duyğusu ilə, səmimi-qəlbdən Heydər Əliyevi "Cavidin ən ləyaqətli mənəvi övladı"

adlandırır və bununla da Ümummilli liderə "Cavid" soyadının fəxri daşıyıcısı statusunu vermiş olur. Bu o deməkdir ki, Turan Cavid Heydər Əliyevi həm də özünə böyük qardaş, doğma simsar hesab etmiş və bu münasibətində qətiyyən yanılmamışdır. Çünki Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldiyi ilk gündən əfsanəvi simurq quşu kimi qanadlarını bu ailənin üzərinə gərmiş, hər vasitə ilə onu yersiz və ədalətsiz hücumlardan qorumuşdur. Bu ailənin yeganə canlı nümayəndəsi Turan Cavid də taleyin bu hədiyyəsini minnətdarlıqla qarşılayaraq bir an belə şükranlığından geri durmamışdır. Başqa cür də ola bilməzdi. Böyük humanist sənətkar, filosof-şair Hüseyn Cavidin genlərini daşıyan, onun müdrik tərbiyəsini görən Turan xanım öz vəlinemətinə qarşı heç vaxt naşükürlük etməzdi.

***

Turan xanım uzun və səmərəli ömrü boyu atasının əsərlərinin əlyazmasında olduğu kimi nəşr edilməsinə çalışmış və bu yolda bir çox əzab-əziyyətlər çəkmişdir. Ancaq heyif ki, Sovet dövründə bəzi dırnaqarası "azərbaycansevərlər" həmişə buna mane olmuşlar. Yalnız Ümummilli lider Heydər Əliyevin işə qarışmasından sonra Turan Cavidin uzun onillər boyu sərf etdiyi əmək öz bəhrəsini vermiş və Cavidin əsərləri "imlasına dokunmadan" nəşr edilmişdir. Həmin nəşrin ön sözündən verdiyimiz aşağıdakı parça Turan Cavid sevinci və Ulu Öndərə minnətdarlıq kimi də qəbul edilə bilər:





"Cavid - yazdığı kimi

Qarşınızdakı kitab Hüseyn Cavidin növbəti olsa da müəllifinin yazdığı şəkildə, üslubu və leksikası, lüğət tərkibi qorunmaqla nəşr olunan ilk kitablarından biridir.

Bilirəm ki, kitabın mütaliəsi zamanı oxucu bir qədər çətinlik çəkəcək. Amma nə etməli? Əslində, böyük Cavid budur. Onun əsərlərinin lüğət tərkibini, dilini qorumaq, sadəcə Cavidin xatirinə deyil, ədəbiyyat və ədəbi dil tariximizin daha obyektiv öyrənilməsi naminə lazımdır. Cavid yazdığının və dilinin fədaisiydi. Onu təshih etmək və dilini sadələşdirmək cəhdləri Hüseyn Cavidin ümumtürk ədəbi dili naminə apardığı fədakar və yaradıcı mübarizəyə, yumşaq desəm, hörmətsizlikdir.

Dahi türkoloq Mehmet Fuad Köprülünün diqqətini cəlb edən Cavid türkcəsi, Mustafa Haqqı Türkəqulun etiraf etdiyi kimi Bakıdan-İstanbula,

Təbrizdən – Türkistana qədər böyük bir ərazidə anlaşılan bu dil, təkcə Cavid yaradıcılığının timsalında deyil, ümumilikdə XX yüzil türkologiyasından təzahür etmiş böyük hadisələrdən biriydi.

Bu kitabdakılar, bir daha təkrar edirəm, Cavidin öz yazdıqlarıdır, qələmindən necə çıxıbsa, elədir, özünün istədiyi kimidir. Çünki Hüseyn Cavid, əsərlərinin dilinə toxunmamağı dövrünün naşirlərindən, redaktorlarından israrla tələb edirdi.

Kitaba onun bədii irsini təşkil edən, Cavid yaradıcılığı barədə mükəmməl təsəvvür yarada biləcək nümunələr, külliyyatının az qala yarısı: "Bahar şəbnəmləri", "Azər", "Ana", "Şeyx Sənan", "İblis", "Peyğəmbər", "Topal Teymur", "Seyavuş" əsərləri daxil edilib.

Cavid irsinə təkcə dil baxımından deyil, bir sıra mənalarda müdaxilə edilmişdir. Təhriflərin miqyası təsəvvürə gəlməyəcək dərəcədə genişdir. Bu kitabda elmi-ədəbi ictimaiyyətə, oxucuya eləcə də cavidşünaslara məlum olmayan /şübhəsiz ki, Cavidin bir sənətkar və şəxsiyyət olaraq kimliyini dürüst ifadə edən/ və əvvəlki nəşrlərdə ya qəsdən redaktə edilmiş, ya da sadəcə olaraq yaşadığımız siyasi sistemin naqis meyarlarına müvafiq gəlmədiyi üçün ıxtisar edilmiş mətnlərə, parçalara rast gələcəksiniz. Çoxlu belə məqsədli redaktələrə Cavidin bütün əsərləri, o cümlədən "Azər" poeması məruz qalıb. Poemadakı "İnqılab xırsızı" hissəsi ilk dəfədir ki, bu kitabda nəşr olunur.





Əvvəlki nəşrlərlə müqayisələr aparılsa hər şey aydın olar. Bu isə artıq, tədqiqatçıların, yeni nəsil cavidşünasların vəzifəsidir..."

Onu da qeyd edək ki, Turan Cavidin cavidşünaslığa, Hüseyn Cavid irsinin nəşrinə göstərdiyi bu möhtəşəm xidmət, onun özünün dediyi kimi, hələ də tədqiqatçıların, yeni nəsil cavidşünasların yolunu gözləməkdədir. Ümidvarıq ki, Cavid aşiqı olan gənc araşdırıcılarımız onun, zamanın qəm naxışı vurduğu müdrik baxışlarını çox nigaran qoymayacaqlar...

***

Monoqrafiyada daha əvvəl də qeyd etdiyimiz kimi, Heydər Əliyevin Cavid yaradıcılığına olan məhəbbəti hələ yeniyetməlik dövründə başlamış və bütün ömrü boyu davam etmişdi. Biz bunları Ulu öndərin müvafiq çıxışlarına, müsahibələrinə, onun Hüseyn Cavid və cavidlər ailəsi ilə bağlı gördüyü işlərə, imzaladığı müxtəlif səpgili sənəd-

lərə, sərəncamlara, yazılara, eləcə də Turan Cavidin xatirələrinə istinadən deyə bilirik. Turan xanım Ulu öndərin Cavid şəxsiyyətinə və yaradıcılığına bəslədiyi səmimi hissləri, qayğı və hörməti, diqqəti ən yaxından hiss etmiş bir şəxs kimi, bu münasibətin ən qədirbilən mütəşəkkiri idi. Mövzu Hüseyn Cavid ikən, Turan xanımın sözünün əvvəli də, axırı da Ulu öndər Heydər Əliyevin bu böyük dahiyə sevgisinə söykənirdi.

Hüseyn Cavidin bəraəti, irsinin yaşaması uğrunda onların birgə mübarizəsinin, fəaliyyətinin az qala əsrin dörddə biri qədər yaşı vardı və bu zaman kəsiyində Turan xanımın Cavid namına atmış olduğu hər bir addım Heydər Əliyevin qədirbilən mədəniyyət siyasətindən və onların hər ikisinin nəhayətsiz Cavid sevgisindən güc alırdı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Cavidin nəşinin uzaq Sibirdən Vətənə qaytarılması, 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi, irsinin öyrənilməsi və yaşadılması uğrunda fəaliyyətə başladığı ilk illəri Turan Cavid öz xatirələrində belə yada salırdı: “1982-ci ilin oktyabr ayı həyatımın ən ağır, ən unudulmaz və ən təzadlı ayı olaraq qalmaqdadır... Bu ayın 24-də ailəmizin ən əziz, ən doğma adamının, atamın – Cavidin doğum gününün 100





ili tamam olurdu. Mən bu günü dünyasını dəyişmiş əzizlərimin də əvəzinə xüsusi həvəs və məhəbbətlə qeyd etməyə hazırlaşırdım.

1982-ci il oktyabr ayının 15-dən başlayaraq Naxçıvandan müntəzəm olaraq, müxtəlif şəxslər tərəfindən mənə zənglər çalınırdı. Söyləyirdilər ki, Naxçıvandan üç nəfər Sibirə – Cavidin cənazəsini gətirməyə getmişdir. Cənazə gətirilərək burda, Naxçıvanda dəfn olunacaq... Siz dəfnə gələcəksinizmi? Qəribədir... Gedənlər kimlərdir?.. Nə üçün məni də xəbərdar etməmişlər? Məgər mən də onlarla bərabər getməzdimmi? Suallarım cavabsız qalırdı. Zənglər isə davam edirdi...

Nəhayət, oktyabrın 26-sı! Keşməkeşli həyatımın unudulması, təsviri çox çətin günlərindən biri! Həyatım boyu gözlədiyim və həmişə də gözləyəcəyim atamın – Cavidin 45 illik ayrılıqdan sonra vətəni Azərbaycana gəldiyi gün!”

Hüseyn Cavidin Bakıdakı Ev-Muzeyinin arxivindən DK8548a saylı “Turan Cavidin söylədiklərindən” adlı bu xatirata nəzər yetirərkən Ulu öndərin Cavidlə bağlı qayğılarının, böyük xidmətlərinin ən incə məqamları belə, nəzərə çarpır. Həmin yazıda Turan xanımın ifadə etmək istədiyi hissləri tamlığı ilə anlamaq üçün Hüseyn Cavidin keşməkeşli həyat məqamlarını onun qızının dilin-

dən bir daha yada salmaq lazım gəlir: "Dəhşətli 37-ci ilin qurbanlarından olan, iyun ayında həbs olunaraq 8 il iş alan atam 2 il sonra, 1939-cu ilin iyulunda Sibirə sürgün edildi.

Ailənin nigaran, intizarlı günləri başladı. Sürgündən yazdığı 7 məktubun sonuncusunun tarixi 27 may 1941-ci ildir. Biz bu məktubu alarkən artıq müharibə başlamışdı. Atamı görə bilmək ümidini hələ itirməmişdik. Çox böyük ümidlərlə, arzularla məktublarını gözləyirdik. Müharibənin başlanmasından keçən müəyyən bir vaxtdan sonra məktubların arası tamam kəsildi. Son məktubun yazıldığı ünvana – Maqadana əvvəlcə onun özünə yazdıq, sonra isə onun taleyi haqqında məlumat almaq ümidilə rəsmi dairələrə müraciətlər etdik. Təəssüf ki, hamısı nəticəsiz qaldı."

Turan xanım bu yazıda Cavidsiz illərinə, adibin birinci bəraəti dövrünə, Hüseyn Cavidin cənazəsinin tapılıb Bakıya gətirilməsi ilə bağlı aparılan axtarışlara da ürək ağrısı ilə nəzər salır: "Çox qəribədir ki, bəraət alana qədərki müddətdə Cavidin sağlığı haqqında Sibirdə, Uzaq Şərqdə onu görənlərin söhbəti müntəzəm olaraq şəhərdə dolaşırdı.

1956-cı ildə – bəraətdən sonra isə artıq dəfn olunduğu yerin, çox müxtəlif, bir-birindən çox





uzaq məsafələrdə yerləşən şəhərlərdə olduğunu söyləyənlər də tapıldı. Hamısı da sözlərinin həqiqiliyini sübuta çalışır, müxtəlif təsvir vasitələrindən istifadə edirdilər, hətta dəfndə iştirak edənlər də tapılırdı. Bütün bunları dinləmək, bunlara inanmaq mümkünsüzdü.

Bəraət aldıqdan sonra sürgündən qayıtmış bir sıra şəxslər vardı ki, onlar rəsmi olaraq müəyyən təşkilatlara: Elmlər Akademiyasının prezidentinə, Yazıçılar İttifaqının katibinə müraciət edir, Cavidin dəfn olunduğu yeri bildiklərindən cənazənin gətirilməsi üçün imkan yaradılmasını xahiş edirdilər.

Bakı şəhəri Caparidze rayonunun VVAQ bürosunun 1948-ci il 4 may tarixində verdiyi ölüm haqqındakı şəhadətnamədə Hüseyn Cavidin 1941-ci il dekabrın 5-də ürək iflicindən vəfat etdiyi göstərilirdi, vəssalam! Dünyasını dəyişdiyi yer haqqında isə heç bir qeyd yox idi!

Ölüm şəhadətnaməsini anam yalnız 8 il keçdikdən sonra, 1956-cı il martın 6-da aldığımız rəsmi bəraət kağızından sonra mənə göstərdi. Görünür bu məşum kağızı mənə göstərib son ümidimi də qırmaq istəməmişdi.

Demək daha ümid etmək, gözləmək mənasızdı, hər şey bitmişdi. İndi bir məsələ bizi düşündü-

rürdü: harda dəfn olunmuşdur? Görəsən qəbrini tapmaq mümkün olarmı?..

H.Cavidin cənazəsinin tapılıb Bakıya gətirilməsi barədə üç dəfə təşəbbüs göstərilib: 1960-cı, 70-ci, 80-ci illərdə!

60-cı illərin əvvəllərində, atamın 80 illik yubileyi ərəfəsində Teatr Cəmiyyəti Cavidə ehtiram əlaməti olaraq, onun məzarının tapılıb Azərbaycana gətirilməsinə ilk təşəbbüs göstərdi. Lakin, repressiya xofunun hələ də var olduğu bir vaxtda bu təşəbbüsə dayaq duran olmadı. Və beləliklə Cavidin məzarının axtarılıb tapılması haqda gəzən ilk söz-söhbət tezliklə kəsildi.

Xeyirxah və qayğıkeş insan olan professor Abbas Zamanov Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində direktor işlədiyi illərdə, 1939-1940-cı illərdə Maqadanda Cavidlə birlikdə sürgündə olmuş fotoqraf Hacıbaba Hüseynovu tapdı. Onun sürgün həyatını, Cavidlə tanışlığını, Cavidin dəfn olunduğu yeri bütün təfərrüatı ilə öyrəndi. Mən də bu söhbətlərdə iştirak edirdim. Abbas müəllimin heç şübhəsiz əsas məqsədi Cavidin cənazəsinin gətirilməsi idi. O, hətta ora gedəcək şəxsləri də müəyyənləşdirir, mənimlə razılaşırdı. Abbas müəllim bu təşəbbüsü yerinə yetirməyə çox həyəcanla, inamla yanaşanda, mənim buna





təşəbbüsünə soyuqluqla, hətta bir qədər də laqeyd, inamsız münasibətimə dözməyərək, bir gün həm təəccüb, həm də bir qədər əsəbiliklə dedi: Turan, söhbət sənin atandan getmir?.. Mən yenə də təmkinimi pozmadan, çox sakit, arxayın tərzdə cavab verdim: Abbas müəllim! Sizin görmək istədiyiniz iş mənim də çoxdankı, ən böyük arzumdur, lakin inamım yoxdur, alınmayacaq. Nəticədə mən düşündüyüm kimi də oldu.

Təəssüf ki, o vaxtkı mühit, o vaxtkı rəhbərlik Cavidin məzarının tapılması üçün göstərilən növbəti təşəbbüsə də dayaq durmadı. Sirli Sibiri fəth etməyə, Moskva qarşısında belə bir məsələ qaldırmağa kimsə cürət etmədi. Moskvanın razılığı olmadan isə Sibirdən nəinki məzar gətirməkdən, heç onu axtarmaqdan belə söhbət gedə bilməzdi. Beləliklə 70-ci illərdəki ikinci təşəbbüs də nəticəsiz qaldı."

Turan xanım Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan üçüncü təşəbbüs barədə, o təşəbbüsdən doğan hadisələrin gedişi haqqında, Cavidin nəşinin Bakıya gətirilməsi ərəfəsində keçirdiyi təlatümlər haqqında həmin yazıda elə məqamlara toxunur ki, onları həyəcansız oxumaq mümkün deyil: "Nəhayət 80-ci illərin əvvəllərində Cavidin anadan olmasının 100 illik yubileyi

ərəfəsində üçüncü və UĞURLU təşəbbüs edildi. Tale belə bir çətin, sözsüz ki şərəfli bir işin öhdəsindən gəlməyi HEYDƏR ƏLİYEVƏ qismət etdi. Heydər Əliyevin İttifaq miqyaslı nüfuzu, onun Brejnevlə şəxsi münasibətləri və nəhayət, ədəbiyyatımıza olan böyük ehtiramı Cavidin məzarının tapılmasına işıqlı bir yol açdı.

...1982-ci il oktyabrın ortalarında Həmid Cəfərovun rəhbərlik etdiyi dəstənin Sibirə getməsi haqda məlumatım var idi. Lakin, nə vaxt qayıdacaqlarını bilmirdim. Mən o vaxt Həmid müəllimi hətta tanımırdım.

...1982-ci il oktyabrın 26-sının təəssüratlarından yəqin heç bir zaman ayrıla bilməyəcəyəm. Günorta Mədəniyyət Nazirliyindən zəng vurub dedilər ki, "Saat 15.00-da işçilərlə birlikdə aeroportda olmalısınız. Cavidi gətirirlər". O zaman mən Teatr Muzeyinin direktoru vəzifəsində çalışırdım. Artıq neçə gün idi ki, şəhərdə bu haqda danışırdılar. Bu xəbər mənə çox qəribə, əcaib görünürdü. Sanki gətirilən şəxsin mənə heç bir dəxli yox idi. Mənim bu hadisədən xəbərim olmadığını bilən, zəng çalan idarə rəisi az qala məndən də çox təəccübləndi. O nə düşündüsə çox həyəcanla: "Mən Sizə zəng vurmamışam, heç nə deməmişəm" söyləyib dəstəyi asdı.





Eşitdiyim xəbərdən fikirlərim elə dolaşıq düşmüşdü ki, necə hərəkət edəcəyimi, nə etməli olduğunu kəsdirə bilmirdim. Bir qədər sonra yenidən zəng vuraraq, işçilərin aeroporta getmələrini təmin etməyimi tapşırdılar. İkinci zəng məni birincidən də çox təəccübləndirdi. Məntiqsizliyin dərəcəsi olmazmış?! Mən cavabında: "Mən gedərəmsə, onlar da gedəcəklər. Mənsiz getməyəcəklər" cavabını verib dəstəyi asdım.

Mədəniyyət Nazirliyinin zəngindən sonra fikrimi toplayaraq dərhal Mərkəzi Komitəyə – Xeyrulla Əliyevə zəng vurdum. Hadisənin əcaib gedişatı əsəblərimi tam tarıma çəkmişdi. Artıq dözüm həddini aşırdı. Demə şəhərimizin mötəbər şəxsləri, o zaman Azərbaycan KP MK-nın ideologiya üzrə katibi, həm də H.Cavidin 100 illik yubileyi komitəsinin sədri Həsən Həsənovun otağında Cavidin harada – Naxçıvanda, yoxsa Bakıda dəfn olunması məsələsini həll etmək üçün təcili toplanıblarmış. Cavid ailəsinin son üzvünün, doğma övladın isə bütün bunlardan qətiyyən xəbəri yox idi. Burda müxtəlif fikirlər söylənilir, təkliflər edilirdi. Lakin bir qərara gələ bilmirdilər. Məsələnin həllini sonraya saxlayıb, vaxtın məhdud olduğunu nəzərə alaraq aeroporta yollanmağı məsləhət bildilər. Öncədən xəbər tuta bilmədiyim

üçün qohumlar, tanışlar, dostlar da bixəbərdilər. Cavid ailəsinin yaxınlarının bir nəfəri belə olsa cənazənin gətirilməsi mərasimində iştirak etməmişdi.

Aeroportda da keçirdiyim, ifadəsi çətin izah edilə bilən hisslər öz təsirini itirməmişdi. Elə bir vəziyyətdə idim ki, burada Cavidi qarşılayan onlarla adamdan bir-ikisini xatırlayırdım. Sanki donmuşdum... Burda mən yalnız bir nəfəri görə bilirdim. 45 ilin ayrılığından sonra qarşıladığım ən doğma, ən əziz, ən mehriban adamı – ATAMI! Hətta artıq həyatda olmayan əzizlərimin – anamın və qardaşımın da mənimlə bərabər olduqlarını duyurdum. Orda olan müddətdə edilən çıxışlar, sözlər, fikirlərin heç birisini nə eşidir, nə görürdüm, mən yalnız və yalnız babamla (biz atamıza "BABA" deyə müraciət edirdik) söhbət edir, onun suallarına cavab verməyə çalışırdım.

1939-cu il iyunun ıkisində Keşlədəki həbsxanaya görüşə üçümüz – anam Mişkinaz xanım, qardaşım Ərtoğrol və mən getmişdik. Bu bizim son canlı görüşümüz oldu. İndi isə 43 il sonra görüşə yalnız mən gəlmişdim. Bu isə ikinci – sonuncu görüş oldu.

Mən aeroportda kiminləsə danışmaq, salamlaşmaq halında deyildim. Adamların arasında cənazəni gətirənləri tapmağa çalışırdım. Onların tabutun yanında dayananlar olduğunu təxmin etdim. Çünki tanışlığımız yox idi. Həmid Cəfərov, onunla bərabər olan Telman Əliyev və Zakir Nəsirovun gördükləri iş xalqımız üçün əvəzsiz xidmət nümunəsi idi.





O görüşdən 11 il keçməsinə baxmayaraq, həmin hissləri hələ də yaşamaqdayam. Sanki bu, dünən olmuşdu. Həmid müəllimdən mənim münasibətlərə heç bir reaksiya verməməyimə, "qəribəliyimə" təəccübünün etirafını sonra eşidəndə, mən bunu çox təbii qarşıladım, incimədim də. Axı o mənim təbiətimə bələd deyildi, məni qəti tanımırdı. "Bizim gördüyümüz iş, yəni bir quru sağ ola da dəyməzdi" etirafını edən Həmid müəllim son dərəcə haqlı idi. Çünki mən ilk öncə onlara yanaşıb çəkdikləri zəhmətləri, əziyyətləri müqabilində təşəkkür etməli, minnətdarlıq bildirməliydim.

Lakin ... kim 45 ilin ayrılığından sonra, artıq 41 il əvvəl qürbətdə – sürgündə həyatdan köçmüş ən əziz, doğma adamını belə qarşılayıb?! Mən bilmirəm, eşitməmişəm. Bəlkə də olub!

Maşın karvanı aeroportdan uzaqlaşdı. Cavid paytaxta tərəf irəliləyirdi. Maşın karvanını qabaqda gedən polis maşını müşayiət edir, yoldan ötən-

lərdə təntənə hissi yaranırdı. Polis maşınından arxadakı maşında isə "03" – təcili yardım maşını irəliləyirdi. "Üçlüyün" qərarı ilə Bakıdan Sibirə göndərilən Cavid əvvəl üç igidin çiynində, sonra isə bu maşında "03"də Bakıya qayıdırdı. Səsli-küylü maşın karvanına alışmış bakılıların fikirlərini bu təcili yardım maşını dolaşdırırdı. Onlar "böyüklərin" maşınları arasında heç vaxt təcili yardım maşını görməmişdilər və indi düşünürdülər ki, maşın karvanında "03"ün olmasında nə isə var. Təcili yardım maşınından arxada isə Nazirlər Soveti sədrinin müavini Fikrət Əhmədovun, ondan arxada isə mədəniyyət naziri Zakir Bağırovun maşını gedirdi. Mən Zakir müəllimin maşınında əyləşmişdim. Abbas Zamanov və Məmmədcəfər Cəfərov da bizim maşındaydılar.

Maşın karvanı Neftçilər prospektindən sağa burulub ovaxtkı Skalov, indiki Niyazi küçəsinə daxil oldu, sonra da İstiqlaliyyət küçəsi, ovaxtkı Kommunist küçəsi ilə irəliləməyə başladı.

İş gününün sonu idi. Saat 17 radələri olardı. Maşınlar Qız Qalasının qarşısından keçərkən küçədən ötənlərin ayaq saxlayaraq təəccüblə baxdıqlarını görən Zakir Bağırov dedi: "Dünyanın qəribə işləri var! Yoldan ötənlərin heç birisinin ağlına da gəlməz ki, bu maşın karvanı kimi mü-





şayiət edir".

Maşında oturanlardan heç kim Zakir müəllimdən cənazənin hara aparıldığını soruşmurdu. Şübhəsiz ki, evinə aparılmırdı! Bəs hara? Yalnız filarmoniyanın qarşısından keçəndə Zakir müəllim cənazənin Şirvanşahlar sarayına aparıldığını söylədi. Bəs nə üçün İçərişəhərə Bakı Soveti tərəfdən – daha qısa yolla gedilmədi. Bakı Sovetini keçib İstiqlaliyyət küçəsi boyunca gedəndə, o dəqiqə məsələnin mahiyyəti mənə bəlli oldu. Mən Zakir müəllimə müraciətlə, "Siz bilərəkdənmi burdan keçirsiniz" deyə soruşdum. O, marşrut qəsdən belə salınmışdır. Cavid sanki ilk öncə 17 il xoşbəxt günlər keçirdiyi evini salamlayırdı.

Cavidın nəşi Şirvanşahlar sarayının taxt-tac salonunda qoyuldu. Xalqımızın bu gözəl abidəsini – Cavidin Bakıdakı iqamətgahı kimi Heydər Əliyev seçmişdi.

Cavid düz bir həftə bu qədim sənət ocağında "dincəldi".

Oktyabrın 26-da "Cavidi harada dəfn etməli?" məsələsilə əlaqədar H.Həsənovun çağırdığı müşavirədə ümumi rəyə gəlməmişdilər. Ona görə də oktyabrın 27-də EA-nın Rəyasət Heyətinin zalında yenidən toplandılar. Yalnız bir məsələ müzakirə olunmalıydı: Dəfn harada olmalıdır?! Alim-

lər, sənət adamları... çıxışlar edir, fikirlər söyləyirdilər. Çox çıxışlar oldu. Nəticədə Naxçıvanda dəfn olunmasını daha doğru hesab etdilər. Həm də türbə tikilməliydi.

Vidalaşmanın harda olması məsələsi ətrafında çox mülahizələr söylənsə də, məsələ həll olunmamış qaldı. İclasın sonunda Həsən müəllimə yanaşaraq bir arzumu Heydər Əliyevə çatdırmasını xahiş etdim: "Mümkünsə Cavid öz evindən götürülsün". Bu arzumu həyata keçirdiyi üçün Heydər Əliyevə son dərəcə minnətdaram.

Bu qeyri-adi, görünməmiş, təkrarsız hadisə ilə bağlı heç bir elan, məlumat verilməmişdi. Bilənlərin biri-digərini xəbərdar edirdi. Bir həftə ərzində Şirvanşahlar sarayına səhərdən-axşama qədər görüşə gələnlər olurdu. Şübhəsiz ki, qohumlar, dostlar, tanışlar hər gün orda idi. Dəfnin nə zaman, harda olacağını heç kim bilmirdi. Məndən soruşurdular, mən də heç kimdən soruşmadığım üçün bilmirdim. Nəhayət, noyabrın 1-də axşam Cavidin nəşi 17 il yazıb-yaratdığı, əzizlərilə birlikdə xoşbəxt günlərini yaşadığı evinə – Əlyazmalar İnstitutunun binasına aparıldı. Babam 45 illik ayrılıqdan sonra bir gün orda "gecələdi".

Sabahı gün, noyabrın 2-də rəsmi vida görüşü oldu. Eşidib xəbər tutan şəxslər, dövlət rəhbərləri





vidalaşmağa gəlirdilər.

Fəxri qarovulda başda Heydər Əliyev olmaqla rəhbər işçilər dayanmışdılar.

Cənazə noyabrın 2-də saat 12.00-da xüsusi təyyarə ilə Naxçıvana aparıldı. Cənazəni müşayiət edənlər arasında qohumlarım, yaxın dostlarım, ədəbiyyat, sənət adamları vardı. Gedənlər arasında olan mərhum Abbas müəllim üçüncü təşəbbüsdə nəhayət, cənazənin tapılıb gətirilməsinə çox sevinir, özünün vaxtilə bu barədə göstərdiyi cəhdlərin boşa çıxdığını təəssüf hissilə xatırlayırdı.

Mənim Həmid müəllimlə ilk söhbətim təyyarədə oldu. O zaman Həmid müəllim Naxçıvan MR-nın ideologiya üzrə katibi vəzifəsində çalışırdı. İşini Bakıya dəyişəndən sonra ailəvi ünsiyyətimiz daha da artdı. Həmid müəllim Cavidin mənəvi övladı, Cavid ocağının ən əziz, mehriban adamıdı. Cavidin anım günlərində o ailəsilə birlikdə yaxından iştirak edir.

Vaxtın darlığını, Cavidlə vidalaşmaq istəyənlərin çoxluğunu nəzərə alaraq dəfn mərasimini sabahkı günə – noyabrın 3-nə keçirdilər. Cavid, vaxtilə yaşadığı, ilk gənclik illərini keçirdiyi, indi Cavidin xatirə muzeyi kimi fəaliyyət göstərən evdə bir gecəlik "qonaq oldu". Səhərisi cənazə Dram Teatrın binasına aparıldı. Həmyerliləri Ca-

vidlə vidalaşmağa başladılar. Nəhayət saat 15.00-da Cavidin xatirə muzeyinin qarşı tərəfində yerləşən sahədə dramaturq əbədilik torpağa tapşırıldı.

Cavidin neçə onilliklərdən sonra doğma evindən götürülüb torpağa tapşırılması ədalətin zəfər çalması idi. Bunun üçün mən birinci növbədə Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevə minnətdaram. Bu minnətdarlığımı mən noyabrın 2-də Cavidlə vidalaşmağa gələndə Əlyazmaları İnstitutunda Heydər Əliyevə söyləmişdim."

Geniş sitat gətirdiyimiz "Turan Cavidin söylədikləri" adlı bu yazıdan biz hələ 2014-cü ildə hazırlayıb çap etdirdiyimiz "Turan Cavid. Ömür salnaməsi" kitabında da istifadə etmişdik. Həmin yazının böyük bir hissəsini yenidən bu monoqrafiyaya cəlb etməkdən məqsəd Ulu öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatı qarşısındakı misilsiz xidmətlərinin, Cavidin şəxsiyyətinə və yaradıcılığına olan sevgisinin, Cavidlər ailəsinə göstərdiyi qayğı və diqqətin miqyasını oxuculara, xüsusən də gənc nəslin nümayəndələrinə bir daha çatdırmaqdır. Çünki Turan xanımın təbirincə desək, Hüseyn Cavidə əsl bəraəti məhz Ümummilli lider Heydər Əliyev vermişdir və bu mənada Ulu öndərin bu yoldakı zəhmətlərini nə qədər yada





salsaq, Ona nə qədər təşəkkür etsək, azdır.

"Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsində cənab Heydər Əliyevin rolu" adlı başqa bir yazısında isə Turan xanım 1956-cı il bəraətindən sonra Cavidə münasibətdə müxtəlif yanaşmaların və müxtəlif mərhələlərin təfərrüatlarından bəhs edir və Ulu öndərin 1982-ci ildə Moskvaya məsul vəzifəyə gedənə qədər gördüyü işləri maraqlı bir cümlə ilə yekunlaşdırır: **"Heydər Əliyev həmin dövrlərdə Hüseyn Cavidin adıyla bağlı nə mümkün idisə və hətta nə mümkün deyildisə etdi."**

Turan xanım yazısında onu da qeyd etməyi unutmur ki, Heydər Əliyev Moskvada olduğu müddətdə Cavidin adıyla bağlı hər bir işlə maraqlanar, Bakıya qısa müddətə gələndə isə, vaxt tapıb Cavid əsərlərinin tamaşalarına baxmağa gedərmiş. 1983 və 1984-cü illərdə Bakıya hər iki gəlişində Heydər Əliyev Cavid əsərlərinin tamaşalarına baxmışdır. Söhbət 1983-cü il sentyabrın 24-də Milli Dram Teatrında Mehdi Məmmədovun quruluşunda "İblis" və 1984-cü il sentyabrın 15-də Rus Dram Teatrında Cənnət Səlimovanın quruluşunda təqdim olunmuş "Şeyx Sənan" tamaşalarından gedir. Turan xanım bunu Heydər Əliyevin Cavid dühasına böyük ehtiramının yük-

sək təcəssümü kimi qiymətləndirirdi.

Heydər Əliyevin respublika rəhbərliyindən ayrılaraq, Moskvaya daha yuxarı vəzifəyə təyin olunmasından sonra onun özündən və Turan xanımdan başqa Cavid sanki, kimsənin yadına düşmədi və unudulmağa başladı. O uğursuz dövrlər Turan xanımın yaddaşında xoşagəlməz izlər buraxdığından, belə deyirdi:

"Bu müddət ərzində çox sular axdı, çox dəyişikliklər oldu. Tarix tərsinə dəyişdi, bir sistem başqası ilə əvəz olundu. Azərbaycan müstəqillik qazandı. Lakin bütün bu illər ərzində, nədənsə, Hüseyn Cavid yada düşmədi. Düzdür, müstəqillik qazandıqdan sonra bu işlər bir o qədər də çətin olmamalıydı. Ancaq çətin oldu və hər şey Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdığı vaxta qaldı. Bəlkə də, şairin taleyində, daha dəqiq desək, ölümsüzlük, əbədilik və Cavidlik taleyində Heydər Əliyevin rolu olmalı imiş. Bir sözlə, Heydər Əliyev bir zamanlar Cavidin 100 illiyi ilə əlaqədar imzaladığı sərəncamı elə özü də həyata keçirməliymiş."

Turan xanımın sözügedən yazısı onun Cavidsiz taleyindəki enişli-yoxuşlu məqamların mənzərəsini canlandırmaqla kifayətlənmir, eyni zamanda, Ulu öndərin taleyindəki hadisələrin Cavid





dünyasına təsirini də görməyə imkan verir. Həmin yazıdakı cümlələr sadəcə hadisələrin xronoloji təsviri üçün işlədilmir, onların əsas qayəsi Heydər Əliyev dəyanətinin, mətinliyinin, mərdliyinin böyüklüyünü göstərməkdir. Axı Heydər Əliyev həyatının ən çətin anlarında belə, Caviddən üz döndərməmişdi, onu heç vaxt ikinci dərəcəli hesab etməmişdi. Bəlkə də 90-cı illərdə Heydər Əliyevin yerinə başqası olsaydı, səbatsız bir davranışla Cavidi çoxdan tarixin arxivinə göndərmişdi...

Amma Heydər Əliyev başqa idi və Turan xanım Ulu öndərin bu fərqliliyini belə ifadə edirdi:

"Bildiyimiz kimi, müəyyən müddətdən sonra Heydər Əliyev Moskvada nahaqdan məsul vəzifəsindən uzaqlaşdırıldı, Naxçıvana qayıtdı. Onun təşəbbüsü ilə 1992-ci il oktyabrın 23-də Naxçıvan Musiqili Dram Teatrında Cavidin 110 illiyi keçirildi. Teatrdakı tədbirdən qabaq Cavidin qəbri ziyarət edildi. Heydər Əliyev həm qəbir üstündə, həm teatrda fərqli çıxışlar etdi. Bakıda isə bu tarix o zaman yada düşmədi."

1980-90-cı illərdə Heydər Əliyevdən başqa Cavidi yada salmayan başbilənlərin, mövcud idarəetmə sisteminin yumşaq desək, vecsizliyi Turan

Cavidin aşağıdakı fikirlərində öz haqlı qiymətini alır:

"Müəyyən müddət keçdi və Heydər Əliyev Respublika prezidenti seçildi. Təbii ki, Cavidin xatirəsinin əbədiləşdirilməsi işlərinə yenidən rəvac verildi. Belə ki, 1995-ci il iyunun 10-da respublika prezidenti Heydər Əliyevin yanında "Hüseyn Cavidin məqbərəsinin yaradılması və ev muzeyinin açılması" məsələləri ilə əlaqədar müşavirə keçirildi."

Xatırladaq ki, H.Əliyev həmin müşavirədə tarixi faktlara söykənərək, aşağıdakıları söyləmişdi:

"...Mən böyük bir fasilədən sonra Moskvadan Azərbaycana döndüm. Naxçıvana getdim və elə həmin gün Cavidin qəbrini ziyarət etdim. Fikirləşdim ki, məqbərə yoxdursa da, heç olmasa sənətkarın qəbrinin üstü götürülüb. Ancaq gedib oradakı vəziyyəti gördüm, təəssüfləndim, məqbərə də tikilməyib".

80-90-cı illərdə Cavidə münasibətdə növbəti durğunluq dövrü olsa da, Turan xanım insaf naminə ən xırda işləri belə diqqətdən kənarda qoymamışdı və daha böyük işlərin görüləcəyinə olan ümidi itirməmişdi:

"1991-ci ildə Mədəniyyət Nazirliyi 16 aprel





1991-ci il tarixli 74 K saylı qərar verdi. Qərarda deyilirdi ki, Əlyazmalar İnstitutunun 1-ci mərtəbəsində Cavidin yaşamadığı, ancaq dərs dediyi 5 sinif otağı Cavidin Ev Muzeyi üçün ayrılsın. Bu, belə də oldu. Bir müddət muzey sinif otaqlarında yerləşdi. Bunun haçana qədər davam edəcəyini də heç kim bilmirdi. Heç kim.

Bircə mən nəyinsə olacağına, kiminsə gəlib bütün bu müşkül işlərə əncam çəkəcəyinə inanırdım. İnanırdım ki, atamın ev muzeyi yaranacaq, inanırdım ki, məqbərə ucalacaq, inanırdım ki, abidə tikiləcək. İnanırdım, vəssalam. Bu, mənim inamım idi. Və yaxşı ki, bu inamım var idi. Çünki Tanrı həmişə inananların yanında olur."

Hüseyn Cavidin məqbərəsinin yaradılması və ev muzeyinin açılması ilə bağlı adıçəkilən tarixi müşavirədə Heydər Əliyev məqbərə və muzey məsələlərini dərhal həll etdi:

"...Oktyabr ayında Hüseyn Cavidin anadan olmasının ildönümüdür. O vaxtadək bu məqbərəni tikib qurtarmalıyıq. Yəni 1981-ci ildə qəbul etdiyimiz qərarı heç olmasa, 1995-ci ildə həyata keçirməliyik. Mən keçmiş təcrübəmdən bilirəm ki, hakimiyyətdə olan şəxslər, orqanlar bir məsələni həll etmək istəsələr, onu edə bilərlər... Demirəm ki, bunlar asan işdir. Amma respublika miqyasın-

da bunlar o qədər də böyük iş deyil ki, bu mümkün olmasın. Buna, sadəcə, münasibət, istək lazımdır".

Həmin iclasda Ümummilli lider Cavidlər məqbərəsini necə görmək istədiyini də açıqlamışdı: "Məqbərə gərək çox böyük olmasın. Hüseyn Cavidin əsərlərindən obrazların təsviri də səmimi olsa yaxşıdır. Mən belə fikirləşirəm ki, bu məqbərəni xaricdən görəndə də gərək fikir cəmləşsin və onun içərisində olanda da fikir dağılmasın. Məqbərənin miqyası da buna uyğun olmalıdır. Gərək bu layihələrin müəllifləri də fikirləşsinlər və biz də bir fikirləşək... Qəbir məqbərənin içində olmalıdır... Hər halda məqbərənin içində heykəl, yaxud büst olsun. Hüseyn Cavidin surəti məqbərənin içində mütləq lazımdır.".

Əlbəttə, tarixin bu cür axarı Turan xanımı razı salmaya bilməzdi:

"Məqbərənin tikintisində ölkə başçısının bütün istək və arzuları nəzərə alındı. Bu mənim də arzum idi. Arzu edirdim ki, Cavidlər hamısı bu məqbərədə yerləşdirilsin. Xeyli tərəddüddən sonra bu xahişlə ölkə başçısına müraciət etdim və arzularım həyata keçdi.

1996-cı il oktyabrın 29-da Naxçıvanda Hüseyn Cavid məqbərəsinin açılışı oldu. Cavid məqbərəsi gözəlliyi ilə nəinki Azərbaycana, bütün Türk dünyasına bəzək oldu."





Daha əvvəl də qeyd olunduğu kimi, Ulu öndər Heydər Əliyev həmin müşavirədə Cavidin Ev Muzeyi məsələsinə də toxunmuş və bu işi həll etmişdi: "...Mənə dedilər ki, bu muzey üçün 2-3 otaq ayırıblar, ancaq bu, Ev Muzeyi səviyyəsində deyil, Ev Muzeyi yoxdur. İndi bununla razılaşmaq olmaz... Hüseyn Cavid Muzeyi indiki Əlyazmalar İnstitutunun binasının 3-cü mərtəbəsində, görkəmli sənətkarın vaxtilə yaşadığı otaqlarda təşkil ediləcək, bu muzey respublika Elmlər Akademiyasının nəzdində olacaqdır. Nazirlər Kabineti xüsusi sərəncam qəbul etsin".

...Və elə də oldu. 10 iyul 1995-ci il tarixli, 160 saylı qərarla Hüseyn Cavidin xatirə muzeyi Mədəniyyət Nazirliyi tabeliyindən Elmlər Akademiyası sisteminə keçirildi və Əlyazmalar İnstitutu binasının 3-cü mərtəbəsində bərqərar olmaqla, Hüseyn Cavidin Ev Muzeyi kimi fəaliyyətini davam etdirdi.

O illərdə muzeyin ekspozisiyanı zənginləşdirmək və əşya-məkan sistemini tamamlamaq üçün görkəmli rəssam və heykəltəraşlardan Ö.Eldarov, O.Sadıqzadə, A.Hacıyev, A.Kərimova və başqaları Muzeyin sifarişinə uyğun olaraq, Cavid və

Cavidlərlə bağlı əsərlər üzərində işləməyə başladılar. Beləliklə, Hüseyn Cavidin Ev Muzeyi tədricən Turan xanımın istədiyi şəklə düşdü.

Turan xanım yazırdı ki, Heydər Əliyev Moskvada işlədiyi zaman Cavid abidəsi ilə vaxtaşırı maraqlanmış və abidənin heykəltəraşı Ö.Eldarova məsləhətlər vermişdi. Bakıda Cavid abidəsinin açılışı 1993-cü il may ayının 27-də olmuş, Ümummilli lider Heydər Əliyev isə nə qədər istəsə də, bu açılışda iştirak edə bilməmişdi.

Əvəzində Ümummilli lider Heydər Əliyev 2002-ci il oktyabrın 24-də – Cavidin 120 illik yubileyində – Bakıda Hüseyn Cavidin Ev Muzeyinin rəsmi açılışını etmiş və bu tarixi hadisədən bir gün öncə "H.Cavidin 120 illiyi haqqında" sərəncam vermişdi. Bütün bunlar bir daha göstərir ki, istər Cavidin nəşinin tapılaraq Vətənə gətirilməsi, istər Cavid məqbərəsinin hazırlanması, istər Cavidin Ev Muzeyinin yaradılması, istərsə də ümumiyyətlə Cavidin xatirəsinin əbədiləşdirilməsində Heydər Əliyev kimi bir fenomenal şəxsiyyətin Cavid sevgisi, qətiyyəti və səbatı gərək imiş.

2004-cü il sentyabrın 12-sində Cavid nəslinin son nümayəndəsi, böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin sevimli qızı, ədiblə Ulu öndər Heydər Əliyev arasında canlı və mənəvi





körpü rolunu oynamış Turan Cavid bu fani dünya ilə "haqq-hesabı çürüdüb", dahi atasının, Mişkinaz xanımın, Ərtoğrolun və Ulu Öndərin görüşünə tələsdi, əbədiyyətə qovuşdu, Hüseyn Cavidin Naxçıvandakı məqbərəsində əzizlərinin türbəsi yanında boş qalmış yerini tutdu.

Əlbəttə, 2000-ci illərin əvvəlində, ard-arda istər Ulu öndərin, istərsə də Cavidlər nəslinin sonuncu mogikanının dünyadan köçməsi, xalqımızı, o cümlədən cavidsevərləri son dərəcə kədərləndirdi. Amma əminliklə söyləmək olar ki, bugün Ulu öndərin Cavidə ehtiram ənənəsinin Prezident İlham Əliyev tərəfindən ən yüksək formada davam etdirilməsi və Hüseyn Cavidin Ev-Muzeyinin daha da dirçəlməsi həm Heydər Əliyevin, həm də bütövlükdə Cavidlər ailəsinin ruhunu şad etmişdir. Əminik ki, 2023-cü ildə 100 illik yubileyləri qeyd olunan Ulu öndər Heydər Əliyev və Turan xanımın Cavid xatirəsinin əbədiləşdirilməsi, əsərlərinin yaşaması uğrunda udulmaz xidmətləri xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Cavid irsinin hər iki qoruyucusuna – Ümummilli liderimiz Heydər Əliyev və Turan Cavidə ulu Tanrıdan rəhmətlər diləyir, onların ruhlarının şad olması üçün dualar etməklə yanaşı, həm də Heydər Əliyev ideyalarını uğurla davam və inki-

şaf etdirən Azərbaycan Prezidenti İlham Əliyev cənablarına xalqımızın rifahı və səadəti yolunda göstərdiyi səmərəli fəaliyyətində uğurlar diləyirik.





## SÖNMƏZ NUR, TÜKƏNMƏZ MƏHƏBBƏT

Cavid sevgisinin Ulu öndərimiz Heydər Əliyevdən onun uzaqgörən, müdrik ardıcılı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyevə ötürülməsi Cavid eşqinin, Cavid nurunun sönməyəcəyinə dəlalət edir. Və nə yaxşı ki, dahi rəhbərin göz bəbəyi kimi, qoruduğu vətənsevərlik, millətsevərlik ənənələri ilə yanaşı, ədəbiyyat təəssübkeşliyi bu gün möhkəm və etibarlı əllərdədir.

Hələ 2003-cü ildə İlham Əliyevə yazdığı təbrik məktubunda bunu təsdiqləyən Turan Cavid deyirdi:

"Hörmətli İlham Heydər oğlu! Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Atanız Heydər Əlirza oğlunun böyük tarixi və milli əhəmiyyətə malik

olan siyasətinin bundan sonra da davam etdiriləcəyinə inanır və buna çox sevinirəm. Sizi ədəbiyyatımız, mədəniyyətimiz və millətimiz üçün gərəkli olan bu siyasəti davam etdirməyə qabil bir şəxsiyyət kimi dəyərləndirirəm. Bu şərəfli vəzifənin öhdəsindən ləyaqətlə gələcəyinizə əminəm. Qısa müddətdə həyata keçirdiyiniz işlərin miqyası və keyfiyyəti belə düşünməyə əsas verir. Sizə böyük uğurlar, atanıza – əziz Heydər Əlirza oğluna cansağlığı arzulayıram. Mənsub olduğunuz ailəyə və Sizə böyük hörmətlə, Turan Cavid".

Turan xanım yanılmamışdı... Prezident İlham Əliyev ötən 20 ildə üzərinə düşən bütün vəzifələrin öhdəsindən şərəf və ləyaqətlə gəldi; Azərbaycan Respublikasının siyasi, iqtisadi qüdrətini dəfələrlə artırdı, vətəndaşlarımızın sosial rifahını yaxşılaşdırdı, güclü ordu quruculuğuna nail oldu, Qarabağımızı erməni işğalından azad etdi, mədəniyyətimizin, ədəbiyyatımızın ən etibarlı hamisinə çevrildi.

O da aydındır ki, 2003-cü ildən bəri ötən dövr ərzində İlham Əliyevin mədəniyyət siyasətində Cavidin yeri hər daim yüksəklərdə olmuşdur. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü





il tarixli sərəncamına əsasən, Hüseyn Cavidin əsərlərinin 4 cilddə latın qrafikası ilə nəşr olunması Cavid yaradıcılığını yeni müstəviyə çıxarmaq baxımından həyati əhəmiyyət kəsb etmişdir.

Prezident İlham Əliyev Cavidlər ailəsinin sonuncu nümayəndəsi Turan Cavidin vəfatı ilə əlaqədar komissiyanın yaradılması, dəfn mərasiminin dövlət səviyyəsində keçirilməsi və mərhumun Naxçıvanda – Cavid məqbərəsində torpağa tapşırılması haqqında göstəriş vermişdir. Hüseyn Cavidin Ev Muzeyi sözügedən tədbirlərə qoşulmuş, muzeydə Turan Cavidə həsr olunan anım mərasimi, ədəbiyyat sərgiləri təşkil edilmiş, Turan Cavidin iştirakı ilə araya-ərsəyə gətirilən audiovizual materialların – radio və televiziya verilişlərinin lent yazılarının, kinofilmlərin ictimai nümayişi həyata keçirilmişdir.

2005-ci ildə "Hüseyn Cavid. Əsərləri" adlı 5 cildlik nəşr işıq üzü görmüşdür. Bu nəşrdə ilk dəfə Hüseyn Cavidin öz əsərlərinin sonunda etdiyi "İmlasına toxunmamalı!" qeydinə əməl olunmuş, mətnlərin dil və üslubu qorunub saxlanmışdır.

Prezident İlham Əliyev 17 aprel 2007-ci il tarixində "Hüseyn Cavidin 125 illik yubileyi haqqında" Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tədbirlər planına uyğun olaraq, yubiley

münasibətilə Hüseyn Cavidin Ev Muzeyi tərəfindən "Hüseyn Cavid irsi və müasir dövr" adlı beynəlxalq elmi konfrans təşkil olunmuş, xaricdən gələn cavidşünasların, ədəbiyyatşünas alimlərin məruzələri dinlənilmiş, konfrans materialları nəşr olunaraq, dünya kitabxanalarına göndərilmişdir; Respublikanın 30-dan artıq elm və təhsil müəssisəsində ədibin xatirə gecələri təşkil olunmuşdur; tarix üzrə fəlsəfə doktoru, dosent Nigar Babaxanova tərəfindən Hüseyn Cavidin şeirlərindən seçmələr ilk dəfə fransız dilinə tərcümə edilmiş və "La Plus Grande Religion Est L'amour" ("Məhəbbətdir ən böyük din") adlı kitab şəklində işıq üzü görmüşdür; Hüseyn Cavidin Ev Muzeyinin yaxından iştirakı ilə "Cavid ömrü" adlı tammetrajlı bədii film çəkilərək, tamaşaçılara təqdim olunmuşdur; mütəfəkkir şairin insanlıq, haqq-ədalət, vətən, qadın, məhəbbət və ən müxtəlif insan münasibətləri haqqında müdrik sözlərini və kəlamlarını əhatə edən "Cavid hikməti (seçmə aforizmlər)" adlı kitab və Hüseyn Cavidin "Azər" poemasının bədii qaynaqlarını araşdıran "Poetik sözün arsenalı" adlı monoqrafiya işıq üzü görmüşdür.

Prezidenti İlham Əliyev 2008-ci il sentyabrın 17-də paytaxtdakı Hüseyn Cavid parkında aparılmış əsaslı bərpa və yenidənqurma işləri ilə tanış olmuş, burada gəzişən sakinlərlə söhbət etmiş, görkəmli ədib haqqında fikirlərini bölüşmüşdür. Ədibin adını daşıyan park abadlaşdırıldıqdan sonra hər il oktyabr ayında Hüseyn Cavidin xatirəsini yad etmək məqsədilə Hüseyn Cavidin Ev Muzeyi müvafiq dövlət strukturları ilə birgə burada mədəni-kütləvi tədbirlər təşkil etmişdir.





2009-2010-cu illərdə Hüseyn Cavidi anım mərasimləri münasibətilə muzey tərəfindən "Topal Teymur", "Azərbaycan ədəbi fikri və Hüseyn Cavid", "Hüseyn Cavid və Abdulla Şaiqin "Ədəbiyyat dərsləri"" adlı kitablar nəşr olunmuşdur. Muzeyə göstərilən dövlət qayğısı sayəsində Ərtoğrol Cavidin musiqi əsərləri bir yerə toplanaraq, ilk dəfə multimedia diskləri formatında dərc olunmuşdur.

Ulu öndərin Cavidlə bağlı gördüyü işlərin davamı kimi, 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən ədibin xatirəsinin uca tutulması istiqamətində bir çox addımlar atılmışdır. Prezidenti İlham Əliyev 16 fevral 2012-ci il tarixində "Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tədbirlər planına uyğun olaraq, yubiley münasibətilə Hüseyn Cavidin Ev Muzeyi tərəfin-

dən "Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında" adlı beynəlxalq elmi konfrans təşkil olunmuş, yerli və xarici alimlərin Hüseyn Cavid yaradıcılığı ilə bağlı məruzələri dinlənilmiş, Azərbaycan və ingilis dillərində konfrans materialları nəşr olunaraq geniş elmi ictimaiyyətə təqdim edilmişdir; Respublikanın 40-a yaxın elm, təhsil, mədəniyyət müəssisəsində ədibi anım mərasimləri, yaradıcılıq gecələri və s. təşkil olunmuşdur; "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" adlı 10 cildlik kitab nəfis tərtibatda nəşr olunmuş və "Humay" milli mükafatına layiq görülmüşdür; "Cavidşünaslıq" elmi araşdırmalar toplusunun ilk 10 cildi işıq üzü görmüşdür; Hüseyn Cavidin "Şeyda" əsəri 10 dildə çap olunmuşdur; Monteneqro Respublikasının paytaxtı Podqoritsa şəhərinin tarixi Kral parkında Hüseyn Cavidin büstünün açılışı olmuş, Azərbaycan ziyalılarından ibarət nümayəndə heyəti, o cümlədən Ev Muzeyinin əməkdaşları bu tədbirdə iştirak etmişdir; yubiley tədbirləri çərçivəsində Ev Muzeyi tərəfindən "Sözləri Hüseyn Cavidindir" adlı mahnı albomunun I buraxılışı, "Türk dünyasını işıqlandıranlar: Mehmet Akif Ersoy və Hüseyn Cavid", "Hüseyn Cavid: ideal həqiqət axtarışı", "Heydər Əliyev və Hüseyn Cavid", "Turan Cavid. Ömür salnaməsi", ""Balaman məktəbi" dərsliyi və Ərtoğrol Cavid", "Ərtoğrol Cavidin nota köçürdüyü xalq mahnıları", "Ərtoğrol Cavidin yarımçıq qalmış əsərləri" adlı kitablar nəşr olunmuşdur. Dövlətimizin qayğı və diqqəti nəticəsində Hüseyn Cavidin Ev Muzeyi əsaslı şəkildə təmir və bərpa olunmuş, bütün otaqların interyeri müasirləşdirilmiş, ekspozisiyalar yeni sərgi texnologiyaların köməyi ilə nümayiş olunmağa başlamış; eksponatların qorunmasında və bərpasında daha təkmil, beynəlxalq muzey standartlardan istifadəyə keçilmişdir; ədibin 130 illik yubileyi münasibətilə muzeyin portalı yenilənmiş, o dövr üçün yeni proqram təminatı və bədii-tərtibatda fəaliyyətə başlamış, yüksək texnologiyalar üzrə milli "Netty" mükafatına layiq görülmüşdür.





Prezidenti İlham Əliyev Hüseyn Cavidin 135 illik yubileyini də diqqətdən kənarda saxlamamış, 24 oktyabr 2017-ci il tarixində bu haqda müvafiq Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tədbirlər planına uyğun olaraq, yubiley münasibətilə Muzey və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Hüseyn Cavid və müasir gənclik" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Türkiyə, Misir, Özbəkistan və digər ölkələrin alim və mü-

təxəssislərinin iştirakı ilə Cavid yaradıcılığı ətrafında elmi-nəzəri müzakirələr aparılmış, cavidşünaslığın müasir vəziyyəti və problemləri araşdırılmışdır. Bununla yanaşı, yubiley çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycanın Bolqarıstandakı səfirliyi, Hüseyn Cavidin Ev Muzeyi, Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin birgə təşkilatçılığı ilə Hüseyn Cavid yaradıcılığına həsr olunmuş beynəlxalq elmi konfrans keçirilmişdir. Ardınca AMEA Rəyasət Heyətində Humanitar Elmlər Bölməsi, İctimai Elmlər Bölməsi və Hüseyn Cavidin Ev Muzeyinin birgə təşkilatçılığı ilə "Hüseyn Cavid yaradıcılığında ideallar və müasir dövr" mövzusunda elmi konfrans təşkil olunmuşdur. 2017-ci ildə "Sözləri Hüseyn Cavidindir" adlı mahnı albomunun II buraxılışı və "Cavidlər" adlı təqvimli foto-albom nəfis tərtibatda çap olunmuş, Hüseyn Cavidin "Maral" və "Şeyda" əsərləri bolqar dilinə tərcümə edilərək, işıq üzü görmüşdür. Yubiley çərçivəsində "Cavidşünaslıq" elmi araşdırmalar toplusunun növbəti 8 cildi (11-18-ci cildlər) çapdan çıxmışdır.

Həmin il Hüseyn Cavidin Ev Muzeyinin eksponatlarından bəhrələnməklə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Hüseyn Cavid-





135" adlı ədəbiyyat sərgisi təşkil olunmuş, xatirə gecəsi keçirilmiş və Cavidin əsərləri əsasında hazırlanmış tamaşa nümayiş olunmuşdur və s.

Hüseyn Cavidin 2022-ci ilə təsadüf edən 140 illik yubileyi də Prezident İlham Əliyevin sərəncamına əsasən, yüksək təntənə ilə qeyd olunmuşdur. Sərəncamda Prezidentin görkəmli ədib haqqında ifadə etdiyi fikirlər Hüseyn Cavid şəxsiyyətinə və yaradıcılığına verilmiş ali qiymət kimi dəyərləndirilməlidir:

"Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm etmişdir. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmişdir. Qüdrətli sənətkar humanist ideallar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur. Parlaq xarakterlərlə zəngin olub, bir neçə nəslin estetik zövqünü formalaşdıran və ölkəmizdə teatr mədəniyyətinə yeni nailiyyətlər qazandı-

ran bu dramaturgiya milli teatr salnaməsində "Cavid teatrı" kimi özünəməxsus layiqli yer tutur. Cavid irsi Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur. Hüseyn Cavid sovet rejiminin ən sərt təzyiqləri şəraitində belə, mənən sarsılmayaraq şəxsiyyətinin bütövlüyünü ləyaqətlə qorumuşdur. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir."

Sərəncamın mətnində Ulu öndər Heydər Əliyevin adının çəkilməsi dahi liderin Cavid uğrunda xidmətlərinin miqyasını, əzəmətini bir daha təsdiqləyir, Cavidə münasibətdə diqqət və qayğının ali formada davam etdiyini, nəcib ənənələrin yaşadığını göstərir.

Onu da vurğulamaq lazımdır ki, 140 illik yubiley ilə əlaqədar Hüseyn Cavidin Ev-muzeyinin elmi-mədəni fəaliyyəti kifayət qədər məhsuldar olmuşdur. Belə ki, 2022-ci ildə akademik İsa Həbibbəylinin tərtib etdiyi "Hüseyn Cavid: həyatı və sənəti", Turan xanımın vaxtılə tərtib etdiyi "Mişkinaz Cavid. Cavidi xatırlarkən" (təkrar nəşr) adlı kitablar, "Hüseyn Cavid fəlsəfəsinin tədqiq tarixi" adlı monoqrafiya, eləcə də "Cavid hikməti (seçmə aforizmlər)" adlı kitab, dosent M.Babayevanın müəllifi olduğu "Hüseyn Cavidin linqvopoetikası" adlı əsər işıq üzü görmüşdür. 2022-ci ildə nəşrə hazırlıq işləri tamamlanmış və 2023-cü ildə işıq üzü görmüş "Hüseyn Cavid. Biblioqrafik göstərici" adlı nəşr də 140 illik yubileyə ərmağan olmuşdur.





Ulu öndər Heydər Əliyevin Hüseyn Cavidə böyük məhəbbətini ləyaqətlə qoruyub yaşadan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son 20 ildə bütün sahələrə olduğu kimi, elm və mədəniyyət sahəsinə də diqqət və qayğısı nəticəsində xalqımızın bir çox görkəmli nümayəndələrinin, o cümlədən Hüseyn Cavidin xatirəsi ən yüksək səviyyədə anılmış, ədibin yubiley tədbirləri həyata keçirilmiş, əsərlərinin yenidən nəşri, yaradıcılığının mütəmadi təbliği istiqamətində göstərişlər verilmiş və bu mənada Hüseyn Cavidin Ev Muzeyinin üzərinə şərəfli vəzifələr qoyulmuşdur. Cənab İlham Əliyevin Hüseyn Cavidin şəxsiyyətinə və yaradıcılığına verdiyi qiymətin məntiqi nəticəsi kimi meydana gəlmiş bu vəzifələri yerinə yetirən Ev Muzeyi 2003-2023-cü il-

lərdə, ümumilikdə 11 dildə, 47 adda 50 cilddən artıq kitab nəşr etmiş, ölkə daxilində və xaricdə 30 beynəlxalq elmi konfrans və simpozium keçirmiş, 70-dən artıq respublika səviyyəli konfrans, seminar, mədəni-kütləvi tədbirin təşkilatçısı olmuşdur.

Ulu öndər Heydər Əliyevin yaratdığı Cavid muzeyi möhtərəm Prezident İlham Əliyevin diqqət və qayğısı ilə Elmlər Akademiyası sistemində olduğu kimi, Mədəniyyət Nazirliyinin tabeliyində də bundan sonra inkişaf edəcək, Hüseyn Cavid irsinin tədqiq və təbliği uğrunda çalışacaqdır.

Xüsusilə diqqətə çatdırılmalıdır ki, Cavid ocağının qoruyucusu, odabaşısı olmuş Turan xanımın məqsəd, məram və arzuları bu gün də Ev-muzeyinin kollektivi tərəfindən uca tutulur, bu arzular elmi-mədəni fəaliyyət üçün başlıca istiqamət kimi götürülərək, muzeyin çiçəklənməsi, müasir informasiya əsri ilə ayaqlaşması naminə yerinə yetirilir. Bununla da Ev-muzeyi təkcə respublikamızda deyil, həm də uzaq-uzaq ölkələrdə Cavid irsinin tanıdılması və təbliği işini genişləndirmək yolunda yorulmadan fəaliyyət göstərir, Turan xanım da muzeyin əbədi rəhbəri kimi yaşamaqda və yaratmaqda davam edir, muzeyin inkişafı ilə birgə onun arzuları və əməlləri də çiçəklənir.





# SÖZARDI

Minillik zəngin humanist ənənələrə malik olan, dünya ədəbiyyatının ayrılmaz tərkib hissəsi kimi şöhrət tapmış Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi ən görkəmli nümayəndələrindən biri-romantik şair və dramaturq, filosof Hüseyn Cavid onilliklər boyu Heydər Əliyevin yüksək qiymətləndirdiyi, yaradıcılığına böyük ehtiram və diqqətlə yanaşdığı, daim təbliğ və təşviq etdiyi sənətkarlardan biridir. Cavid yaradıcılığı ilə hələ Naxçıvanda orta məktəbdə oxuyarkən tanış olmuş Heydər Əliyev 1981-ci ildə keçmiş Azərbaycan KP MK-nın Birinci katibi ikən, Hüseyn Cavidin anadan olmasının 100 illiyinin geniş miqyasda keçirilməsi barəsində qərar qəbul edilməsinə nail olmuşdu. Heç şübhə yoxdur ki, klassik Azərbaycan ədəbiyyatının bir sıra başqa nümayəndələri barəsində çıxarılan qərarlar kimi, bu yüksək dövlət sənədinin də əsas müəllifi və ilhamvericisi o zaman respublikaya

rəhbərlik edən, ədəbiyyatımızın, tariximizin gözəl bilicisi və qayğıkeşi Heydər Əliyev idi.

Ədəbiyyatdan tamamilə uzaq bir sahədə çalışan Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk günlərdən özünü mədəniyyət və mənəviyyat sahəsinin mahir bilicisi kimi göstərdi. Onun keçmiş Azərbaycan SSR-ə rəhbərlik etdiyi on dörd il ərzində ölkəmiz yalnız iqtisadi cəhətdən çiçəklənmədi, həm də əvvəlki onilliklərdə qət edə bilmədiyi sürətli və çoxcəhətli mədəni inkişaf yolu keçdi. Əslində, həmin dövrdə Azərbaycanın iqtisadi qüdrətinin artırılması da nəticə etibarı ilə onun təhsilinin, səhiyyəsinin, mədəniyyətinin inkişafına geniş stimul yaradırdı. Keçmiş SSRİ-nin banisi və baş ideoloqu Leninin saymazyana bir tərzdə "partiya işinin təkərciyi və vintciyi" elan etdiyi ədəbiyyat Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Bu illərdə ədəbiyyata dövlət qayğısı yeni vüsət aldı, nəşriyyatlar şəbəkəsinin genişləndirilməsi, qəzet və jurnalların tirajının artması, teatr və kinonun inkişafı, Azərbaycan ədəbiyyatının təbliği sahəsində görülən işlər nəticə etibarı ilə milli mədəniyyətimizin nəinki keçmiş Ümumittifaq səviyyəsində, həm də beynəlxalq miqyasda tərcümə edilməsinə, tanınmasına və sevilməsinə yol açdı.





Bu dövrdə klassik Azərbaycan ədəbiyyatının nəşri sahəsində xüsusilə böyük işlər görüldü. Yuxarıda artıq qeyd etdiyimiz kimi, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətayı, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Əbdürrəhim Haqverdiyev, Nəriman Nərimanov və b. klassik müəlliflərin əsərləri yeni çoxcildliklər şəklində çap olundu. Bu şair və yazıçıların əsərlərinin ruscaya və xarici dillərə tərcüməsinə diqqət artırıldı. Heydər Əliyevin şəxsi təşəbbüsü və fəal müdaxiləsi ilə Moskvada, "Xudojestvennaya literatura" nəşriyyatında Nizami Gəncəvinin əsərlərinin nəfis beşcildliyi buraxıldı. Klassiklərimizin ədəbi irsinin rus dilinə və keçmiş SSRİ xalqlarının, habelə xarici ölkə xalqlarının dillərinə tərcüməsi, Azərbaycanda keçirilən dil və ədəbiyyat günləri və keçmiş sovet respublikalarında keçirilən Azərbaycan ədəbiyyatı və mədəniyyəti dekadaları yüz minlərlə adamın xalqımızın qədim mədəniyyəti, təkrarsız söz sənəti inciləri ilə tanış olmasına imkan yaratdı. Keçən əsrin 70-ci illərinin ortalarında Moskvada "Proqres" nəşriyyatında ingilis və fransız dillərində çap olunan Azərbaycan ədəbiyyatı antologiyalarının böyük bir qismi söz sənəti-

mizin klassik mərhələsini özündə ehtiva edirdi. Nəhayət, bu dövrdə Azərbaycan ədəbiyyatının xaricdəki dostları ölkəmizə daha tez-tez gəlir və xalqımız, mədəniyyətimiz haqqında həqiqətlərin yayılmasına yardım göstərirdilər. Şübhəsiz ki, bütün bunlar ilk növbədə respublikanın birinci şəxsinin humanitar sahəyə, ədəbiyyat və mədəniyyətə diqqətinin nəticəsi idi.

Monoqrafiyada daha əvvəl də qeyd etdiyimiz kimi, 80-ci illərin ikinci yarısında biz tamamilə əks proseslərin getdiyinin şahidi olduq. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdəki ədəbi yüksəliş, mədəni inkişaf tədricən öz yerini tənəzzül və geriləməyə verdi. Ədəbiyyatımızın klassik və müasir nümayəndələrinin yubileylərinin keçirilməsi, yaradıcılıqlarının öyrənilməsi, əsərlərinin nəşri başlı-başına buraxıldı, mənəvi tərbiyə sahəsindəki uzaq hədəfli və düşünülmüş siyasət öz yerini hərc-mərcliyə və tələsik hazırlanmış spontan tədbirlərə verdi. Özlərinin iddia etdikləri kimi, xalqın içindən çıxan, demokratik düşüncənin daşıyıcıları sayılan, ən başlıcası isə, liderlərinin əksəriyyəti humanitar sahənin mütəxəssisləri olan birillik Azərbaycan Xalq Cəbhəsi nümayəndələrinin hakimiyyəti dövründə də Heydər Əliyevin yaratdığı ənənələri dirçəltmək və da-





vam etdirmək sahəsində elə bir mühüm addım atılmadı. Əksinə, bu dövrdə bir tərəfdən bəzi görkəmli ziyalılara əsassız hücumlar başlandı, o biri tərəfdən isə ədəbiyyata heç bir dəxli olmayan neobolşevik əhvali-ruhiyyəli təzə peyda olmuş azsavadlı və cahil "ideoloqlar" öz "partiya" mövqelərindən Azərbaycan xalqının əsrlər boyu yaratdığı ədəbi-mədəni irsin, onun görkəmli şəxsiyyətlərinin təftişinə girişdilər.

Tarix qəribə bir şəkildə təkrar olunmağa başladı – bir fərqlə ki, proletkultçuların yerini "cəbhəkultçular" tutdular. Kütlənin qabarmasından üzə çıxan çör-çöp və tullantı müvəqqəti də olsa, özünü rəhbər xəyal edərək, kütlənin neçə onillərdən bəri yığılıb qalmış kin-küdurətini püskürməyə başladı. Təbiətdə bunu vulkanların kortəbii püskürməsi ilə müqayisə etmək olar. Eynilə kütlə də vulkan kimi kortəbii və dağıdıcı bir qüvvədir və əgər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməyi bir qədər də geciksəydi, bəlkə də bu dağıdıcı proseslərin qarşısını almaq mümkün olmayacaqdı. Hər halda, Ümummilli liderin vaxtında dönüşü də Azərbaycanın bir şansı sayılmalıdır.

Ulu Öndər vaxtında dönüşü ilə təkcə Azərbaycan dövlətçiliyini xilas etmədi, həm də mənəvi-mədəni deqradasiyanın qarşısını aldı, milli-mədə-

ni simamızı, klassiklərimizi, mədəni dəyərlərimizi özümüzə qaytardı ki, bunlardan biri də, heç şübhəsiz, Hüseyn Cavid irsi idi.

Bəla və dəhşət burulğanının tam kənarında dayanan Azərbaycana xilas qurşağını atan, onu bu girdabın cəngindən qurtaran məhz Ulu öndər Heydər Əliyev oldu. Heydər Əliyev ikinci dəfə qayıdarkən, Azərbaycanın düşdüyü durumu Hüseyn Cavidin keçən əsrin 20-ci illərində qələmə aldığı "Peyğəmbər" dramındakı Peyğəmbər obrazının ilk monoloqlarından birində təsvir etdiyi vəziyyətlə müqayisə etmək mümkündür:

*Öylə bir əsr içindəyim ki, cihan*
*Zülmü vəhşətlə qavrulub yanıyor.*
*Yüz çevırmiş də tanrıdan insan,*
*Küfrü haq, cəhli mərifət sanıyor.*

*Dinləməz kımsə qəlbi, vicdanı,*
*Məhv edən haqlı, məhv olan haqsız...*
*Başçıdır xalqa bir yığın cani,*
*Həp münafiq, şərəfsız, əxlaqsız.*

*Gülüyor nurə daima zülmət,*
*Gülüyor fəzlə qarşı fisqü fücur.*
*Ah, ədalət, hüquq və hürriyyət*
*Ayaq altında çiğnənib duruyor.*





Elə keçən əsrin 90-cı illərinin əvvəllərində də "küfrü haq, cəhli mərifət sanan", zülmətdə dayanıb, nura qəhqəhə çəkməklə öyünən, haqqı və ədaləti ayaqlar altına salan bir qrup yarımsavadlı dövlət başçıları haqq və mərifət məbədi olan, Heydər Əliyevin "Azərbaycanın milli sərvəti" adlandırdığı Elmlər Akademiyasını bağlamaq istəmirdimi? Və bu sərvəti xilas edən Azərbaycanın o zamankı lideri Heydər Əliyev olmadımı? Azərbaycanın düşdüyü ekstremal vəziyyətdə Heydər Əliyev susa bilməzdi və Hüseyn Cavid əsərindəki Mələk də durumun ciddi olduğu bir zamanda Peyğəmbərin susmasını tarixi bir ziyan, tarixin ədalətli gedişinin pozulması adlandırırdı:

*Əvət, gözlər kordur, qulaqlar sağır,*
*Vicdanlar qabadır, tənələr ağır.*
*Fəqət sağır qulaqları açmalı,*
*Dikənli yollara güllər saçmalı...*
*...Ey böyük yalavac, inan ki, sussan,*
*Bəsbəlli tarix görür böyük ziyan.*

Deməli, Hüseyn Cavidin Peyğəmbəri tarixi yenidən yaratmaq, onun görəcəyi ziyanı aradan qaldırmaq missiyasını öz üzərinə götürmüşdür. Eyni missiyanı 1993-cü ildə Heydər Əliyevin də Azər-

baycan üçün öz çiyinlərinə götürdüyünü və şərəflə daşıdığını görməmək olmaz. Əsərdəki Mələk obrazı da müqayisə üçün maraqlı material verir. Belə ki, Mələk – Peyğəmbərin vicdanının maarifçi səsidir. Simvolik olaraq, Mələyin Peyğəmbərə diktə etdiyi missiya əslində onun özünün daxili səsinin diktə etdikləridir. Ölkəsini və xalqını xilas etməyə qalxışmış Heydər Əliyevin də belə bir Mələyi – saf vicdanı və vətənpərvərlik qeyrəti var idi, bunlardan güc alaraq, bərabər olmayan döyüşə atılanda hətta dünyada hər şeydən əziz olan həyatını da verməyə hazır idi. Məslək uğrunda, ideya uğrunda, ülvi amallar uğrunda döyüşə atılanlar üçün cismani həyat o qədər də böyük önəm daşımır. Bu da maraq doğurur ki, öz həyatlarına o qədər də əhəmiyyət verməyən bu cür dahi şəxslər başqalarının həyatı üstündə əsir, hər bir insanı tanrının bəxş etdiyi ən gözəl nemət olan həyatdan doya-doya bəhrələnmək hüququnu təmin etmək üçün əllərindən gələni edirlər. Yenə də "Peyğəmbər"ə müraciət edərək, Baş rəisin dilindən verilmiş və bütün azərbaycanlıların əzbər bildiyi məşhur beyti xatırlayaq:

*Kəssə hər kim dökülən qan izini,*
*Qurtaran dahı odur yer yüzini.*





Heydər Əliyev də hakimiyyətə gəlişi ilə neçə ildən bəri davam edən və hər gün qan izi ilə ürəkləri dağlayan müharibədə sülh əldə etməyə nail oldu, qan izini kəsərək, şəhid analarının göz yaşlarını qurutdu, bu baxımdan da Cavid qəhrəmanına bənzərlik əldə etdi.

Əslində, "Nəticə" kimi nəzərdə tutduğumuz bu "Sözardı"nda söz sözü çəkdi və bir də ayılıb gördük ki, Heydər Əliyev və Hüseyn Cavid bağlarının yeni bir dəstini araşdırmaqdayıq. Yanlış da bir naxışdır, deyiblər və bu yanlışımız üçün qətiyyən təəssüflənmirik. İki dahinin yaradıcılığında (yeri gəlmişkən, Heydər Əliyevin çoxcəhətli yaradıcılığına da xüsusi bir tədqiqat əsəri həsr etmək günümüzün aktual problemlərindən biridir!) bu qədər kəsişən nöqtələrin olması, əlbəttə ki, təkcə tipoloji bənzərliklə izah edilə bilməz. Buradakı bənzərlik daha çox genetik, milli-psixoloji, eyni torpaqdan doğulmuş, eyni minerallardan təşkil olunmuş, eyni hava ilə nəfəs almış iki insanın təbii və zəruri bənzərliyidir. Sağlıq olsa, burada tezis kimi qeyd etdiyimiz, ötəri toxunduğumuz bir çox maraqlı mətləblərə yenidən qayıtmaq və bu problemə ayrıca bir elmi-tədqiqat işi həsr etmək niyyətimizi də gizlətmək istəməzdik.

Nəticə olaraq isə yalnız onu qeyd etməklə ki-

fayətlənirik ki, bəlkə də dünyada Heydər Əliyev və Hüseyn Cavid mövzusu kimi, hökmdar və şair mövzusunun analoqu yoxdur, çünki adamın çətin ağlı kəsir ki, hər hansı ölkənin başçısı öz klassikinə bu qədər dərin və möhkəm bağlarla bağlı olsun...

Şübhəsiz ki, bu mövzuya gələcəkdə də sanballı monoqrafiya və kitablar həsr ediləcəkdir. Biz isə ilk addımı atdığımız üçün hər iki dahinin ruhu qarşısında duyduğumuz qüruru gizlətmək fikrində deyilik.



## MÜNDƏRİCAT

Giriş ........ 3

İki dahi ........ 12

Ədəbiyyatın böyük hamisi ........ 19

Naxçıvandan başlanan tanışlıq, yaxud əbədi bəraət ........ 33

Hüseyn Cavid irsinin bilicisi ........ 49

İki qayıdış ........ 60

Hüseyn Cavidin əbədiyyəti uğrunda ........ 75

Heydər Əliyev və Hüseyn Cavid arasında canlı körpü ........ 96

Sönməz nur, tükənməz məhəbbət ........ 161

Sozardı ........ 173

*AR Mədəniyyət Nazirliyi*
*Hüseyn Cavidin Ev-muzeyinin direktoru,*
*filologiya elmləri doktoru, Əməkdar mədəniyyət işçisi*
**Babaxanlı Gülbəniz İbrahim qızı**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV - HÜSEYN CAVİD İRSİNİN BÖYÜK HAMİSİ

Nəşrə hazırlayan:
**Cavid Cəfərov**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

---

Yığılmağa verilmiş: 15.03.2023.
Çapa imzalanmış: 25.04.2023. Həcmi: 11,5 f.ç.v.
Format: $84x108^1/_{32}$. Ofset kağızı.
Ofset çapı. Tiraj: 300.

*"Elm və Təhsil" NPM-nın mətbəəsində*
*hazır elektron fayllardan çap olunmuşdur.*
*Ünvan: Səbail r-nu, İçəri Şəhər, 3-cü Maqomayev küç.,8,*
*mən. 4. AZ1000, Bakı ş.*
*Tel: +994 12 4971632*